RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 101 (8694) ÇƏRŞƏNBƏ, 19 may 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Azərbaycan bölgədə sülh və sabitliyin təmin olunmasına sadiqdir



**17 may 2021-ci il tarixində axşam radələrində ABŞ Prezidentinin Milli Təhlükəsizlik məsələləri üzrə müşaviri Ceyk Sallivan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.**

Tərəflər arasındakı telefon danışığında ikitərəfli münasibətlər barədə məmnunluq ifadə edilib. Bu münasibətlərin hər iki dövlət və bölgə üçün sülh və təhlükəsizliyin təmin edilməsi baxımından əhəmiyyəti qeyd olunub.

Ceyk Sallivan Azərbaycan və Ermənistan sərhədində yaşanan son gərginlik ilə bağlı narahatlığını bildirib və bu kimi fikir ayrılıqlarının sülh yolu ilə həll olunmasının vacibliyini vurğulayıb. O, həmçinin beynəlxalq sərhədin demarkasiyası üçün tərəflərin konstruktiv müzakirələrinə ehtiyac duyulduğunu vurğulayıb. Ceyk Sallivan ABŞ-ın bölgədə barışığın əldə olunmasına sadiqliyini ifadə edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bölgədə sülh və sabitliyin təmin olunmasına sadiq qaldığımızı bildirib. Azərbaycan Prezidenti bölgədə münaqişə sonrası vəziyyəti müsbət qiymətləndirib, münaqişənin bitməsindən 6 ay sonra bölgədə, o cümlədən Azərbaycan-Ermənistan sərhədində vəziyyətin sabit olduğunu qeyd edib.

Prezident İlham Əliyev ABŞ Prezidentinin Milli Təhlükəsizlik məsələləri üzrə müşavirinin Azərbaycan və Ermənistan arasında beynəlxalq sərhədin delimitasiyası üzrə danışıqların başlanmasına ehtiyac duyulduğu fikri ilə razı olduğunu ifadə edib və bu prosesin 10 noyabr 2020-ci il üçtərəfli bəyanatına uyğun olaraq həyata keçirilməsinin əhəmiyyətini bildirib.

Prezident İlham Əliyev Ermənistanın sərhəd gərginliyi ilə bağlı qeyri-adekvat reaksiyasının və bu məsələni beynəlmiləlləşdirmək cəhdlərinin bölgədə gərginliyin artmasına gətirib çıxara biləcəyini qeyd edib və bütün mübahisələrin sülh yolu ilə və danışıqlar prosesi çərçivəsində həllinin vacibliyini vurğulayıb.

***Prezidentin Mətbuat Xidməti***

## Oljas Süleymenovun “Şərəf” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında mədəni əlaqələrin inkişafına verdiyi töhfələrə görə Oljas Süleymenov “Şərəf” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 may 2021-ci il*

## Belarus və Azərbaycan qarşılıqlı əməkdaşlığın yüksək səviyyəsini nümayiş etdirir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Belarus Respublikasının müdafiə naziri Viktor Xrenini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Belarusun müdafiə nazirini salamlayan **Prezident İlham Əliyev** dedi:

- Xoş gəlmisiniz. Sizi görməyimə şadam. Əminəm ki, səfəriniz uğurlu olacaq. Hərbi sahədə əməkdaşlığımızla bağlı məsələləri həmkarınızla ətraflı müzakirə edəcəksiniz. Bizdə bütün istiqamətlər üzrə işlər yaxşı gedir. Prezident Aleksandr Qriqoryeviç Lukaşenkonun Azərbaycana bu yaxınlardakı səfəri bunu bir daha təsdiq etdi. Biz onunla çox ətraflı söhbət etdik, ikitərəfli münasibətlərin geniş gündəliyinə dair danışıqlar apardıq, o cümlədən ölkələrimiz arasında artıq qədim tarixə malik olan hərbi-texniki əməkdaşlıq məsələlərini müzakirə etdik. Bu istiqamətdə, həmçinin bütün başqa istiqamətlərdə əməkdaşlığı davam etdirmək əzmindəyik. Ona görə ki, bu gün Belarus və Azərbaycan qarşılıqlı fəaliyyətin, əməkdaşlığın yüksək səviyyəsini nümayiş etdirir.

Mən Belarus şirkətlərini Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin bərpasında iştiraka dəvət etmişəm. Bir qədər sonra mən sizə həmin ərazilərdən çəkilmiş fotoşəkilləri göstərərəm. Onlar 30 ilə yaxın işğala məruz qalmış torpağımızda törədilmiş vandalizmin və dağıntıların səviyyəsini əyani şəkildə göstərir. Mənim bildiyimə görə, artıq bu məsələlərdə iştirak etməyə maraq var. Yaxın vaxtlarda Prezidentin səfəri zamanı əldə edilmiş razılaşmalar çərçivəsində Azərbaycanın kənd təsərrüfatı nazirinin rəhbərliyi ilə nümayəndə heyəti Belarusa səfər edəcək. Lakin bütün başqa istiqamətlər üzrə də bundan sonra fəal əməkdaşlıq edəcəyik və bir-birimizi dəstəkləyəcəyik.

Dediyim kimi, ölkələrimiz arasında hərbi, hərbi-texniki sahədə əməkdaşlıq qədim tarixə malikdir və çox yaxşı nəticələr verir. Buna görə əminəm ki, sizin həmkarlarınızla diskussiyalar, fikir mübadiləsi bu sahədə qarşılıqlı fəaliyyətin daha da inkişaf etdirilməsi işində faydalı olacaq. Bir daha xoş gəlmisiniz.

Belarusun müdafiə naziri **Viktor Xrenin** dedi:

- Sağ olun, cənab Prezident. İlk növbədə, Sizinlə görüşmək, Belarus Respublikasının Prezidenti Aleksandr Qriqoryeviç Lukaşenkonun adından Sizi və Azərbaycan xalqını salamlamaq, sülh və firavanlıq arzularını çatdırmaq imkanına görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Yüksək səviyyədə səfərlər mübadiləsi həmişə onu göstərir ki, bizim qarşılıqlı fəaliyyətimiz və əməkdaşlığımız yaxşıdır və gözəldir. Bizim dövlətimizin başçısı demişkən, Azərbaycan Belarusun şəxsində Mərkəzi Avropada özünə etibarlı dayaq, Belarus isə Azərbaycanın şəxsində Qafqazda etibarlı dost tapıb. Prezidentin dediyi kimi, bizim parlaq əməkdaşlığımız var. Deyə bilərəm ki, o, buna görə çox fəxr edir.

Azərbaycan bizim ənənəvi dostumuz və müttəfiqimizdir, həm regional, həm də beynəlxalq siyasi aləmdə həmişə mühüm rol oynayıb. Dünya miqyasında bizi dəstəklədiyinizə, bizə siyasi dəstək verdiyinizə görə Sizə şəxsən öz adımızdan, Belarus Respublikası adından təşəkkürümü bildirmək istərdim.

Cənab Prezident, Dağlıq Qarabağ zonasında hərbi əməliyyatların dayandırılması üçün Sizin əldə etdiyiniz razılaşmaları da alqışlayırıq. Biz, sadəcə, əminik ki, Sizin müdrik rəhbərliyinizlə bu, həmin regionun daha da inkişaf etməsi və Sizin diyarda sülhün möhkəmlənməsi üçün yaxşı təməl olacaq.

❖ ❖ ❖

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Belarusun dövlət başçısına çatdırmağı xahiş etdi.



## Böyük inkişafın Naxçıvan reallıqları

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin II Qarabağ - Vətən müharibəsində xalqımıza qazandırdığı tarixi Zəfər ölkəmizin bütün çoxəsrlik inkişaf tarixi ərzində əldə edilmiş ən parlaq Qələbədir, misilsiz hadisədir. Bu mühüm hərbi-siyasi Zəfərin qazanılması haqqında ilk tarixi bəyanatı Azərbaycan xalqına çatdırmaq missiyasını böyük şərəf hissi ilə yerinə yetirən Qalib Ali Baş Komandan İlham Əliyevin səsləndirdiyi sərrast Qələbə raportu dünya azərbaycanlıları ilə birlikdə bütün Azərbaycan xalqına ünvanlanmış ən böyük əvəzsiz müjdə idi.

Bununla cənab Prezident Vətən müharibəsində bütövlükdə Azərbaycan xalqının iştirak etdiyini və bu tarixi qələbədə hər bir vətəndaşın payı və rolu olduğunu bəyan etmişdir. Prezident İlham Əliyevin 8 noyabr 2020-ci il tarixdə Şuşa şəhəri işğaldan azad edildikdən dərhal sonra Azərbaycan xalqına Azad Şuşa haqqında bəyanatını çatdırmaqla bərabər, həm də həmin tarixi gündə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Fəxri xiyabandakı məzarını ziyarət edərək təbii bir həyəcanla “Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim” sözlərini səsləndirməsi Vətən müharibəsi hadisələrinin kuliminasiya nöqtəsi kimi tarixə daxil olmuşdur. Bu, Qalib Ali Baş Komandanın tarixi Qələbənin böyük təməllərini qoymuş Ümummilli Lider qarşısında ibrətamiz hesabatı kimi mühüm tarixi hadisəyə çevrilmişdir.

Fikrimizcə, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xalqımızın Ümummilli Lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olduğu 10 may günündə onun dünyaya gəldiyi Naxçıvan Muxtar Respublikasına səfər etməsi özünün dərin mahiyyəti etibarilə Qalib Prezidentin atdığı növbəti tarixi addımdır. Bu tarixi missiyanın həyata keçirilməsi Prezident İlham Əliyevin həm müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyev qarşısındakı borcunun parlaq ifadəsi, həm də xalqımız üçün əziz olan həmin tarixi günün ənənəvi qaydada deyil, tarixi hadisə səviyyəsində qeyd olunmasının təmin edilməsi baxımından qanunauyğun, lakin qeyri-adi hadisədir. Möhtərəm Prezidentimiz İlham Əliyevin Naxçıvan səfəri Ulu Öndər Heydər Əliyevin ad gününü onun doğulduğu torpaqda baş vermiş mühüm nailiyyətlərin, böyük dəyişikliklərin möhtəşəm hesabatı formatında qeyd etməsi, görkəmli dövlət xadiminin Naxçıvan Muxtar Respublikasından başladığı Azərbaycanın dövlət müstəqilliyi və ərazi bütövlüyü uğrundakı mübarizəsinin uğurla davam etdirilməsinin təntənəsidir.

*Ardı 4-cü səh.*

## Yüksəlişin Naxçıvan nümunəsi

### Prezident İlham Əliyevin 15-ci səfəri muxtar respublikanın öz nailiyyətlərini daha da artırmasına təkan verəcək

Minilliklərə söykənən şanlı keçmişə, güclü dövlətçilik ənənələrinə, milli-mənəvi və mədəni dəyərlərə malik olan Azərbaycan dövləti bu gün müasir tarixinin şərəfli dövrünü yaşayır.

Cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin yenilməz qətiyyəti və siyasi müdrikliyi işğal altında olan torpaqlarımızın azad edilməsi dövlətçilik və müstəqillik tariximizə qızıl hərflərlə həkk olundu. Bu qələbə xalqımızın həmrəyliyinin, sıx səfərbərliyinin, Azərbaycanda yaşayan bütün millətlərin həmrəyliyinin təntənəsinə çevrildi. May ayının 12-13-də Qarabağın mirvarisi Şuşada keçirilən “Xarıbülbül” musiqi festivalı da xalqımızın döyüş meydanında nümayiş etdirdiyi milli birliyin təcəssümü idi...

### Naxçıvan igidləri qəhrəmanlıq nümunələri yaratdılar

Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi sayəsində Vətən müharibəsi Azərbaycanın müasir tarixinin ən parlaq Qələbəsinə çevrildi. Bu savaşda biz bir xalq olaraq birləşdik, igid övladlarımız torpaqlarımızın azadlığı uğrunda canlarından keçdilər.

*Ardı 5-ci səh.*

## Bakı-Zəngəzur-Naxçıvan

### Prezident İlham Əliyevin müəllifi olduğu Avrasiyanın bu yeni nəqliyyat dəhlizi qitələrarası əməkdaşlığa mühüm töhfə verəcək

**◆ Jurnalist araşdırması**

Azərbaycanın apardığı məqsədyönlü sosial-iqtisadi siyasət yalnız paytaxta nisbətən yaxın olan regionlarımızın deyil, 30 ilə yaxın blokada şəraitində qalan Naxçıvan Muxtar Respublikasının da uğurlu inkişafına imkan yaradıb.




Təcrid edilmiş şəraitdə davamlı yüksəlişə nail olan Naxçıvan bu gün ölkəmizin ən inkişaf etmiş bölgələrindəndir. Bu tərəqqini şərtləndirən əsas cəhətlərdən biri isə burada iqtisadi sahənin hər hansı qolu deyil, bütün istiqamətlərinin inkişafıdır.

### Naxçıvan mühüm nəqliyyat qovşağına çevrilir

Prezident İlham Əliyev tarixi zəfərdən sonra Ulu Öndər Heydər Əliyevin doğum günündə - mayın 10-da Naxçıvan Muxtar Respublikasına etdiyi 15-ci səfəri zamanı da bu bölgənin sənaye potensialının artdığını qeyd edib.

“Naxçıvan Muxtar Respublikası son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordsmen bölgədir. Ümumi daxili məhsul 10 dəfədən çox artıb. Kənd təsərrüfatı ilə bağlı görülmüş işlər nəticəsini verməkdədir. Bir sözlə, muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir” söyləyən Prezident Naxçıvanın bu liderliyinin bundan sonra da saxlanılacağına əminliyini ifadə edib.

Dövlət başçısında bu əminliyi yaradan əsas amillər isə muxtar respublikada əlverişli iqtisadi mühitin formalaşması, mövcud resurslardan səmərəli istifadə, investisiya qoyuluşlarının artırılması, infrastruktur təminatının gücləndirilməsidir.

*Ardı 6-cı səh.*

## Modern tərəqqi ünvanı

“Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım yerinə yetirilsin”.

Ulu Öndər Heydər Əliyevin bu arzularının reallığa çevrilməsi üçün son 17 ildə yürütdüyü siyasətlə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Prezident İlham Əliyev bu gün müdrik qərarları, yeni inkişaf konsepsiyası ilə əldə edilən nailiyyətləri daha da möhkəmləndirir. Həmçinin blokada şəraitində olmasına baxmayaraq, Naxçıvanın sosial-iqtisadi yüksəlişi üçün daim mühüm layihələr gerçəkləşdirir.

Mayın 10-da muxtar respublikaya səfəri çərçivəsində Prezidentin açılışını etdiyi, təməlini qoyduğu sosial-iqtisadi, hərbi obyektlər bunu bir daha təsdiqləyir.

### İnkişaf və quruculuq meydanı

Prezident Naxçıvana xüsusi bir gündə - Ulu Öndər Heydər Əliyevin doğum günündə səfər etdi. Səbəbini isə dövlət başçısı belə izah etdi ki, bu səfər tarixi Zəfərdən sonra dahi şəxsiyyətin birinci doğum gününə təsadüf etdiyi üçün belə bir addım atıb.

Naxçıvana 15-ci səfər ona görə də digər səfərlərdən fərqlənirdi. Çünki Prezident muxtar respublikaya qalib sərkərdə kimi getmişdi və həm də məğrur idi, Ümummilli Liderin Vətəninə Zəfər Komandanı kimi yollanmışdı.

*Ardı 5-ci səh.*

## Dövlət icbari şəxsi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dövlət icbari şəxsi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin (bundan sonra - Şirkət) Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının, hakimlərin, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat orqanlarının şəxsi heyətinin, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin hərbi qulluqçularının, habelə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda) hərbi xidmətdə olan şəxslərin və toplanışlarda olan hərbi vəzifəlilərin, prokurorların, müstəntiqlərin, ədliyyə, miqrasiya orqanlarında qulluq keçən, təhqiqat aparan, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən, fövqəladə halların nəticələrinin aradan qaldırılmasını, ictimai qaydanın mühafizəsini təmin edən, gömrük işini təşkil edən, Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin və mülki müdafiə qüvvələrinin şəxsi heyətinin həyat və sağlamlığının dövlət icbari şəxsi sığortası sahəsində səlahiyyətləri 2022-ci il yanvarın 1-dən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə edilsin.

2. Müəyyən edilsin ki:

2.1. dövlət icbari şəxsi sığortası sahəsində sığortalıların təqdim etdiyi məlumatlar əsasında sığortaolunanların və sığortalıların uçotunun aparılmasını, sığortalı tərəfindən sığorta haqlarının sığortaçıya ödənilməsinə nəzarəti, sığorta ödənişlərinin dövlət icbari şəxsi sığortası sahəsində Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş qaydada və müddətdə verilməsini, sığorta ehtiyatlarının yaradılmasını, artırılmasını, habelə dövlət icbari şəxsi sığortası sahəsində digər işlərin görülməsini Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra - Nazirlik) tabeliyində Dövlət Sosial Müdafiə Fondu (bundan sonra - Fond) həyata keçirir;

2.2. dövlət icbari şəxsi sığortası üzrə daxil olan sığorta haqları (bundan sonra - sığorta vəsaiti) Nazirliyin xüsusi xəzinə hesabında toplanır və fondun xüsusi bank hesabına köçürülür;

2.3. sığorta vəsaitindən aşağıdakı istiqamətlərdə istifadə olunur:

2.3.1. dövlət icbari şəxsi sığorta ödənişlərinin verilməsinə;

2.3.2. sığorta ehtiyatının yaradılmasına;

2.3.3. müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı tədbirlərin maliyyələşdirilməsinə;

2.4. sığorta vəsaitindən, o cümlədən sığorta ehtiyatından istifadə qaydasını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir;

2.5. hər il üçün dövlət icbari şəxsi sığortası üzrə gəlir və xərclərin bu Fərmanın 2.3-cü bəndində qeyd edilmiş istiqamətlər üzrə bölgüsünü Nazirlik təsdiq edir;

2.6. bu Fərmanın 2.3.2-ci yarımbəndi üçün nəzərdə tutulan sığorta ehtiyatından aşağıdakı qaydada istifadə olunur:

2.6.1. sığorta ehtiyatı Azərbaycan Respublikasında fəaliyyət göstərən yerli sistem əhəmiyyətli banklarında depozitə yerləşdirilir;

2.6.2. sığorta ehtiyatı sığorta haqlarının illik proqnoz həcminə bərabər olduqda, sığorta ehtiyatının artırılması dayandırılır, onun depozitə yerləşdirilməsindən əldə edilən gəlir isə bu Fərmanın 2.3.3-cü yarımbəndində göstərilən tədbirlərin maliyyələşdirilməsinə yönəldilir;

2.6.3. sığorta ödənişləri üzrə illik gözlənilən xərclər sığorta haqları üzrə illik gözlənilən daxilolmadan artıq olduqda, gözlənilən sığorta ödənişləri üzrə xərclər və sığorta haqları üzrə daxilolmalar arasındakı kəsir sığorta ehtiyatı hesabına maliyyələşdirilir;

2.6.4. cari ilin sonunda sığorta vəsaitinin istifadə olunmamış qalığı, sığorta ehtiyatı və onun depozitə yerləşdirilməsindən əldə edilmiş gəlir növbəti il üçün xərclərin maliyyələşdirilməsinə yönəldilir;

2.7. 2022-ci il yanvarın 1-dək sığortaolunanlara sığorta ödənişlərinin verilməsini Şirkət həyata keçirir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan səlahiyyətlərin Nazirliyə verilməsi ilə əlaqədar sığorta haqlarının idarə olunması sahəsində normativ hüquqi aktların təkmilləşdirilməsinə dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. sığorta vəsaitindən, o cümlədən sığorta ehtiyatından istifadə qaydasını dörd ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan səlahiyyətlərin Nazirliyə verilməsi ilə əlaqədar Nazirlik və Şirkət müvafiq sənədlərin və məlumatların 2021-ci il dekabrın 31-dək təhvil-təslim işlərini təmin etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 may 2021-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 1597 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sosial sığorta ehtiyatından istifadə Qaydası"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 29 dekabr tarixli 240-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 1597 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 9, maddə 1644; 2019, № 1, maddə 73) ilə təsdiq edilmiş "Sosial sığorta ehtiyatından istifadə Qaydası"nın 3.3-cü bəndinin birinci cümləsində "19-cu və 20-ci maddələrində" sözləri "20-ci maddəsində, həmçinin 2021-ci il yanvarın 1-dək qüvvədə olan 19.1.1-ci, 19.1.3-cü, 19.1.5-ci və 19.1.8-ci maddələrində" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 may 2021-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyun tarixli 1077 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət Sosial Müdafiə Fondunun Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyun tarixli 1077 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 718) ilə təsdiq edilmiş "Dövlət Sosial Müdafiə Fondunun Nizamnaməsi"nin 5.7-ci bəndinə "saxlanma xərcləri" sözlərindən sonra "və dövlət icbari şəxsi sığortası vəsaitləri" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 may 2021-ci il*

# Romada Azərbaycan və İtaliya parlamentləri arasında əlaqələrin inkişaf perspektivləri müzakirə olunub

Xəbər verildiyi kimi, Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti İtaliya tərəfinin dəvəti ilə mayın 17-dən Romada səfərdədir. AZƏRTAC xəbər verir ki, Milli Məclisin sədri səfər çərçivəsində mayın 18-də Qustiniani sarayında İtaliya Senatının sədri Maria Elisabetta Alberti Kasellati ilə görüşüb.



İtaliya Senatının sədri Milli Məclisin sədri Sahibə Qafarovanı və nümayəndə heyətini salamlayaraq İtaliyanın Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduğunu diqqətə çatdırıb. 2018-ci ildə Bakıya səfərini xatırladan M.Kasellati iki ölkə arasında həm hökumətlərarası, həm də parlamentlərarası münasibətlərin yüksək səviyyədə olmasından məmnunluğunu ifadə edib.

İtaliya Senatının sədri xüsusi olaraq vurğulayıb ki, COVID-19 pandemiyasının dünyadakı təhlükəli fəsadlarına baxmayaraq, İtaliya-Azərbaycan münasibətləri yüksək səviyyədə inkişaf edir.

Azərbaycanın sabit və davamlı inkişaf etdiyini vurğulayan M.Kasellati xüsusi olaraq iqtisadiyyat sahəsində əldə olunan nailiyyətləri təqdir edib.

Azərbaycan tərəfindən həyata keçirilən layihələrin, xüsusilə TAP-ın əhəmiyyətini qeyd edən M.Kasellati, bu layihəni Avropaya açılan qapı kimi qiymətləndirib. Senatın sədri neft və qazla zəngin ölkə olan Azərbaycanda iqtisadiyyatın şaxələndirilmiş formada inkişaf etdiyini və 2018-ci ildə ölkəmizə səfəri zamanı bunun bir daha şahidi olduğunu söyləyib.

M.Kasellati Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun gördüyü işləri xüsusilə alqışladığını bildirib. O, mədəniyyət sahəsində əməkdaşlığın əhəmiyyətini vurğulayaraq mədəniyyəti xalqlar arasında körpü kimi qiymətləndirib.

Görüşdə Milli Məclisin sədri Sahibə Qafarova göstərilən qonaqpərvərliyə və rəsmi səfərə dəvətə görə Senatın sədrinə təşəkkürünü bildirib, qarşılıqlı səfərlərin münasibətlərimizin inkişafında mühüm rol oynadığını vurğulayıb.

Sahibə Qafarova hazırda ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə inkişaf etdiyini bildirərək 2018-ci və 2020-ci illərdə dövlət başçılarının qarşılıqlı səfərlərinin münasibətlərin dinamik inkişafında mühüm rolunu diqqətə çatdırıb.

Milli Məclisin sədri ölkələrimiz arasında münasibətlərin inkişafında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xüsusi rolundan söz açıb, 2020-ci ilin İtaliyada "Azərbaycan mədəniyyət ili" elan olunmasının, film festivalları keçirilməsinin əhəmiyyətindən danışıb.

Daha sonra parlamentlərarası münasibətlərə toxunan Milli Məclisin sədri qeyd edib ki, hazırda ölkələrimizin parlamentləri arasında münasibətlər yüksək səviyyədədir, dostluq qrupları arasında əlaqələr qənaətbəxşdir.

44 günlük Vətən müharibəsi barədə danışan Milli Məclisin sədri Qarabağ münaqişəsinin artıq həll olunduğunu və tarixə çevrildiyini vurğulayıb. Spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, Azərbaycan 30 illik işğala son qoyub və BMT Təhlükəsizlik Şurasının qətnamələrini özü icra edib. Hazırda isə Azərbaycan işğaldan azad edilmiş ərazilərin bərpasını həyata keçirir.

Milli Məclisin sədri Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı və artıq azad olunmuş torpaqlarımızda törətdiyi dağıntılar, şəhərləri yerlə yeksan etməsi, mədəni, tarixi abidələri məhv etməsi faktlarını qeyd edib. S.Qafarova Ermənistanın növbəti təxribatını - minalanmış ərazilərin xəritəsini vermək istəmədiyini də diqqətə çatdıraraq bildirib ki, bunun nəticəsində həm mülki şəxslər, həm də hərbçilər həlak olurlar.

Milli Məclisin sədri qeyd edib ki, beynəlxalq ictimaiyyət bununla bağlı Ermənistana təzyiq göstərməlidir. Çünki minalanmış ərazilərin xəritələrinin verilməməsi, bundan imtina edilməsi beynəlxalq hüququn bütün normalarına görə hərbi cinayətdir.

Söhbət zamanı Sahibə Qafarova ölkəmizdə mövcud olan tolerantlıq və multikulturalizm mühitindən danışaraq Azərbaycanın bu sahədə nümunə olduğunu vurğulayıb.

Ermənistan tərəfindən terrorçuların hərbi əsirlər kimi təqdim olunması cəhdlərinə də toxunan Milli Məclisin sədri qeyd edib ki, Azərbaycanda hərbi əsirlər yoxdur, bütün hərbi əsirlər təhvil verilib. Azərbaycanda saxlanılan şəxslər isə terrorçulardır, çünki onlar 10 noyabr tarixli üçtərəfli bəyanatın imzalanmasından sonra Azərbaycan ərazisinə təxribat məqsədilə göndəriliblər.

Söhbət zamanı Milli Məclisin sədri Vətən müharibəsi dövründə Azərbaycanın haqlı mövqeyini dəstəkləyən İtaliya parlamentinin nümayəndələrinə təşəkkürünü bildirib.

Görüşdə iki ölkə arasında parlamentlərarası əlaqələrin bu günü və inkişaf perspektivləri barədə də fikir mübadiləsi aparılıb.

# Milli Məclis sədrinin başçılıq etdiyi parlament nümayəndə heyəti Romada Nizami Gəncəvinin abidəsini ziyarət edib

AZƏRTAC xəbər verir ki, mayın 18-də Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə Azərbaycanın parlament nümayəndə heyəti Romadakı məşhur "Villa Borghese" parkında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.

Xatırladaq ki, bu abidə "Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 dekabr tarixli sərəncamına əsasən ucaldılıb. Həmin sərəncama əsasən, Nizami Gəncəvinin yubileyinə həsr edilmiş silsilə tədbirlər çərçivəsində Heydər Əliyev Fondunun dəstəyi ilə 2012-ci ilin aprelində abidənin açılışı olub.






# Azərbaycan ilə İtaliya arasında münasibətlər yüksək səviyyədədir

Milli Məclisin sədri Sahibə Qafarova İtaliyaya rəsmi səfəri çərçivəsində mayın 18-də İtaliya Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi, Azərbaycan Respublikası və İtaliya Respublikası arasında İqtisadi Əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın həmsədri Manlio Di Stefano ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Manlio Di Stefano Azərbaycan nümayəndə heyətini salamlayaraq İtaliyaya rəsmi səfərin uğurlu olacağına ümidvar olduğunu bildirib. Azərbaycana sonuncu səfərini məmnunluqla xatırlayan Di Stefano ölkəmizdən xoş təəssüratlarla ayrıldığını vurğulayıb.

Milli Məclisin sədri Sahibə Qafarova səmimi görüşə görə təşəkkür edərək rəsmi səfərin İtaliya Senatının sədri Maria Elisabetta Alberti Kasellatinin dəvəti əsasında baş tutduğunu bildirib.

S.Qafarova çıxışında Azərbaycan ilə İtaliya arasında münasibətlərin yüksək səviyyədə olduğunu diqqətə çatdırıb. Sədr qeyd edib ki, İtaliya Prezidenti Sercio Mattarellanın 2018-ci ildə Azərbaycana, Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci ildə İtaliyaya rəsmi səfərləri əlaqələrin inkişafına böyük töhfə verib.

Mədəni əlaqələrin inkişafına toxunan S.Qafarova Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə İtaliyada həyata keçirilən layihələri vurğulayıb. Qeyd olunub ki, bu cür layihələr ölkələrimiz və xalqlarımız arasında münasibətlərin daha da dərinləşməsinə xidmət edir.

Daha sonra Milli Məclisin sədri 44 günlük Vətən müharibəsi və artıq başa çatmış münaqişə barədə məlumat verib. Bildirilib ki, hazırda Azərbaycan işğaldan azad olunmuş ərazilərdə böyük quruculuq işlərinə başlayıb.



Ermənistanın münaqişə başa çatdıqdan sonra da tutduğu qeyri-konstruktiv mövqeyə toxunan S.Qafarova bildirib ki, Ermənistan minalanmış ərazilərin xəritəsini təqdim etmir və bu yolla ərazilərdə bərpa işlərini və məcburi köçkünlərin doğma torpaqlarına qayıda bilməsi prosesini ləngidir. Eyni zamanda, Ermənistan həqiqəti əks etdirməyən məlumatlar yayaraq, münaqişə başa çatdıqdan sonra saxlanılan terrorçuları "hərbi əsir" kimi qələmə verməyə çalışır.

Milli Məclisin sədri vurğulayıb ki, Azərbaycan sülh tərəfdarıdır, regionda bütün insanların sülh içində yaşamasını istəyir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Manlio Di Stefano: "Biz hazırda Azərbaycan ilə İtaliya arasında əlaqələrin ən yüksək səviyyəsinə şahidlik edirik"

Biz hazırda Azərbaycan ilə İtaliya arasında əlaqələrin ən yüksək səviyyəsinə şahidlik edirik.

AZƏRTAC xəbər verir ki, bu fikirləri İtaliya Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi, Azərbaycan Respublikası və İtaliya Respublikası arasında İqtisadi Əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın həmsədri Manlio Di Stefano mayın 18-də Milli Məclisin sədri Sahibə Qafarova ilə görüşündən sonra bildirib.

O qeyd edib ki, görüşdə bütün istiqamətlərdə, xüsusilə də ticarət sahəsində əməkdaşlığın perspektivləri müzakirə olunub, xüsusilə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən quruculuq işləri haqqında ətraflı fikir mübadiləsi aparılıb.

Sahibə Qafarova ilə görüşdə parlamentlərarası əlaqələrin inkişafı üçün atıla biləcək addımlar ətrafında söhbət aparıldığını vurğulayan Manlio Di Stefano bildirib: "İnanıram ki, parlamentlərarası əlaqələr münasibətlərin ikitərəfli inkişafına töhfə verəcək".

# Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclası keçirilib

Mayın 18-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclası olub, hakimlərin təyinatı ilə əlaqədar 7 məsələyə baxılıb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr komitəsindən AZƏRTAC-a bildiriblər ki, iclasda Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli son illər dövlət başçısının rəhbərliyi ilə ölkəmizdə islahatların yeni mərhələsinin həyata keçirildiyini vurğulayıb. Qeyd edib ki, məhkəmə-hüquq sistemi də bu islahatlardan kənarda qalmayıb. İlk növbədə, qanunvericilik islahatları aparılıb, əlaqədar qurumlar tərəfindən çox əhəmiyyətli qanun layihələri hazırlanaraq Milli Məclisə təqdim edilib və parlamentdə müzakirəyə çıxarılaraq qəbul olunub. Növbəti mərhələdə Məhkəmə-Hüquq Şurası tərəfindən nizam-intizamın gücləndirilməsi, şəffaflığın artırılması ilə bağlı mühüm işlər görülüb. Çox vacib olan üçüncü istiqamət isə kadr islahatlarını əhatə edib.

Əli Hüseynli bildirib ki, komitə iclasında parlamentə Azərbaycan Prezidentinin imzası ilə daxil olan, Ali Məhkəməyə və regional apellyasiya məhkəmələrinə hakimlərin təyinatı ilə bağlı təqdimat müzakirə ediləcək.

Sonra iclasda Məhkəmə-Hüquq Şurası Aparatının rəhbəri Cavid Hüseynov islahatlar dövründə qurumun həyata keçirdiyi işlər barədə danışıb. Məhkəmə fəaliyyətinin və ədalət mühakiməsinin səmərəliliyinə təsir göstərən amillərdən söz açıb. Aparılan kadr islahatları, yerlərdə inşa olunan məhkəmə kompleksləri və digər işlər barədə ətraflı məlumat verib.

Bildirib ki, pandemiya ilə əlaqədar ötən il məhkəmə sistemi məhdud fəaliyyət göstərib. Bununla əlaqədar olaraq Məhkəmə-Hüquq Şurası elektron məhkəmə-informasiya sistemi vasitəsilə işlərə baxılması üçün əlavə proqram təminatı hazırlayıb və həmin proqram sayəsində öncə yalnız mülki xarakterli işlərə baxılması mümkün olub. Ötən ilin iyununda Milli Məclisdə müvafiq qanun qəbul edildikdən sonra pandemiya şəraitində cinayət işlərinə də elektron qaydada baxılması təmin edilib.

İclasda İnsan hüquqları komitəsinin sədri Zahid Oruc ölkəmizdə gedən məhkəmə-hüquq islahatları ilə bağlı rəhbəri olduğu Sosial Tədqiqatlar Mərkəzinin statistik məlumatlarını nəzərə çatdırıb.

Komitə üzvləri Bəhruz Məhərrəmov, Fəzail Ağamalı, Elşən Musayev, Erkin Qədirli, Tahir Kərimli, Kamal Cəfərov və Nizami Səfərov gündəlikdəki məsələlərlə bağlı fikirlərini açıqlayıblar, təkliflərini diqqətə çatdırıblar, hakimliyə namizədlərə müsbət münasibətlərini ifadə ediblər.

Cavid Hüseynov deputatları maraqlandıran məsələlərə aydınlıq gətirdikdən sonra Milli Məclis sədrinin birinci müavini, komitə sədri Əli Hüseynli müzakirələri yekunlaşdırıb.

Komitədə baxılan məsələlər - Azərbaycan Respublikası Ali Məhkəməsi və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi, Bakı, Sumqayıt və Şirvan Apellyasiya məhkəmələri hakimlərinin təyin edilməsi, Gəncə və Şəki Apellyasiya məhkəmələri hakimlərinin təyin və azad edilməsi haqqında təqdimatlar Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Azərbaycan Prezidentinin köməkçisi Brüsseldə Avropa İttifaqı komissarı ilə görüşüb



Brüsseldə səfərdə olan Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Avropa İttifaqının (Aİ) qonşuluq və genişlənmə üzrə komissarı Oliver Varhelyi ilə görüşüb. AZƏRTAC xəbər verir ki, bu barədə Oliver Varhelyi özünün Twitter hesabında bildirib.

Qeyd edilib ki, görüşdə Avropa İttifaqı ilə Azərbaycan arasında ikitərəfli münasibətlər, Aİ-nin Qarabağa yardımı, COVID-19-dan sonra iqtisadi bərpa və TAP boru kəmərinin potensialı məsələləri müzakirə olunub.

# Azərbaycanın xarici işlər nazirinin Türk Şurasının Baş katibi ilə telefon danışığı olub




Mayın 18-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi (Türk Şurası) Bağdad Amreyev ilə telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, tərəflər Azərbaycanın Türk Şurası ilə əməkdaşlığı məsələləri, o cümlədən təşkilatın qarşıdan gələn görüş və tədbirləri barədə fikir mübadiləsi aparıblar.

Türk Şurasına üzv ölkələrin bu ilin payızında keçiriləcək Zirvə görüşünə hazırlıq məqsədilə keçiriləcək görüşlər, o cümlədən yüksəksəviyyəli nümayəndələr komitəsinin toplantısı və xarici işlər nazirlərinin görüşü müzakirə olunub.

Telefon söhbətində həmçinin təşkilatın gələcək inkişafı məsələləri ətrafında müzakirələr aparılıb.

# Azərbaycan ilə Belarus arasında hərbi-texniki əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub



Mayın 18-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Belarus Respublikasının müdafiə naziri general-leytenant Viktor Xreninin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Belarusun nümayəndə heyəti əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarı önünə əklil və gül dəstələri qoyub, xatirəsini ehtiramla yad edib.

Qonaqlar həmçinin Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının məzarlarını ziyarət edərək üzərinə əklil və gül dəstələri qoyublar.

Sonra Müdafiə Nazirliyində rəsmi qarşılanma mərasimi keçirilib. Qonaq fəxri qarovul dəstəsinin önündən keçib, hər iki ölkənin dövlət himnləri səsləndirilib və protokola uyğun olaraq "Şərəf kitabı" imzalanıb.

Azərbaycan və Belarus hərbi nümayəndə heyətləri arasında geniş tərkibdə görüş keçirilib.

Qonaqları salamlayan general-polkovnik Z.Həsənov vurğulayıb ki, dövlətlərimizin başçılarının yaxın dostluq əlaqələri ölkələrimiz və xalqlarımız arasında səmimi və qarşılıqlı inam ənənələrinə söykənir. Azərbaycan Belarus ilə bütün istiqamətlərdə, o cümlədən hərbi sahədə əməkdaşlığa böyük əhəmiyyət verir. Hərbi-texniki və hərbi təhsil sahələrində Azərbaycan-Belarus əməkdaşlığının genişləndirilməsi üçün böyük potensial mövcuddur və bu münasibətlər uğurla inkişaf edir.

Regiondakı siyasi və təhlükəsizlik məsələlərinə toxunan Azərbaycanın müdafiə naziri müxtəlif beynəlxalq platformalarda ölkələrimizin aktiv fəaliyyət göstərdiyini, bir-birini dəstəklədiyini və maraqlarını müdafiə etdiyini xatırladıb.

General-polkovnik Z.Həsənov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin komandanlığı altında əks-həmlə əməliyyatı ilə başlayan Vətən müharibəsi Azərbaycan Ordusunun şanlı Qələbəsi ilə başa çatdı və torpaqlarımız işğaldan azad edildi. Azərbaycan Ordusu tərəfindən keçirilmiş uğurlu hərbi əməliyyatlar haqqında qonağa məlumat verən nazir 44 gün davam edən müharibə dövründə Belarusun tutduğu mövqeyə görə də həmkarına minnətdarlığını bildirib.

Müdafiə naziri kimi ilk xarici səfərini dost ölkə Azərbaycana etdiyindən məmnunluğunu bildirən general-leytenant V.Xrenin ölkəmizlə Belarus arasında ikitərəfli hərbi əlaqələrin daha da genişləndirilməsində bu cür görüşlərin və qarşılıqlı səfərlərin vacibliyini xüsusi qeyd edib.

Qonaq bu əməkdaşlığın hər iki ölkənin liderlərinin dostluq əlaqələrinə əsaslandığını vurğulayaraq Belarusun Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bir daha diqqətə çatdırıb.

Görüşdə Azərbaycan ilə Belarus arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində birgə fəaliyyət, təcrübə mübadiləsi məqsədilə mütəxəssislərdən ibarət qrupların səfərlərinin təşkili və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

Sonda nazirlər Azərbaycan və Belarus Müdafiə nazirlikləri arasında 2021-ci il üçün ikitərəfli əməkdaşlıq planını imzalayıblar.

# Litvanın ölkəmizdəki səfiri Milli Məclisdə olub

Mayın 18-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Litvanın Azərbaycandakı səfiri Eqidiyus Navikas ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Səməd Seyidov Azərbaycanın xarici əlaqələrində baltikyanı ölkələrin, o cümlədən Litvanın xüsusi önəm daşıdığını qeyd edib. Bildirilib ki, Avropa İttifaqı (Aİ) tərəfindən maliyyələşdirilən Twinninq layihəsi Azərbaycanda Litvanın tərəfdaşlığı ilə həyata keçirilib. Uzun müddət davam edən layihə çərçivəsində litvalı dostlarımızın yardımı ilə Azərbaycanla Avropa arasında dövlət idarəçiliyində təcrübə mübadiləsi, eləcə də milli qanunvericilik sisteminin Aİ standartlarına uyğunlaşdırılması sahələrində uğurlu nəticələr əldə olunub. Lakin son zamanlar baltikyanı ölkələrin də daxil olduğu Avropa İttifaqı ilə Azərbaycan arasında postmüharibə dövrü ilə bağlı müəyyən anlaşılmazlıqlar yaşanır. Səməd Seyidov bunların aradan qaldırılması üçün informasiya mübadiləsinin, ikitərəfli dialoqun, nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin, deputatlar arasında təmasların artırılmasının vacibliyini vurğulayıb.

Öz növbəsində səfir Eqidiyus Navikas bölgədə davamlı sülhün və sabitliyin qorunması üçün dialoqların qurulmasından, əməkdaşlıqların yaradılmasından istifadə etməyin səmərəliliyinə əminliyini ifadə edib.

Görüşdə iştirak edən Azərbaycan-Litva parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Nəsib Məhəməliyev 44 gün davam edən müharibəyə son qoyan üçtərəfli bəyanatda əksini tapan razılaşmaların bölgədə uzunmüddətli sülhün bərqərar olması və gələcək inkişaf üçün möhkəm zəmin yaratdığını bildirib. Qeyd edib ki, Azərbaycan Ermənistan ilə sərhədlərini gücləndirmək istəyərkən yaşanan son gərginlikdə olduğu kimi, erməni tərəfi hər fürsətdə bu zəmini yox etməyə, yalan və saxta informasiyalar yaymaqla özünə təəssübkeşlər cəlb etməyə çalışır. Bu cür birtərəfli və qərəzli informasiyalara əsaslanaraq düşünülməmiş qərarların, bəyanatların verilməsi isə bölgənin təhlükəsizliyi üçün böyük təhdid yaradır.

Söhbət zamanı Azərbaycanın bölgədə sülhün və sabitliyin təmin olunmasına sadiq qaldığı, yaranan hər hansı fikir ayrılığının həlli üçün konstruktiv yanaşmanın tərəfdarı olduğu diqqətə çatdırılıb.

# PUA heyətləri təlim tapşırıqlarını icra edir



Azərbaycan Ordusunda hərbi aviasiya və müxtəlif təyinatlı pilotsuz uçuş aparatlarının (PUA) da cəlb olunduğu təlimlər davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimlər çərçivəsində PUA heyətləri havadan müxtəlif hündürlüklərdə kəşfiyyat aparır.

PUA heyətləri, həmçinin şərti düşmənin mövqelərinin, o cümlədən müdafiəsinin dərinliyindəki hədəflərin aşkarlanması və müvafiq məlumatların idarəetmə məntəqələrinə göndərilməsi üzrə tapşırıqları yerinə yetirirlər.

# Azərbaycanın BMT-dəki daimi nümayəndəsi: "Ermənistan tərəfindən Azərbaycanın mədəni irsinə münasibətdə dağıdıcı rəftar beynəlxalq hüququn hiddətləndirici pozuntusudur"

Azərbaycan Respublikasının BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev BMT-nin Baş katibinin ünvanına məktub göndərib.

AZƏRTAC xəbər verir ki, məktubda Ermənistanın Azərbaycana qarşı 30 il davam edən təcavüzündən, işğal olunmuş ərazilərdə Azərbaycan xalqının mədəni irsinin uzun müddət və qəsdən dağıdılmasından bəhs edilir.

Yaşar Əliyevin məktubunda vurğulanır ki, 30 il davam etmiş erməni təcavüzünün dağıdıcı humanitar, iqtisadi və sosial nəticələri ilə bərabər, Azərbaycan ərazisinin işğalı nəticəsində Azərbaycanın minlərlə mədəni irs obyektinə əvəzedilməz zərər vurulub. Belə obyektlər arasında ümumdünya və milli əhəmiyyətli abidələr, məscidlər, məbədlər, məqbərələr, muzeylər, sərgilər, rəsm qalereyaları, arxeoloji qazıntı sahələri, kitabxanalar və nadir əlyazmalar var. Azərbaycanın Ermənistan ərazisində yerləşən tarixi mədəni irsinin də taleyi belə olub.

Diplomat qeyd edir ki, Azərbaycan hökuməti Birləşmiş Millətlər Təşkilatına ardıcıl olaraq Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində öz mövqeyini möhkəmlətmək üçün məqsədyönlü şəkildə törətdiyi əməlləri, zorla qovulmuş yüz minlərlə azərbaycanlının vətənə qayıtmasına yol verməmək məqsədilə Azərbaycan ərazilərinə demoqrafik, mədəni və fiziki xarakterli dəyişikliklər edilməsini, beynəlxalq hüququn və Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin hiddətləndirici şəkildə pozulmasını göstərən geniş sübutlar təqdim edir.

Azərbaycan bu problemin xüsusi əhəmiyyətini və onunla bağlı narahatlığını nəzərə alaraq, dəfələrlə beynəlxalq birliyin diqqətini onun mədəni irsinə münasibətdə törədilmiş cinayətlərə cəlb edib, Birləşmiş Millətlər Təşkilatının təhsil, elm və mədəniyyət məsələləri üzrə təşkilatına (UNESCO) və digər beynəlxalq təşkilatlara müraciətlə işğal olunmuş ərazilərə faktaraşdırıcı missiya göndərməyə və oradakı mədəni dəyərlərin qorunmasının təmin edilməsi üçün təcili tədbirlər görməyə çağırıb. Lakin Ermənistan özünün nifrət zəminində törətdiyi cinayətləri gizlətmək məqsədilə bütün işğal illəri ərzində belə missiyaların göndərilməsinə həmişə rədd cavabı verib. Məsələn, 1995-2004-cü illərdə UNESCO-nun Silahlı münaqişələr dövründə mədəni dəyərlərin qorunması haqqında 1954-cü il Haaqa Konvensiyasının, habelə həmin sənədə 1954-cü və 1999-cu il tarixli protokolların yerinə yetirilməsinə dair fəaliyyəti barədə hesabatında göstərilirdi: "Azərbaycan hökuməti Dağlıq Qarabağda və ona bitişik digər işğal edilmiş ərazilərdə mədəni dəyərlərin qorunması ilə bağlı narahatlığını Katibliyə bildirib və faktaraşdırıcı missiya göndərilməsini xahiş edib. Lakin Katiblik həmin rayonda mədəni dəyərlərin vəziyyətini yoxlamaq üçün oraya missiya göndərmək imkanından məhrumdur, çünki həmin ərazilər erməni silahlı qüvvələri tərəfindən işğal edildiyi vaxtdan Birləşmiş Millətlər Təşkilatının digər ixtisaslaşmış idarələri oraya gedə bilmirlər. Ermənistan ilə Azərbaycan münaqişənin dinc yolla nizamlanmasına nail olduqdan sonra Katiblik oraya missiya göndərmək məsələsini yenidən nəzərdən keçirəcək".

Y.Əliyev qeyd edir ki, 2020-ci il sentyabrın axırlarında Ermənistanın yeni təcavüz aktından sonra döyüş əməliyyatlarının yenidən başlanması Azərbaycanın 300-dən çox şəhər, qəsəbə və kəndinin erməni işğalından azad edilməsi ilə nəticələnib. Azad edilmiş rayonlarda işğal dövründə təcavüzkarlar tərəfindən törədilmiş dağıntı və qarətlərin dəhşətli miqyasını göstərən çoxlu sübutlar aşkar edilib. Həmin ərazilərdə başqa mülki obyektlərlə yanaşı, yüzlərlə tarixi, mədəni və dini abidə vandalizmə məruz qalıb, qarət edilib və dağıdılıb. 67 məsciddən və müsəlman ziyarətgahlarından 64-ü dağıdılıb və ya ciddi şəkildə zədələnib və murdarlanıb. Ağdam, Qubadlı və Zəngilan rayonlarındakı məscidlər erməni qrafitliləri ilə təhqir edilib, donuz və inək saxlamaq üçün istifadə edilib. Həmin ərazilərdə 900-dən çox qəbiristanlıq dağıdılıb və vandalizmə məruz qalıb.

Məktubda daha sonra deyilir ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində qeyri-qanuni "arxeoloji qazıntılar" və belə adlandırılan "bərpa işləri" aparılmasını sübut edən dəlillər aşkar olunub. Bu dəlillər Ermənistanın Azərbaycana məxsus mədəni, tarixi və elmi sübutları gizlətmək və saxtalaşdırmaq cəhdləri barədə əvvəlki məlumatları təsdiq edir. Məsələn, Azərbaycanın işğaldan azad edilmiş Kəlbəcər rayonunda "qədim" xaçkarlar - ermənilərin daş xaçları istehsal edən müasir emalatxana aşkar edilib . Bu xaçkarlara qədimi görkəm vermək üçün onlar oksidləşdirilir, sirkə ilə emal edilir, sonra isə ermənilərin guya həmin regionda əsrlər boyu yaşamasının "mübahisə doğurmayan" sübutları kimi torpağa basdırılırdı.

Ermənistan silahlı qüvvələri və həmin ərazilərdə qeyri-qanuni şəkildə məskunlaşmış ermənilər 10 noyabr 2020-ci il tarixli bəyanatın şərtlərinə əsasən Azərbaycana qaytarılmalı olan işğal edilmiş əraziləri tələsik boşaldarkən oradakı mədəni dəyərləri dağıtmaqdan və oğurlamaqdan çəkinməyiblər. Məsələn, Ermənistan silahlı qüvvələri 2020-ci il noyabrın 20-nə qədər Ağdam rayonundan çıxmazdan əvvəl həmin rayonun Qiyaslı kəndindəki məscidi yandırıblar. Ermənistan silahlı qüvvələri işğal etdikləri ərazidən çıxarkən Azərbaycanın Kəlbəcər rayonunda yerləşən Xudavəng monastır kompleksini qarət ediblər. Həmin kompleksin daxilindəki Arzu-xatun kilsəsinin şərq divarındakı freska, habelə xaçlar, kilsə zəngləri və ikonalar da oradan çıxarılıb və qanunsuz olaraq Ermənistana aparılıb.

Azərbaycanın mədəni irsinə münasibətdə Ermənistanın məsuliyyətsiz dağıdıcı davranışı beynəlxalq hüququn hiddətdoğurucu pozuntusudur. Beynəlxalq hüquqa görə, birincisi, mədəni dəyərlər hücum obyekti olmamalıdır; ikincisi, hərbi əməliyyatlar dövründə mədəni dəyərlərin qorunması üçün bütün zəruri tədbirlər görülməlidir; üçüncüsü, mədəni dəyərlərin işğal edilməsi, məhv edilməsi, qəsdən zədələnməsi, oğurlanması, qarət edilməsi və mənimsənilməsi, onlara qarşı vandalizm aktları qadağan edilib; dördüncüsü, işğalçı dövlət işğal edilmiş ərazilərdən mədəni dəyərlərin qanunsuz olaraq daşınmasının qarşısını almalı və qeyri-qanuni şəkildə daşınıb aparılmış dəyərləri işğal olunmuş ərazinin səlahiyyətli orqanlarına qaytarmalıdır.

Münaqişə dövründə Azərbaycanın mədəni irsinə qarşı Ermənistanın törətdiyi əməllər həm də beynəlxalq insan haqları hüququnun pozulmasıdır, beynəlxalq cinayət hüququna müvafiq olaraq hərbi cinayətlər və insanlığa qarşı cinayətlərdir. Bundan əlavə, Ermənistan azərbaycanlı əhalinin qovulduğu ərazilərdə etnik təmizləmələr, torpağın və əmlakın müsadirə edilməsi və toponimlərin dəyişdirilməsi ilə yanaşı, özünün həmin yerlərdə azərbaycanlıların tarixi və mədəni köklərinin izlərini məhv etməyə yönəlmiş siyasəti və praktikası çərçivəsində Azərbaycanın mədəni irsinin dağıdılması, murdarlanması, qarət edilməsi və mənimsənilməsi ilə məşğul olub.

Azərbaycanın BMT-dəki daimi nümayəndəliyinin rəhbəri daha sonra vurğulayır ki, Azərbaycan hökuməti münaqişə və işğal illəri ərzində zərər çəkmiş bütün tarixi və mədəni obyektlər arasında heç bir fərq qoymadan onların hamısını təmir və bərpa edəcək. Azad edilmiş ərazilərdə təcrübəli mütəxəssislərin və memarların iştirakı ilə iş aparılır.

Eyni zamanda, Ermənistan yalan məlumatlar yaymağı, düşmənçiliyi qızışdırmağı davam etdirir. Buna görə də beynəlxalq birlik möhkəm və davamlı sülhə, ədalətə və barışığa kömək məqsədilə yaddan çıxarmamalı və israrla vurğulamalıdır ki, Ermənistan özünün başladığı müharibəyə, on minlərlə dinc sakinin qətlə yetirilməsinə, minlərlə şəhər, qəsəbə və kəndin yerlə yeksan edilməsinə görə məsuliyyət daşıyır və onun yeganə məqsədi saxtalaşdırılmış tarixi nəzəriyyələrə və irqi xurafata əsaslanan qeyri-qanuni ərazi iddialarını reallaşdırmaqdır.

Məktuba Ağdam, Qubadlı və Zəngilan rayonlarında dağıdılmış və murdarlanmış məscidlərin, Ağdam rayonunun Qiyaslı kəndindəki yandırılmış məscidin, Arzu-xatun kilsəsinin şərq divarından çıxarılaraq qeyri-qanuni şəkildə Ermənistana aparılmış freskanın, habelə Azərbaycan xalqının ermənilər tərəfindən dağıdılmış digər mədəni irs obyektlərinin təsvirləri əlavə edilib.

Azərbaycanın BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev məktubunun sonunda Baş katibdən həmin məktubu Baş Assambleyanın gündəliyinin 15, 34, 35, 40, 64, 70, 72, 86 və 135-ci bəndləri üzrə Baş Assambleyanın sənədi və Təhlükəsizlik Şurasının sənədi kimi yayılmasını xahiş edib.

# Təlimlərin gedişi barədə məruzələr dinlənilib



Azərbaycan Ordusunun təlimləri davam edir. Növbəti mərhələdə müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev qoşun növlərinin komandanları, birlik komandirləri və müvafiq vəzifəli şəxslərin təlimlərin gedişi barədə maket üzərində məruzələrini dinləyib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildiriblər ki, təlimlərdə antiterror əməliyyatları ilə bağlı qərar, qoşunların döyüş tapşırıqları və qarşılıqlı əlaqədə fəaliyyətlərinin təşkili dəqiqləşdirilib.

Məruzələr dinlənildikdən sonra ehtiyatların və mərkəzi tabelikdə olan qoşunların antiterror əməliyyatına bilavasitə hazırlığı, yenidən qruplaşmanın keçirilməsi ilə əlaqədar müvafiq tapşırıqlar verilib.

**AZƏRTAC**








# Tarixin ən qüdrətli Azərbaycanının və möhtəşəm Zəfərin müəllifi



# Böyük inkişafın Naxçıvan reallıqları

*Əvvəli 1-ci səh.*

Bu, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasını mürəkkəb tarixi şəraitdə işğala məruz qalmaqdan, Azərbaycanı parçalanmaqdan xilas etmiş görkəmli dövlət xadimi Heydər Əliyevin müstəqil dövlətçilik ideallarının işığında Dağlıq Qarabağı işğaldan azad etmiş Qalib Prezident İlham Əliyevin uğurlu davam mesajının bəyannaməsidir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin doğum günündə Naxçıvan səfərinin təşkili Ulu Öndər Heydər Əliyevin vətəninə - qədim və həmişəcavan Naxçıvan diyarına dövlət başçısının yüksək ehtiram və böyük qayğısının əməli ifadəsidir.

Bu mənada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərindəki heykəlini budəfəki ziyarəti də ənənəvi olmayıb, son otuz ildə ilk dəfə bu dahi şəxsiyyəti böyük və tarixi Zəfərlə anmağın xalqımız üçün də düşündürücü və əlamətdar olan dərsidir.

Nəhayət, Prezidentimizin Ulu Öndərin doğum günündəki Naxçıvan səfəri ölkəmizdə Heydər Əliyev ideallarının uğurla davam etdirilməsinin növbəti təntənəsidir.

Bu baxımdan say etibarilə 15-ci olan Naxçıvana dövlət səfəri ölkəmizin həyatında xüsusi və hərtərəfli inkişaf mərhələsi olan İlham Əliyev erasının tarixi Zəfərə qədərki dövrünün uğurlu yekunu, qələbədən sonrakı strategiyasının böyük başlanğıcıdır.

Hansı nöqtədən baxırsansa bax, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 may 2021-ci ildə Ulu Öndər Heydər Əliyevin doğum gününü onun vətənində qeyd etməsi tarixi hadisədir. Cənab Prezidentin özü də haqlı olaraq Naxçıvan səfəri zamanı bir neçə dəfə həmin tarixi günün mənası və əhəmiyyətindən söz açmış, muxtar respublikanın timsalında ölkəmizin yüksək inkişafının görkəmli dövlət xadiminin xatirəsinə ən böyük ehtiramın ifadəsi olduğunu diqqətə çatdırmışdır: "Bu gün ölkəmizin həyatında xüsusi bir gündür. Ulu Öndərin doğum günüdür. Bu gün Naxçıvanda olmağımın, əlbəttə ki, səbəbi var. Tarixi Zəfərdən sonra Ulu Öndərin birinci doğum günüdür və bu gün mən mütləq Ulu Öndərin Vətənində olmalı idim. Hesab edirəm ki, bu səfərin çox böyük rəmzi mənası var. Naxçıvanı Heydər Əliyev qorumuşdur, necə ki ondan sonra Azərbaycanı böyük bəladan qoruya bildi. Məhz bugünkü Zəfərin təməli bax, o vaxt qoyulmuşdur.

...Naxçıvanın inkişafı, çiçəklənməsi artıq reallıqdır. Bu reallığı biz özümüz yaratmışıq. Bu gün Ulu Öndərin xatirəsinə ən böyük diqqət məhz özünü bax, bu inkişafda təcəssüm etdirir".

Hesab edirik ki, Prezident İlham Əliyevin Naxçıvan səfəri çərçivəsində Azərbaycan xalqına Heydər Əliyev kimi dahi şəxsiyyət bəxş etmiş babası Əlirza Əliyevin məzarını ziyarət etməsi və nənəsi İzzət xanımı ehtiramla yada salması da ölkəmizdə yeni nəsillərin milli-mənəvi tərbiyəsinə xidmət edəcək ibrətamiz dərslərdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun məqsədyönlü rəhbərliyi ilə uzun illər ərzində çətin blokada şəraitində uğurla həyata keçirilmiş möhtəşəm quruculuq proqramları, bütün sahələr üzrə regionda əldə olunmuş böyük nailiyyətlər, nəhayət, rəsmi açılış üçün hazırlanmış mühüm obyektlər hamısı bir yerdə Ulu Öndər Heydər Əliyevin ad günündə Prezident İlham Əliyev qarşısında muxtar diyarın məsuliyyətli bir hesabatıdır.

Azərbaycan Respublikası Prezidentinin Naxçıvana 15-ci il səfəri ölkəmizin böyük Zəfərdən sonrakı yeni tarixi inkişaf mərhələsinin strategiya və taktikasına tam uyğun şəkildə təşkil olunmuşdur. Bu mühüm səfər üçün Azərbaycanın bu ayrılmaz hissəsində müstəqilliyin ilk günlərindən keçilmiş yolun və mövcud yeni reallıqların hərbi-siyasi və iqtisadi cəhətdən dərindən təhlili əsasında bütün sahələr üzrə yeni və ətraflı inkişafa nail olmağın zəruriliyi hədəf kimi müəyyən olunmuşdur. Ona görə də Prezident İlham Əliyevin açılışını keçirdiyi obyektlər Naxçıvan Muxtar Respublikasının hərtərəfli şəkildə inkişaf etdirilməsinə xidmət etməklə bərabər, daha çox özünəməxsus həssas coğrafi vəziyyətə malik olan, üç tərəfdən Ermənistan kimi işğalçı dövlətlə əhatə edilmiş bir regionun təhlükəsizliyinin daha da möhkəmləndirilməsinə hesablanmışdır.

Azərbaycanın bütün bölgələrinə səfərləri zamanı hərbi sahəyə xüsusi diqqət yetirən Ali Baş Komandan İlham Əliyevin on beşinci Naxçıvan səfəri zamanı açılışı keçirilmiş hərbi təyinatlı obyektlər muxtar respublikanın möhkəm və etibarlı müdafiəsini təmin etmək baxımından xüsusi əhəmiyyətə malikdir. Bu mənada Prezident İlham Əliyevin açılışını etdiyi Əlahiddə Ümumqoşun Ordusunun Hərbi Aerodromu regionda etibarlı müdafiə işinin təşkili üçün son dərəcə mühüm strateji əhəmiyyətə malik olan hərbi obyektin istifadəyə verilməsi deməkdir. Bu hadisə ilə həm də hərbi təyinatlı vəzifələri həyata keçirmək üçün özünəməxsus imkanlara malik olan Naxçıvan Beynəlxalq Hava Limanından sonra muxtar respublikada xarakteri etibarilə yalnız Orduya xidmət edən birinci müstəqil aerodromun fəaliyyətə başlamasına rəsmi şəkildə start verilmişdir.

Bu hərbi aerodrom Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərindən, digər iri şəhərlərdəki aeroportlardan və aerodromlardan gələn təyyarələri qəbul etməkdən başqa, 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinin şərtlərinə görə Naxçıvan Muxtar Respublikasına başqa bir dövlət tərəfindən müdaxilə edildiyi təqdirdə qarantorluq missiyasını həyata keçirməyə hərbi-siyasi cəhətdən səlahiyyətli olan qardaş Türkiyə Cümhuriyyətindən də hərbi aviasiya vasitələrinə Naxçıvana gəlmək və ya buradan uçuşlar etmək üçün də şərait yarada biləcəkdir. Müstəqil Azərbaycan dövlətinin Əlahiddə Ümumqoşun Ordusunun Hərbi Naxçıvan Aerodromu üçün yaratdığı hərbi-texniki imkanlar Naxçıvan Muxtar Respublikasının özünü istənilən xarici hərbi təhdidlərdən müdafiə edə bilən bölgəyə çevrilməsinə tam təminat verir. Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində Naxçıvanda Əlahiddə Ümumqoşun Ordusunun yaradılması və ən müasir hərbi texnika ilə təchiz edilməsi istiqamətində atılmış bu növbəti addım Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsinə daha bir əhəmiyyətli qayğının əyani ifadəsidir.

Eyni zamanda səfər çərçivəsində Prezident İlham Əliyevin açılışında iştirak etdiyi Naxçıvan Qarnizonunun Hərbi Hospitalının istifadəyə verilməsi də regionda hərbi quruculuq sahəsində həyata keçirilmiş mühüm strateji əhəmiyyətə malik olan tədbirdir. Bu, müstəqillik illərində Azərbaycan dövlətinin tikib istifadəyə verdiyi ən böyük hərbi xəstəxana şəhərciklərindən biridir. Bir neçə hektar sahəni əhatə edən Naxçıvan Qarnizonunun nümunəvi Hərbi Hospitalı muxtar respublikanın Gülhanəsi funksiyalarını yerinə yetirə biləcək müasir tipli hərbi xəstəxana kompleksidir. Geniş ərazidə yerləşdirilmiş 5 mərtəbəli, 290 çarpayılıq Naxçıvan Qarnizonu Hərbi Hospitalının müasir tibbi və texniki təchizatı, yüksək ixtisaslı tibbi personalı regionda mühüm strateji hərbi vəzifələri həyata keçirən Əlahiddə Ümumqoşun Ordusunun əsgər və zabitlərinin sağlamlığı və rifahına dövlət dəstəyinin əməli ifadəsidir.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dövlət səviyyəsində verdiyi dəstəyə və yaradılan yüksək hərbi-texniki imkanlara daim özünün yüksək döyüş hazırlığı, vətənpərvərlik ruhu və peşəkarlığı ilə cavab vermək üçün dönməz sədaqət nümayiş etdirmiş və uğurlu hərbi əməliyyatlara imza atmışdır. Müstəqillik dövrünün çətin və mürəkkəb başlanğıc illərində Ermənistan işğalçılarının nəzarətinə keçmiş Naxçıvan Muxtar Respublikasının 11 min hektara yaxın ərazisinin 2018-ci ildə uğurlu Günnüt əməliyyatı ilə düşməndən azad edilməsi Naxçıvanda Əlahiddə Ümumqoşun Ordusunun yaradılmasının zəruriliyini və əhəmiyyətini əyani şəkildə nümayiş etdirmişdir.





Eyni zamanda Naxçıvan Ümumqoşun Ordusu əsgər və zabitlərinin, xüsusi təyinatlılarının, hətta bu regionda yerləşdirilmiş ən müasir hərbi texnikanın II Qarabağ - Vətən müharibəsində qazanılan Zəfərdəki rolu və yeri də muxtar respublikada aparılan ordu quruculuğu və hərbi-vətənpərvərlik siyasətinin real nəticələridir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan səfəri çərçivəsində Əlahiddə Ümumqoşun Ordusundan Vətən müharibəsində həlak olmuş şəhidlərin məzarlarını ehtiramla yad etməsi bütövlükdə Azərbaycan şəhidlərinə, o cümlədən də muxtar respublikadan olub, Vətən yolunda canlarını qurban vermiş şəhidlərə dövlət səviyyəsində dərin ehtiramın göstəricisidir.

Cənab Prezidentin Vətən müharibəsi şəhidlərinin məzarlarını ziyarət edərkən dediyi aşağıdakı sözlər Vətən müharibəsində Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun qəhrəmanlığına verilmiş yüksək qiymətin ifadəsidir: "Vətən müharibəsi başlayan kimi Naxçıvanın qəhrəman övladları da torpaqlarımızın işğaldan azad olunması üçün müqəddəs savaşa atılıblar, şəhidlər veriblər. Naxçıvandakı Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları Zəfər yolunu Şuşada tamamlayaraq "dəmir yumruğ"un parlaq qələbəsinin təmin edilməsində müstəsna qəhrəmanlıq göstəriblər. Bu, Vətəni sevmək nümunəsi idi, məhz bu sevgi bütün maneələri qəhrəmanlıqla dəf etdi. Ordumuzun igidliyi sayəsində Vətən müharibəsi Azərbaycan tarixinin ən parlaq Qələbəsinə çevrildi və bu savaşda biz bir xalq olaraq birləşdik, bizim igid övladlarımız vahid milli ideya uğrunda canlarından keçdi. Böyük Qələbənin timsalında həmrəyliyimiz, Vətən eşqimiz qalib gəldi".

Prezident İlham Əliyev Naxçıvanda Azərbaycan televiziyasına verdiyi müsahibəsində də Naxçıvan Muxtar Respublikası rəhbərliyinin regionda apardığı ordu quruculuğu siyasətinin ölkəmizin taleyüklü məsələlərinin həllində, ərazi bütövlüyümüzün təmin edilməsində, xüsusən, II Qarabağ - Vətən müharibəsinin Zəfərlə başa çatdırılmasında xüsusi əhəmiyyət kəsb etdiyini özünəməxsus intonasiya ilə Azərbaycan xalqına çatdırmışdır: "Günnüt əməliyyatı Naxçıvan Ordusunun potensialını göstərdi, Azərbaycan Ordusunun potensialını göstərdi. İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri - həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər. Bilirsiniz ki, Naxçıvandan Bakıya xüsusi qruplar gətirilmişdi. Eyni zamanda mən onu da bildirməliyəm, yəni artıq bildirə bilərəm ki, Naxçıvan Ordusunda olan silahların, sursatların bir hissəsi də Bakıya gətirilmişdir və cəbhə bölgəsinə göndərilmişdir. Ona görə Naxçıvan Muxtar Respublikasının həm respublikanın hüdudlarının müdafiə edilməsində, ümumiyyətlə, ölkəmizin ordu potensialının güclənməsində çox böyük rolu var və hər zaman Naxçıvan lazımi dərəcədə müdafiə olunacaqdır".

Gün kimi aydındır ki, müasir dövrün reallıqlarına uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin muxtar respublikaya 10 may 2021-ci il tarixli səfərinin strategiyasında Naxçıvan-Zəngəzur dəhlizi ilə əlaqədar məsələlər xüsusi yer tutmuşdur. Zəngəzur məsələsi Azərbaycanın ayrılmaz bir hissəsi olan Naxçıvan üçün həmişə ciddi əhəmiyyətə malik mühüm strateji hadisə olmuşdur. Çünki bolşeviklər süni şəkildə ermənilərə dövlət yaratmaq üçün hələ 1919-cu ildə Zəngəzuru Azərbaycan ərazisindən qoparıb daşnak Ermənistanına verməklə ölkəmizin qardaş Türkiyə ilə əlaqələrini kəsmək və ya məhdudlaşdırmaq niyyətlərini yerinə yetirməklə yanaşı, Naxçıvanı da blokadaya salaraq, gələcəkdə bu torpaqları da ələ keçirmək planlarını gerçəkləşdirmək istəmişlər.

Lakin o zaman mürəkkəb ictimai-siyasi şəraitdə Azərbaycan Xalq Cümhuriyyəti Zəngəzuru müdafiə etmək imkanına malik olmasa da, Naxçıvan Araz-Türk hökumətinin rəhbərliyi və Naxçıvan əhalisinin fədakarlığı sayəsində qədim diyarın qorunub saxlanılması təmin edilmişdir. Hətta Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra da bolşeviklərin təşəbbüsü ilə Naxçıvanı Ermənistan SSR-ə ərmağan etmək istəyənlərə də yerli əhali 1921-ci ilin yanvar ayında keçirilmiş referendumda Azərbaycanın tərkibində qalmaq haqqında qəti qərar verdikdən sonra məsələ Ermənistanın əleyhinə olmaqla həll edilmişdi.

Həmin məsuliyyətli tarixi dövrdə Azərbaycan SSR-in fövqəladə və səlahiyyətli nümayəndəsi Behbud ağa Şahtaxtinski Rusiya Xalq Komissarları Sovetinin sədri Vladimir Leninə göndərdiyi 20 sentyabr 1920-ci il tarixli məktubunda böyük cəsarətlə yazmışdı ki, "Özümə borc hesab edirəm ki, Azərbaycanda inqilabdan əvvəl və sonrakı vəziyyət və siyasətimizin bundan sonra dəyişməyəcəyi təqdirdə Azərbaycanda bu vəziyyətin qaçılmaz olan ağır nəticələri barəsində mənə bəlli olan hər şeyi tam açıqlığı ilə ifadə edim. ...Azərbaycanlı kütlə Naxçıvan diyarının az qala bütünlüklə Ermənistana verilməsi xəbərini eşitdikdə dəhşətə gəlir. Üç il müddətində İngiltərə və Ermənistan var qüvvələri ilə çox mühüm strateji, iqtisadi və siyasi əhəmiyyət kəsb edən dəmiryolu xəttinin açılışına cəhd göstərəndə diyarın əməkçi xalqı qanlı mübarizə aparmaqla bu mühüm nöqtəni qoruyub saxlamış, onun sovet hökumətinin düşmənlərinin (o zaman hələ Ermənistanda sovet hökuməti qurulmamışdı və Antanta ilə ittifaqa meyilli idi - İ.H.) əlinə keçməsinə imkan verməmişdir. ...Naxçıvan diyarının Türkiyə ilə gediş-gəlişinin tamamilə kəsilməsinin şüurlu şəkildə həyata keçirilməsinə dair ehtimallar, ...habelə Anadolunun bəzi vilayətlərinin Rusiya tərəfindən yaxın gələcəkdə Ermənistana güzəşt edilə biləcəyinə dair eyhamlar türklərə ağır təsir bağışlayır... Kompensasiya kimi Ermənistan Zəngəzura və Naxçıvan diyarına yiyələnir. Belə vəziyyət Şərqdə Antantanın tam təntənəsinə zəmin hazırlayır".

Beləliklə, Zəngəzur məsələsinin tarixi reallığı və strateji hədəfləri Ermənistanın təcavüzkar və işğalçılıq siyasətinin mahiyyətindən xəbər verir. Azərbaycan xalqı Zəngəzur probleminin siyasi-iqtisadi və mənəvi əzablarını yaşamalı olmuşdur. Əhalinin 1 mart 1921-ci il tarixli statistikasına əsasən 123095 nəfər azərbaycanlı sakini olan Zəngəzur bölgəsindən zaman-zaman daim müsəlman kəsimi sıxışdırılmış, 1988-1990-cı illərdə isə bu proses tam başa çatdırılmışdır. Üstəlik, Ermənistan vandalları Naxçıvan Muxtar Respublikasını Biçənək aşırımı vasitəsilə Qarabağla əlaqələndirən avtomobil yolunu və Culfa-Ordubad-Meqri-Zəngilan marşrutu üzrə dəmir yolunu vəhşicəsinə dağıtmışlar.

Bütün bunlara görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin II Qarabağ - Vətən müharibəsini tarixi Zəfərlə başa çatdırdıqdan sonra Zəngəzur dəhlizinin həlli məsələsini meydana qoyması heç olmazsa sovet hakimiyyəti illərində müəyyən edilmiş sərhədlərin qorunub saxlanılması şərti ilə nəqliyyat-kommunikasiya xətlərinin yenidən bərpa edilməsinə, regionda etibarlı sülhün və qarşılıqlı əməkdaşlığın yaradılmasına xidmət edən mühüm strateji addımdır. Dövlət başçımızın 10 may 2021-ci il tarixli Naxçıvan səfərinin gündəliyində Zəngəzur nəqliyyat dəhlizi ilə əlaqədar məsələlərin də xüsusi yer tutması bu səfər zamanı həyata keçirilən tədbirlərin region üçün olduğu qədər digər ölkələr üçün də əhəmiyyətli olduğunu göstərir. Çünki Naxçıvan-Zəngəzur-Mincivan dəmir yolu xəttinin yenidən bərpası ilə muxtar respublikanın blokadadan çıxarılmasından başqa, həm də Azərbaycan vasitəsilə Rusiya, Türkiyə və İranın, hətta Avropa ilə Asiyanın nəqliyyat əlaqələrinin yaradılmasına və inkişaf etdirilməsinə geniş imkanlar yaranacaqdır. Ona görə də Prezident İlham Əliyevin Naxçıvana səfəri zamanı iştirak etdiyi bir çox tədbirlər Zəngəzur dəhlizi strategiyasının həyata keçirilməsinə şərait yaradan addımlar kimi mühüm əhəmiyyətə malikdir.

Azərbaycanın dövlət rəhbərinin Ordubad dəmir yolu stansiyasında yaradılan şəraitlə tanış olması və bu münasibətlə ictimaiyyətə özünün zəruri fikirlərini çatdırması mahiyyət etibarilə Zəngəzur dəhlizi ilə əlaqədar olan mətləbləri region dövlətlərinin diqqət mərkəzinə çəkməkdən ibarət idi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun həyata keçirdiyi tədbirlərin sayəsində Ordubad-Culfa-Naxçıvan-Şərur-Sədərək dəmir yolunun işlək vəziyyətdə saxlanılması, bu marşrut üzrə sərnişin və yük daşımalarının həyata keçirilməsi və son vaxtlarda Ordubad dəmir yolu stansiyasında əsaslı yenidənqurma işlərinin aparılması dövlətimizin başçısına mahiyyət etibarilə Zəngəzur dəhlizinin açılmasına xidmət edən strateji tədbirlər haqqında hesabat verməyə şərait yaratmışdır.

Mövcud şəraitlə yaxından tanış olan Prezident İlham Əliyevin Ordubaddan səsləndirdiyi aşağıdakı fikirlər müstəqil Azərbaycan dövlətinin Zəngəzur nəqliyyat dəhlizinin açılması haqqındakı qəti qərarının və dərin inamının əks-sədasına çevrilmişdir: "Mən təsadüfən Ordubad dəmir yolu stansiyası ilə tanışlığa gəlməmişəm. Çünki bunun da çox böyük rəmzi mənası var. Bu yaxınlarda buradan təqribən 50-60 kilometr uzaqlıqda yerləşən Mincivan qəsəbəsinin ermənilər tərəfindən dağıdılmış dəmir yolu stansiyasında baxış keçirdim. ...Mənfur düşmən bütün dəmir yolu infrastrukturunu dağıdıbdır, talan ediblər. Orada bir mərkəz olacaq, burada bir mərkəz olacaq. Zəngilanı Naxçıvanla ayıran cəmi 40 kilometrlik Zəngəzur dəhlizidir, hansı ki açılmalıdır və açılacaqdır. Şərqi Zəngəzur bölgəsində yerləşən Zəngilanı bizim qədim torpağımız olan Qərbi Zəngəzurla, ondan sonra Ordubad vasitəsilə Naxçıvanla və Türkiyə ilə birləşdirmək bizim növbəti tarixi nailiyyətimiz olacaq".

Belə qəti qərardan və dərin inamdan sonra Azərbaycan xalqı əmindir ki, Prezident İlham Əliyev bir müddət bundan əvvəl Zəngəzur nəqliyyat dəhlizinin o başındakı Horadiz-Ağbənd dəmir yolunun təməl daşını qoyduğu kimi, çox da uzaq olmayan bir zamanda Naxçıvana növbəti səfəri zamanı Ordubad-Mincivan dəmir yolu magistralının da təməlinin qoyulmasına imza atacaqdır.

Fikrimizcə, cənab Prezidentin Naxçıvana səfəri müddətində ümumiyyətlə Naxçıvan-Culfa-Ordubad istiqamətinə xüsusi diqqət yetirməsi, məhz bu marşrut üzərində olan obyektlərin açılışına üstünlük verməsi Zəngəzur dəhlizinə aparan yolların problemlərini həll etməklə həmin məsələnin gerçəkləşdirilməsinə zəruri hazırlıq işlərinin aparılması məqsədi daşıyır. Bu mənada 50 kilometr uzunluğunda olan 4 zolaqlı Culfa-Ordubad avtomobil yolunun açılışı əslində artıq Zəngəzur dəmir yoluna paralel şəkildə salınacaq şose yolunun çəkilməsinə başlamaq deməkdir.

Hətta Ordubad Su Elektrik Stansiyasının tikilməsi də rayonun elektrik enerjisinə olan tələbatını ödəməkdən başqa, həm də yaxın gələcəyin Ordubad-Mehri-Mincivan dəmir yolu magistralının da enerji təchizatı ilə təmin edilməsinə xidmət göstərə biləcəkdir. Prezident İlham Əliyevə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun Ordubad Su Elektrik Stansiyasının enerji imkanlarının həcmi haqqında verdiyi məlumatların miqyası ölkəmiz üçün bu stansiyanın yaxın və uzaq strateji məqsədlərin icrası baxımından da mühüm əhəmiyyət daşıdığını düşünməyə əsas verir.

Çətin ictimai-siyasi şəraitdə müstəqil Azərbaycan dövlətinin iqtisadiyyatının böyük təməllərini atmış görkəmli dövlət xadimi Heydər Əliyevin doğum gününə həsr olunmuş tarixi səfər Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının sürətlə genişlənməkdə olan şəbəkəsinə yeni aqrar-sənaye obyektlərinin daxil olması ilə səciyyələnir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci ilin fevral ayında imzaladığı "Naxçıvan şəhərində xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncamına əsasən yaradılmış "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan filialı muxtar respublikada qədim ənənəsi olan xalçaçılıq və boyaqçılıq sənətlərinin yenidən dirçəldilməsinə və əlavə iş yerlərinin açılmasına uğurla xidmət edir. Bundan başqa, Azərbaycan üzrə ikinci olan Naxçıvanda Süni Mayalanma Mərkəzinin istifadəyə verilməsi də regionda böyük potensialı olan heyvandarlığın və südçülük emalı sənayesinin daha da inkişaf etdirilməsi üçün düşünülmüş səmərəli tədbirdir. Bu qəbildən olan iqtisadi yönlü tədbirlər Naxçıvan Muxtar Respublikasında dayanıqlı inkişaf proseslərinin növbəti davamıdır və iqtisadiyyatda baş verən yeni reallıqların əyani təzahürləridir.

Naxçıvan səfəri əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyevin genişləndirib inkişaf etdirdiyi sosial siyasətin uğurla həyata keçirilməsi istiqamətində yeni addımların atılması ilə tamamlanmışdır. Naxçıvan Beynəlxalq Hava Limanının yeni uçuş-enmə zolağının təqdimatı ən müasir mühəndis-texniki imkanlara malik olan hava nəqliyyatının daha da inkişaf etdirilməsinə meydan açan mühüm iqtisadi və sosialyönümlü layihədir. Naxçıvan Muxtar Respublikasında ilk "ASAN xidmət" Mərkəzi binasının tikintisi ilə tanışlıq Azərbaycan brendi kimi tanınan bu mərkəzin Naxçıvan modelinin yaradılması ilə daha da inkişaf etdirilməsinə zəmanət verir. Nəhayət, Ordubad rayon mərkəzi və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin açılışı ilə Ordubad şəhərində və yeni yaradılmış Şəhriyar qəsəbəsində 13 min 500 sakinin təmiz içməli su ilə təmin olunması reallaşdırılmışdır. Sosial sahədə baş vermiş böyük dəyişiklər regionda rifahın daha da yaxşılaşdırılmasının təminatıdır. Bütövlükdə Azərbaycanda olduğu kimi, onun gözəl guşəsi Naxçıvan Muxtar Respublikasında da bu sahədə aparılan işlər insanların xoş güzəranına və inamla yaşamalarına səbəb olur.

Göründüyü kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 may 2021-ci il tarixli Naxçıvana səfəri görkəmli dövlət xadimi Heydər Əliyevin xatirəsini ölkədə yeni böyük inkişafa nail olmaqla qeyd etməyin əsl nümunəsinə çevrilmişdir. Naxçıvan Muxtar Respublikasında dövlət başçımızın səfərinin yüksək səviyyədə təşkili və inkişafın yeni reallıqlarını əks etdirən strateji əhəmiyyətə malik tədbirlər ölkəmizin həm bugünkü hərtərəfli yüksəlişi, həm də daha işıqlı sabahları haqqında nikbin düşünməyə tam əsas verir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin muxtar respublika rəhbərliyinin məqsədyönlü fəaliyyətinə və regionda gedən möhtəşəm quruculuq proseslərinə verdiyi yüksək qiymət mövcud reallıqların dövlət səviyyəsində dəyərləndirilməsi ilə bərabər, bundan sonrakı mərhələlərin də məsul vəzifələrinin həyata keçirilməsinə doğru qəti addımlarla getməyə yol açır: "Naxçıvan sürətlə inkişaf edir. Bütün sahələr üzrə işlər müsbət istiqamətdə gedir... Muxtar respublikada görülən işlər məni çox sevindirir... Bütün şəhərlər artıq magistral yollarla bir-birinə bağlanıbdır. Yollar çox keyfiyyətlə tikilir. Sənaye potensialı inkişaf edir, artır. Naxçıvan Muxtar Respublikası son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordsmen bölgədir... Naxçıvanın çox böyük turizm potensialı var. Bir sözlə, muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir. Əminəm ki, Naxçıvan bu liderliyi bundan sonra da saxlayacaqdır".

Ölkəmizdə bir regionun timsalında müasir dövrün yüksək inkişaf səviyyəsini müəyyən edən bu dəyərləndirmə dövlət başçımızın düşünülmüş strateji məqsədlərə xidmət edən rəhbərliyi və müdrik siyasəti ilə yaradılmış reallıqların xalqımıza daha xoşbəxt sabahlar vəd edəcəyinin də obyektiv gerçəklik olduğunu nümayiş etdirir.

*Uğurlu Naxçıvan səfəri müstəqil Azərbaycanın Heydər Əliyev - İlham Əliyev epoxasının reallıqlarının gerçək təntənəsidir.*

***İsa HƏBİBBƏYLİ,***
***AMEA-nın vitse-prezidenti,***
***Milli Məclisin deputatı,***
***akademik***



## Tarixin ən qüdrətli Azərbaycanının və möhtəşəm Zəfərin müəllifi



# Yüksəlişin Naxçıvan nümunəsi



**Prezident İlham Əliyevin 15-ci səfəri muxtar respublikanın öz nailiyyətlərini daha da artırmasına təkan verəcək**

*Əvvəli 1-ci səh.*

Vətən müharibəsi başlayan kimi qədim Azərbaycan yurdu Naxçıvanın qəhrəman övladları da torpaqlarımızın işğaldan azad olunması üçün müqəddəs savaşa atıldılar. Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun xüsusi təyinatlıları zəfər yolunu Şuşada tamamlayaraq "dəmir yumruğ"un parlaq qələbəsinin təmin edilməsində müstəsna qəhrəmanlıq göstərdilər. Bu yolda neçə-neçə naxçıvanlı şəhidlik zirvəsinə ucaldı. Bu, Vətəni sevmək nümunəsi idi. Vətən sevgisi onları torpaqlarımızın işğaldan qurtulması uğrunda səfərbər etdi.

Cənab Prezident İlham Əliyev mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibəsində Əlahiddə Ümumqoşun Ordusunun hərbçilərinin Vətən müharibəsində qəhrəmanlıqlarını yüksək qiymətləndirərək deyib: *"İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri - həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər. Bilirsiniz ki, Naxçıvandan Bakıya xüsusi qruplar gətirilmişdi. Eyni zamanda mən onu da bildirməliyəm, yəni artıq bildirə bilərəm ki, Naxçıvan Ordusunda olan silahların, sursatların bir hissəsi də Bakıya gətirilmişdir və cəbhə bölgəsinə göndərilmişdir. İndi biz həmin o silah-sursatların ehtiyatlarını təmin edirik, ancaq bu da olub. Ona görə Naxçıvan Muxtar Respublikasının həm respublikanın hüdudlarının müdafiə edilməsində, ümumiyyətlə, ölkəmizin ordu potensialının güclənməsində çox böyük rolu var və hər zaman Naxçıvan lazımi dərəcədə müdafiə olunacaqdır".*

Cənab Prezidentin Naxçıvan səfəri zamanı ilk getdiyi ünvanlardan biri Naxçıvan şəhər qəbiristanlığı oldu. Dövlət başçısının Vətən müharibəsi şəhidlərinin məzarlarını ziyarət etməsi torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş vətən oğullarının xatirəsinə göstərilən ehtiramın böyük nümunəsi idi.

### Naxçıvan şəhərindən ucqar dağ kəndlərinə qədər uzanan inkişaf yolu

Naxçıvan Muxtar Respublikası həm də qürur doğuran yüksəlişi ilə diqqəti çəkir. Ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə olunan inkişaf Naxçıvanın da nümunəsində aydın görünür. Muxtar respublikada qazlaşdırmanın və elektrik enerjisi ilə təchizatın 100 faizə çatması kimi mühüm göstərici bu yüksəlişi təcəssüm edirən nailiyyətlərdir.

Naxçıvan bu günlərə çatmaq üçün keşməkeşli yollardan, çətin sınaqlardan keçib. Ermənilərin tarix boyu gözlərini dikdikləri bu qədim diyarımız hücumlara, əhalisi soyqırımına məruz qalsa da, hər zaman düşmənin layiqli cavabını verməyi bacarıb. Ötən əsrin 90-cı illərinin əvvəllərində Ermənistan Naxçıvanı da işğal etməyə cəhd göstərdi. O dövrdə muxtar respublika birdən-birə çətin sınaq qarşısında qaldı. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakıya hücumundan bir neçə saat əvvəl sovet qoşun birləşmələri və erməni silahlı dəstələri burada da qan tökdülər. Daha sonra erməni quldur dəstələri Kərki kəndini işğal etdilər. Muxtar respublikanın nəqliyyat-kommunikasiya xətləri ermənilər tərəfindən kəsiləndən, tam iqtisadi blokadaya alınandan sonra burada iqtisadi böhran daha da dərinləşdi.

Yalnız xalqımızın böyük oğlu Heydər Əliyevin 1990-cı ilin yayında Moskvadan Bakıya, oradan da Naxçıvana qayıdışı bu qədim Azərbaycan torpağının xilasının başlanğıcı oldu. Ulu Öndərin qətiyyəti və zəngin dövlətçilik təcrübəsi sayəsində erməni qəsbkarlarının Naxçıvanı işğal etmək planları puç oldu, muxtar respublika tarixin ən sərt sınaqlarından üzüağ, alnıaçıq çıxdı. Məhz Ulu Öndərin böyük səyləri nəticəsində muxtar respublikanın tarixində yeni dövrün əsası qoyuldu.

Heydər Əliyevin Naxçıvana gəlişi həm də Azərbaycanın müstəqil dövlətçiliyinin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı. Çünki ilk dəfə olaraq məhz Ulu Öndərin qətiyyəti və prinsipiallığı sayəsində müstəqil respublikamızın üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının rəsmi dövlət bayrağı kimi qəbul edilməsi, 31 dekabr tarixinin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi rəsmiləşdirilməsi, sovet ordusunun Naxçıvandan çıxarılması bu qədim diyarın müstəqilliyimizə və dövlətçiliyimizə layiqli və tarixi töhfələridir. 1992-ci ildə çətin şəraitdə Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaradılması da Azərbaycanın gələcək taleyində xüsusi yeri olan ümumrespublika səviyyəli siyasi hadisə idi.



Azərbaycanı xilas missiyasına Heydər Əliyev Naxçıvandan başlamışdı. 1993-cü ildə xalqımızın təkidli istəyi ilə siyasi hakimiyyətə gələn Ulu Öndərin Naxçıvandan başlatdığı xilaskarlıq missiyası Azərbaycanın dövlət müstəqilliyini əbədi etdi.

Ulu Öndərin müstəqil Azərbaycana rəhbərlik etdiyi 10 il ərzində Naxçıvan davamlı inkişaf və əmin-amanlıq yolu ilə inamla addımladı, problemləri tədricən aradan qaldırıldı. Muxtar respublikanın inkişafının 2003-cü ildən sonrakı dövrü isə Ulu Öndər Heydər Əliyevin quruculuq xəttinin yaradıcı gücünün əyani ifadəsidir. Bu dövrdə Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı nəticəsində Azərbaycanın bütün bölgələri kimi Naxçıvan da dinamik inkişaf yolu keçib. Regionlarının sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının yüksək səviyyədə icrası paytaxt Naxçıvan şəhərindən başlanmış, muxtar respublikanın ucqar dağ kəndlərinə qədər dinamik inkişafa yol açıb.

Prezident İlham Əliyevin may ayının 10-da Naxçıvana növbəti səfəri respublikamızın bu bölgəsinin yüksəlişinin dinamik, davamlı və nümunəvi olmasından xəbər verdi.

### Tarixi və rəmzi məna kəsb edən səfər...

Bu, Prezident İlham Əliyevin dövlət başçısı kimi Naxçıvana sayca 15-ci səfəri idi. İlk səfər 17 il əvvəl, 2004-cü ilin may ayında olmuşdu. Bu müddətdə Prezidentin hər səfəri Naxçıvanın yüksəlişindən xəbər verməklə yanaşı, həm də bu bölgənin inkişafında yeni mərhələnin əsasını qoyub.

15-ci səfərin isə həm də rəmzi mənası vardı. Çünki bu səfər Ulu Öndər, müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin anadan olduğu günə təsadüf etmişdi. Eyni zamanda bu, Prezident İlham Əliyevin Vətən müharibəsindəki Qələbədən sonra Naxçıvan Muxtar Respublikasına ilk səfəri idi. "Tarixi Zəfərdən sonra bu, atamın birinci doğum günüdür. Ona görə mən hesab etdim ki, ənənəvi olaraq onun məzarını ziyarət edəndən sonra onun Vətəninə - Naxçıvana gəlim. Hesab edirəm ki, bu səfərin çox böyük rəmzi mənası var. Qeyd etdiyim kimi, mən 15-ci dəfədir ki, Naxçıvana gəlirəm. Amma ilk dəfə mayın 10-da Naxçıvandayam. Bu doğum günündə mütləq burada olmalıydım" deyə Prezident İlham Əliyev bu barədə deyib.

Bəli, bu səfər kəsb etdiyi böyük rəmzi mənasına uyğun olaraq Naxçıvanın sosial-iqtisadi inkişafına xidmət edən müəssisələrin istifadəyə verilməsi, mühüm infrastruktur layihələrin başa çatdırılması ilə əlamətdar oldu.

"Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan filialının və Süni Mayalanma Mərkəzinin açılışı muxtar respublikanın iqtisadi inkişafında, vətəndaşların məşğulluğunun təmin edilməsində mühüm rol oynayır. Naxçıvan şəhərində inşa olunan "ASAN xidmət" mərkəzi isə ölkə üzrə göstərilən xidmətləri muxtar respublika sakinləri üçün daha da əlçatan edəcək.

Müasir yol infrastrukturunun yaradılması da Naxçıvanda həyata keçirilən sosial-iqtisadi islahatların tərkib hissəsidir. Çünki rahat və abad yol dayanıqlı iqtisadi inkişafı təmin edən əsas amildir. Son illərdə muxtar respublikada müasir standartlara uyğun avtomobil yolları salınıb, mövcud yol-nəqliyyat kompleksi təkmilləşdirilib, yeni körpülər tikilib. Prezident İlham Əliyevin açılışında iştirak etdiyi Culfa-Ordubad magistral avtomobil yolu dövlət başçısının "Naxçıvan Muxtar Respublikasında Culfa-Ordubad magistral avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında" və "Culfa-Ordubad avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında" sərəncamlarına əsasən inşa olunub.

Son illər yeni elektrik stansiyalarının tikilib istifadəyə verilməsi Naxçıvanın etibarlı enerji təminatına imkan yaradıb. Bunun nəticəsidir ki, muxtar respublikada enerji təhlükəsizliyi tam təmin edilib, bir zamanlar yalnız idxal hesabına elektrik enerjisinə olan tələbatını ödəyən Naxçıvanda daxili istehsal hesabına ixrac potensialı yaranıb, bütün yaşayış məntəqələri fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təchiz edilib. Prezident İlham Əliyevin tanış olduğu Ordubad Su Elektrik Stansiyası isə tikintisi başa çatdırıldıqdan sonra Naxçıvanın energetika sisteminə əlavə güc verəcək.

İndiyədək Naxçıvanın bir neçə şəhəri içməli su və kanalizasiya şəbəkəsi ilə təmin edilib. Mayın 10-da onların sırasına Ordubad şəhəri də əlavə olundu. Prezident İlham Əliyevin açılışında iştirak etdiyi Ordubad rayon mərkəzi və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi göstərdi ki, insan amili inkişafın mühüm prioritetidir.

### Naxçıvanın hərbi imkanlarının artırılması bundan sonra da prioritet olacaq

Prezident İlham Əliyevin Naxçıvanla bağlı qarşıya qoyduğu vəzifələrdən biri muxtar respublikanın etibarlı müdafiəsinin və bölgədə hərbi üstünlüyünün təmin olunması istiqamətində ardıcıl addımların atılmasıdır. Dövlətimizin güclü dəstəyi Naxçıvanı özünü xarici təhdidlərdən tam müdafiə etmək iqtidarında olan bölgəyə çevirib. Təsadüfi deyil ki, 1992-ci ildə erməni silahlı birləşmələrinin işğal etdiyi Şərur rayonunun Günnüt kəndi 26 ildən sonra - 2018-ci ildə ordumuzun nəzarəti altına keçdi. Əlahiddə Ümumqoşun Ordusunun əks-həmləsi nəticəsində "Xunut" dağı və "Ağbulaq" yüksəkliyi, "Qızılqaya" dağı və "Mehridağ" işğaldan azad edildi, ümumilikdə 11 min hektara yaxın ərazi Azərbaycanın nəzarəti altına alındı. Təsdiq olundu ki, özünün yüksək döyüş qabiliyyəti ilə seçilən və müasir hərbi texnika ilə tam təchiz edilən Əlahiddə Ümumqoşun Ordusu digər hərbi birləşmələrin köməyi olmadan müstəqil şəkildə istənilən döyüş əməliyyatlarının koordinasiyasını həyata keçirmək və qarşıya qoyulan bütün vəzifələri dəqiqliklə yerinə yetirmək imkanına malikdir. Bütövlükdə isə Naxçıvanın hərbi potensialının yüksəldilməsinin respublikamızın müdafiə imkanlarının gücləndirilməsi baxımından çox böyük əhəmiyyəti var.

Prezident İlham Əliyevin Naxçıvana səfərinin bir hissəsi hərbi sahəni əhatə etdi. Dövlət başçısı Əlahiddə Ümumqoşun Ordusunun hərbi aerodromunun, Naxçıvan Qarnizonu Mərkəzi Hospitalının açılışında iştirak etdi. Bütün bunlar göstərdi ki, Naxçıvanın hərbi üstünlüyünün artırılması bundan sonra da prioritet olacaq.

### Qalib İlham Əliyev muxtar respublikanı blokadadan çıxarır

İkinci Qarabağ müharibəsi Cənubi Qafqazda yeni siyasi və iqtisadi reallıqlar yaratdı. Müharibəyə qədər bölgənin aparıcı dövləti Azərbaycan ərazi bütövlüyünü təmin etdikdən sonra regiondakı lider statusunu daha da möhkəmləndirdi. Eyni zamanda Ermənistanın hərbi-siyasi məğlubiyyətə düçar edilməsi ilə Prezident İlham Əliyev xalqımızın tarixi-milli maraqlarının reallaşmasına da zəmin formalaşdırdı. Bunlardan biri vaxtilə Azərbaycan torpaqları olmuş Zəngəzur bölgəsinin indi bütün türk dünyasını birləşdirən körpüyə çevrilməsi üçün yetişmiş tarixi şəraitin reallaşdırılmasıdır.

Prezident İlham Əliyevin Naxçıvan səfərinin ən mühüm məqamlarından biri Zəngəzur dəhlizinin reallaşdırılması istiqamətində verilən mesaj oldu. Naxçıvan Beynəlxalq Hava Limanının yeni uçuş-enmə zolağının yaradılması, Culfa-Ordubad magistral avtomobil yolu kimi nəqliyyat layihələri, Ordubad dəmir yolu stansiyasında aparılan yenidənqurma işləri Naxçıvanın sosial-iqtisadi inkişafına xidmət etməklə yanaşı, muxtar respublikanın blokadadan çıxarılması və Zəngəzur dəhlizinin yaradılması istiqamətində atılan addımların bir hissəsidir.

*Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına 15-ci səfəri siyasi və iqtisadi baxımdan xüsusi əhəmiyyət daşıdı. Son 20 il ərzində iqtisadi artımın templərinə görə rekord nəticələr əldə edən, ümumi daxili məhsul istehsalında 10 dəfədən çox artıma nail olan Naxçıvan hər zaman olduğu kimi, bu səfərdən sonra da nailiyyətlərini daha da artıracaq.*

**Səttar MÖHBALIYEV,**
***Milli Məclisin deputatı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***

# Modern tərəqqi ünvanı

*Əvvəli 1-ci səh.*

Naxçıvanda aparılan yüksək inkişaf, abadlıq-quruculuq işləri məhz dayanıqlı inkişaf konsepsiyasına, uğurlu siyasətə əsaslanır. Hazırda Naxçıvanın hər bir sakini geniş quruculuğun, sosial-iqtisadi inkişafın, davamlı yüksəlişin real nəticələrini öz gündəlik həyatında hiss etməkdədir.

Muxtar respublikanın inkişaf və yüksəlişinin davamlı olması, eləcə də təhlükəsizliyinin daha da gücləndirilməsi istiqamətində tədbirlər uğurla həyata keçirilir. Real vəziyyətə nəzər yetirsək görərik ki, Naxçıvanın kənd, qəsəbə və rayon mərkəzlərinin 90 faizə yaxını artıq ən yüksək səviyyədə yenidən qurulub, abadlaşdırılıb. İlham Əliyevin muxtar respublikaya sayca 15-ci səfəri də Prezidentin Naxçıvana yüksək diqqət ayırdığının bariz göstəricisidir.

Bu səfər çərçivəsində açılışı olan və təməli qoyulan mühüm obyektlər də görülən işlərin tərkib hissəsidir. Dövlət başçısı səfər zamanı Əlahiddə Ümumqoşun Ordunun hərbi aerodromunun, Naxçıvan Qarnizonu Mərkəzi Hospitalının, Süni Mayalanma Mərkəzinin, "Azərxalça" ASC-nin Naxçıvan filialının, Culfa-Ordubad magistral avtomobil yolunun, Ordubad rayon mərkəzi və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin açılış mərasimlərinə qatılıb, həmçinin Naxçıvan Beynəlxalq Hava Limanının yeni uçuş-enmə zolağının təqdimatında iştirak edib. Prezident "ASAN xidmət" Mərkəzinin binasının, Ordubad Su Elektrik Stansiyasının tikintisi, eləcə də Ordubad dəmir yolu stansiyasında aparılan yenidənqurma işləri ilə tanış olub.

Əlbəttə ki, İlham Əliyevin muxtar respublikaya səfəri zamanı istifadəyə verilən və tikilməkdə olan obyektlər ölkədə insan amilinə verilən yüksək dəyərin ifadəsidir və Naxçıvanın daha da inkişafında mühüm rol oynayacaq.

### Son 20 il ərzində iqtisadi artımın templərinə görə rekord göstəriciləri olan bölgə

Prezident muxtar respublikada həyata keçirilən məqsədyönlü tədbirləri, kompleks quruculuq işlərini yüksək qiymətləndirərək vurğulayıb ki, Naxçıvan sürətlə inkişaf edir. Bütün sahələr üzrə işlər müsbət istiqamətdə gedir. Təkcə onu demək kifayətdir ki, qazlaşdırmanın səviyyəsi, elektrik enerjisi ilə təchizat artıq 100 faizə çatıb və Naxçıvanda çox böyük enerji potensialı yaradılıb. Vaxtilə elektrik enerjisinə həsrət qalan Naxçıvan indi özünü enerjisi ilə tam təmin edir və bərpaolunan mənbədən istifadə olunur.

Yol-nəqliyyat və digər infrastrukturların yenidənqurulma prosesinə də diqqət çəkən Prezident deyib ki, bütün şəhərlər artıq magistral yollarla bir-birinə bağlanıb və Naxçıvanda olan hər bir insan bunu görür. Yollar çox keyfiyyətlə tikilir, içməli su layihələri bütün şəhərləri əhatə edir.

Naxçıvanın sosial-iqtisadi və qeyri-neft sənaye potensialını da dəyərləndirərkən İlham Əliyev bildirib ki, burada sənaye potensialı inkişaf etməkdədir. Muxtar respublika son 20 il ərzində iqtisadi artımın templərinə görə rekord göstəriciləri olan bölgədir. Naxçıvanda ümumi daxili məhsul 10 dəfədən çox artıb. Kənd təsərrüfatı ilə bağlı görülmüş işlər nəticəsini verməkdədir. Yəni bütün bunlar inkişafın təzahürüdür: "Bir sözlə, muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir. Əminəm ki, Naxçıvan bu liderliyi bundan sonra da saxlayacaqdır".

### Zəngəzur dəhlizinin açılması 30 illik blokadaya son qoyacaq

Naxçıvana səfəri çərçivəsində Prezident İlham Əliyev həm ölkə vətəndaşlarına xoş xəbərlər verdi, həm də Ermənistana sərt xəbərdarlıq etdi.

Öncə onu deyək ki, 30 ildir blokada şəraitində olan Naxçıvanın müdafiəsi hər zaman diqqət mərkəzində saxlanılıb. Dövlətin muxtar respublikaya göstərdiyi güclü dəstək faktı Naxçıvanı özünü xarici təhdidlərdən tam müdafiə etmək iqtidarında olan bölgəyə çevirib.

Vətən müharibəsindəki şanlı Zəfərimizdən sonra Ermənistanın diz çökərək kapitulyasiya sənədinə qol çəkməsi Naxçıvanın da blokadadan qurtuluşunu şərtləndirmiş oldu. Yəni Zəngəzur dəhlizinin açılması hesabına Naxçıvanın 30 illik blokadasına son qoyulacaq.

İlham Əliyev ötən il noyabrın 10-da imzalanmış birgə bəyanata qədim diyarla bağlı xüsusi bir maddəni - 9-cu bəndi saldırmaqla önümüzdəki illərdə muxtar respublikanın beynəlxalq nəqliyyat dəhlizinə çevrilməsinə yol açıb. Zəngilandan Naxçıvana dəmir yolu xəttinin və avtomobil magistrallarının tikintisi muxtar respublikada transmilli nəqliyyat layihələrinin reallaşdırılmasına şərait yaradacaq ki, bu da qədim diyarın geostrateji əhəmiyyətini daha da artıqmaqla yanaşı, bir sıra mühüm məsələlərdə böyük nailiyyətlər qazanmağa şərait yaradacaq. Əlbəttə ki, bütün bunlar qalib sərkərdənin dəmir iradəsinin bəhrəsidir.

Ermənistanın revanşist qüvvələrinin bu dəhlizin açılmasına qarşı təxribatlara əl atma cəhdlərinə gəlincə isə Prezident bir daha bəyan edib ki, istənilən təxribata adekvat cavab veriləcək və ya onlar yerindəcə məhv ediləcəklər. Ermənistan dövləti daha da acınacaqlı vəziyyətə düşmək istəmirsə, bəyanatın məlum bəndinin icrasını təmin etməlidir.

Səfər çərçivəsində Azərbaycan Televiziyasına müsahibəsində bu məsələyə toxunan İlham Əliyev bir daha qətiyyət nümayiş etdirdi: "Mən təsadüfən Ordubad dəmir yolu stansiyası ilə tanışlığa gəlməmişəm. Çünki bunun da çox böyük rəmzi mənası var. Bu yaxınlarda buradan təqribən 50-60 kilometr uzaqlıqda yerləşən Mincivan qəsəbəsinin ermənilər tərəfindən dağıdılmış dəmir yolu stansiyasında baxış keçirdim. Orada dəmir yolu mövcud deyil. Mənfur düşmən bütün dəmir yolu infrastrukturunu dağıdıbdır, talan edibdir. Orada bir mərkəz olacaq, burada bir mərkəz olacaq. Zəngilanı Naxçıvanla ayıran cəmi 40 kilometrlik Zəngəzur dəhlizidir, hansı ki açılmalıdır və açılacaqdır".

Bununla da aydın şəkildə bəlli olur ki, yaxın vaxtlarda Zəngilanı Naxçıvanla birləşdirəcək 40 kilometrlik Zəngəzur dəhlizi mütləq açılacaq. Muxtar respublikanın nəqliyyat-kommunikasiya imkanları genişlənəcək və bütün bunlar Naxçıvanın iqtisadi imkanlarının daha da artmasına xidmət edəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***





◆ Jurnalist araşdırması



# Bakı-Zəngəzur-Naxçıvan

## Prezident İlham Əliyevin müəllifi olduğu Avrasiyanın bu yeni nəqliyyat dəhlizi qitələrarası əməkdaşlığa mühüm töhfə verəcək

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyevin birbaşa təşəbbüsü ilə Naxçıvanla Azərbaycan arasında kommunikasiya əlaqəsinin bərpa edilməsi sayəsində bu imkanların getdikcə daha da artacağı gözlənilir.

44 günlük müharibənin sonunda Azərbaycanın xeyrinə imzalanan üçtərəfli bəyanat əsasında Zəngəzur dəhlizinin açılması yüksək resurs potensialına malik olan Naxçıvanın iqtisadi gücünü artırmaqla yanaşı, onu mühüm nəqliyyat qovşağına çevirəcək.

Bu birləşdirmə Azərbaycanın beynəlxalq logistika mərkəzi kimi rolunun daha çox artmasına şərait yaradacaq.

### Zəngəzur Ermənistana verilməsəydi, Naxçıvanla Azərbaycanın quru əlaqəsi kəsilməyəcəkdi

Yaxın Şərq ölkələri ilə Azərbaycanı, eləcə də bütün Qafqazı əlaqələndirən əsas yolların kəsişdiyi, əlverişli mövqedə yerləşən Naxçıvan bir əsr əvvələdək Azərbaycandan ayrı deyil, ona bitişik olub. Tarixi sənədlərə görə, Naxçıvanla Azərbaycanın quru əlaqələrinin kəsilməsi düz 101 il əvvəl baş verib.

Qədim Azərbaycan torpağı olan Zəngəzurun 1920-ci il dekabrın 1-də sovet rəhbərliyi tərəfindən Ermənistana verilməsi Naxçıvan ərazisini respublikamızdan tamamilə ayırıb. Həmin zaman təxminən 3100 kvadrat kilometr sahəsi olan Şərqi Zəngəzur (Zəngilan, Qubadlı, Laçın, Cəbrayıl rayonları) Azərbaycanın tərkibində qalsa da, sahəsi 4 min kvadrat kilometrə yaxın olan Qərbi Zəngəzur (Qarakilsə (Sisian), Mehri, Qafan, Gorus rayonları) Ermənistana verilib.

Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin sədri, tarix elmləri doktoru, akademik İsmayıl Hacıyev bildirdi ki, Zəngəzur Ermənistana verilməsəydi, Naxçıvanla Azərbaycanın quru əlaqəsi kəsilməyəcəkdi. Naxçıvan ərazisini Azərbaycandan ayıran Zəngəzur mahalının Ermənistana verilməsi Naxçıvana muxtariyyətin verilməsi məsələsini zəruri etdi. Naxçıvanın muxtariyyət statusunun əsası 1921-ci il 16 mart tarixli Moskva müqaviləsi ilə qoyulub, 1921-ci il 13 oktyabr tarixli Qars beynəlxalq müqaviləsi ilə həmin status daha da möhkəmləndirilib.

Akademik qeyd edir ki, Naxçıvanın Azərbaycanla quru əlaqələrinin itməsi regionun sosial-iqtisadi əlaqələrinin inkişafına mənfi təsir göstərdi. Ancaq sonradan Bakı-Şərur-Yerevan (Ermənistanın təcavüzü bu dəmiryolunun bağlanmasına səbəb oldu) dəmiryolu çəkildikdən sonra əlaqələr bir qədər genişləndi: "Təbii ki, şose yolu yenə də yox idi. Hələ 1970-ci illərdə Ulu Öndər Heydər Əliyev Azərbaycanda hakimiyyətdə olarkən onun təşəbbüsü ilə Naxçıvana getmək üçün hərbi yol adı ilə şose yolunun tikintisinə başlanılmışdı. O yol böyük dağlardan çəkilirdi, bunu mən özüm də görmüşdüm. Sonradan ermənilər bu yolun tikintisinə mane oldular, daha sonra Ulu Öndər hakimiyyətdən getdi və yolun tikintisi məsələsi yarımçıq qaldı. Bu gün dəmiryolu bərpa edilməklə yanaşı, şose yolu da çəkilməlidir. Bu, Naxçıvanın sosial-iqtisadi inkişafına, Azərbaycanın türk dünyası ilə birləşməsinə çox böyük müsbət təsir göstərə bilər".

### Ermənilərin məqsədi Naxçıvanı işğal etmək olub

İsmayıl Hacıyev ermənilərin ideologiyasının 100 illərdir ki, Naxçıvan Muxtar Respublikası ilə bağlı olduğunu söyləyir.

Akademik açıqlayır ki, hələ 1918-1920-ci illərdə ermənilərin məqsədi Naxçıvanı qapalı vəziyyətə salıb oranı işğal etmək idi: "Onlar deyirlər ki, Ermənistan Naxçıvansız yaşaya bilməz. Hətta 1918-1920-ci illərdə ingilislər və amerikanlar Naxçıvanın Ermənistana verilməsi üçün vasitəçilik edirdilər. Həmin dövrdə ermənilərin iddiası Naxçıvanı qapalı vəziyyətə salıb onu işğal etmək idi. Ermənilər hətta deyirdilər ki, azərbaycanlılar Naxçıvanı Ermənistana versələr, biz Qarabağ və Zəngəzur iddialarından geri çəkilərik. Ermənistan yazıçısı Zori Balayan da "özümüzü ona görə günahkar sayırıq ki, biz hadisələrə Naxçıvandan başlamadıq. Yəni Qarabağdan deyil, hadisələrə Naxçıvandan başlamalı idik" deyirdi. Ermənilərin əsas məqsədi Naxçıvanı tutmaq idi. Amma Qars müqaviləsi ilə Türkiyə Naxçıvanın qarantı funksiyasını öz üzərinə götürdüyündən bu, mümkün olmadı".

### 40 kilometrlik dəhliz

Bu gün Naxçıvanla Azərbaycanın Zəngilan rayonunu təxminən 40 kilometrlik məsafə ayırır ki, haqqında danışılan Zəngəzur dəhlizi də məhz həmin əraziləri birləşdirir.

Beynəlxalq Memarlar Akademiyası Moskva şöbəsinin professoru, Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin üzvü Faiq İsmayılov deyir ki, Azərbaycanı Naxçıvanla birləşdirən Mehri şəhəri 1929-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi Levon Mirzoyan tərəfindən Ermənistana bağışlanıb. Mehri sovet dövründə Azərbaycanın Ermənistan üzərindən nəqliyyat dəhlizi rolunu oynayıb.

O bildirir ki, 1936-cı ildə Bakıdan çıxan ilk qatar Mincivan-Culfa dəmiryolu xətti ilə Qafanın mis mədənlərinə gəlib. Bundan sonrakı dövrlərdə Bakı-İrəvan, Moskva-Naxçıvan-Tehran marşrutları ilə sərnişin və yük qatarları SSRİ-nin süqutuna qədər bu dəhliz vasitəsilə müntəzəm olaraq işləyib.

Professor əlavə edir ki, Mincivan-Culfa dəmiryolu dəhlizi bütün tarixi boyu Azərbaycanın nəzarətində olub. Qatarların fəaliyyəti 1991-ci ilə qədər davam etsə də, 1988-ci ildən Ermənistanda baş qaldıran qanunsuz silahlı dəstələr onların hərəkətinə mane olurdular. Belə ki, bu silahlı dəstələr sərnişinlərə xəsarət yetirir, onları soyur, yüklərini əllərindən alaraq mənimsəyirdilər. Son yük qatarı bu dəhlizdən 1992-ci ildə Arazboyu keçərək öz fəaliyyətini sona çatdırdı. Bundan sonra Naxçıvan blokadaya düşdü.

Faiq İsmayılov deyib ki, dəhlizdə hərəkət dayandırıldıqdan sonra dəhliz boyu Azərbaycana məxsus stansiyalar və depolar qarət olunaraq yandırıldı. Erməni separatçıları Mincivan-Culfa, Ağdam-Əsgəran-Xankəndi dəmir yolu magistralındakı dəmiryol relslərini, dəmir dirəkləri, məftilləri və hətta bütöv vaqonları qonşu ölkələrin metaləritmə zavodlarına satıblar.

Bu yaxınlarda Mincivan qəsəbəsinin ermənilər tərəfindən dağıdılmış dəmir yolu stansiyasına baxış keçirdiyini deyən Prezident İlham Əliyev də mənfur düşmənin bütün dəmiryolu infrastrukturunu dağıdıb, talan etdiyini açıqlayıb.

"Zəngilanı Naxçıvanla ayıran Zəngəzur dəhlizi açılmalıdır və açılacaq. Heç kimdə bu haqda şübhə olmasın. Əlbəttə ki, Azərbaycan öz üzərinə düşən vəzifələri icra edəcək. Mən Horadiz-Ağbənd dəmir yolunun təməl daşını qoydum. Azərbaycan ərazisində Horadiz-Ağbənd dəmiryolu tikiləndən sonra bütün infrastruktur yaradılacaq" deyən dövlət başçısı əlavə edib ki, Şərqi Zəngəzur bölgəsində yerləşən Zəngilanı bizim qədim torpağımız olan Qərbi Zəngəzurla, ondan sonra Ordubad vasitəsilə Naxçıvanla və Türkiyə ilə birləşdirmək bizim növbəti tarixi nailiyyətimiz olacaq.

### İnkişafın "Naxçıvan modeli" yaradılıb

Dünyada Naxçıvan kimi öz ölkəsindən quru yolla əlaqəsi kəsilmiş, blokada şəraitinə düşərək ondan tam ayrılmış çox az sayda ərazi nümunələri var. Lakin Naxçıvanı bu nümunələrdən fərqləndirən onun blokada şəraitində belə dinamik inkişaf edə bilməsidir.

Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor Ağarza Rüstəmov deyir ki, Prezident İlham Əliyev tərəfindən inkişafın "Naxçıvan modeli" yaradılıb.

Onun sözlərinə görə, dövlət başçısının davamlı tərəqqiyə və yüksəlişə doğru aparılan uğurlu siyasəti muxtar respublikada bütün sahələrin inkişafı üçün əlverişli imkanlar formalaşdırıb: "Prezident İlham Əliyev Naxçıvana bütün səfərləri zamanı xüsusi olaraq vurğulayır ki, muxtar respublika sürətlə inkişaf edir, bütün sahələr üzrə işlər müsbət istiqamətdə gedir. Müxtar respublika son 20 il ərzində iqtisadi artımın templərinə görə lider bölgə olub".

Ağarza Rüstəmov qeyd edir ki, öz tarixi missiyasını şərəflə yerinə yetirən Naxçıvan bu gün inkişafın ən yüksək zirvəsindədir. Ümumi daxili məhsulun 10 dəfədən çox artması bunu təsdiqləyən reallıqdır. Blokada şəraitində yaşaya-yaşaya bu gün özünü elektrik enerjisi ilə tam təmin edən Naxçıvanda qazlaşdırmanın səviyyəsi artıq 100 faizə çatıb: "Cənab Prezident də bunu dəyərləndirərək dedi ki, muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir. Naxçıvanda həyata keçirilən kompleks quruculuq işləri Azərbaycan dövlətinin iqtisadi qüdrətini, inkişafını və tərəqqisini təcəssüm etdirir. Son illərdə Naxçıvan Muxtar Respublikasının inkişaf və yüksəlişinin, eləcə də təhlükəsizliyinin tam təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər uğurla davam etdirilir. Naxçıvanın sürətlə inkişaf etdiyini təsdiqləyən real göstəricilərə nəzər yetirsək görərik ki, muxtar respublikanın kənd, qəsəbə və rayon mərkəzlərinin 90 faizə yaxını artıq ən yüksək səviyyədə yenidən qurulub, abadlaşdırılıb".

Ağarza Rüstəmov bildirir ki, dövlət proqramlarını, infrastruktur layihələrini böyük uğurla həyata keçirməsi sayəsində muxtar respublika bütün ölkədə dinamik inkişaf xəttinə uyğun, fasiləsiz aparılan irimiqyaslı quruculuq-abadlıq işlərinin fəal iştirakçısı olub. Bütün bunlar isə ilk növbədə Prezident İlham Əliyevin muxtar respublikaya göstərdiyi diqqət və qayğısının bariz təcəssümüdür: "Prezident İlham Əliyevin mayın 10-da - Ulu Öndər Heydər Əliyevin doğum günündə Naxçıvana səfər etməsi böyük əhəmiyyət kəsb etdi. Hər zamankı kimi, bu səfər çərçivəsində də dövlət başçısı çox böyük sosial-iqtisadi, hərbi önəmə sahib yeni obyektlərin açılışını etdi. Bir çox mühüm obyektlərin tikintisi, aparılan yenidənqurma işləri ilə yaxından tanış olub xeyir-duasını verdi, göstəriş və tapşırıqlarını çatdırdı. Əlbəttə ki, bütün bunlar muxtar respublikanın bugünü və gələcək inkişafı, təhlükəsizliyi üçün çox böyük əhəmiyyət kəsb edən obyektlərdir. Bu səfər dövlət başçısının Naxçıvana sayca 15-ci səfəri olmaqla yanaşı, həm də rəmzi məna daşıyırdı. Çünki bundan önçəki 14 səfərdən fərqli olaraq cənab İlham Əliyev muxtar respublikaya həm də Müzəffər Ali Baş Komandan, qalib Sərkərdə kimi gəlmişdi".

### 30 ildə alternativ yollar tapılmışdı

Muxtar respublikanı Azərbaycanın ən vacib iqtisadi rayonlarından biri sayan Bakı Dövlət Universitetinin İqtisadi və siyasi coğrafiya kafedrasının müdiri, professor, Azərbaycanda Regional İnkişaf Mərkəzinin rəhbəri Çingiz İsmayılov bildirir ki, ölkəmiz artıq 30 il ərzində Naxçıvanın davamlı iqtisadi inkişafı üçün alternativ yollar tapmışdı. Bunlardan ən vacibi Türkiyə ilə iqtisadi əlaqələrin yaradılması idi.

Hazırda Naxçıvanın əsas iqtisadi əlaqələri və ixrac potensialı cənubdan həmsərhəd olduğu İran, qərbdən həmsərhəd olduğu Türkiyə ilə bağlıdır. Naxçıvanın sosial-iqtisadi inkişafında Türkiyə ilə iqtisadi əlaqələrin genişləndirilməsi xüsusilə mühüm rol oynayır: "Türkiyənin İğdır bölgəsi Naxçıvanın Sədərək bölgəsi ilə müqayisədə daha çox inkişaf edib. İğdırdan gələn məhsulların dəyəri Naxçıvandan gedən məhsulların dəyərindən daha yüksəkdir, yəni onlar müsbət saldo ilə işləyirlər".

Kafedra müdiri təklif edir ki, Azərbaycan İranın sərhədyanı ərazisi ilə iqtisadi əlaqələri bu formada təşkil edə bilər. İranın şimal-qərb hissəsi özünün inkişaf etmiş əraziləri ilə müqayisədə nisbətən geridə qaldığı üçün Naxçıvanın həmin bölgəyə öz məhsullarını, məsələn, kənd təsərrüfatı məhsulları, mineral sular və s. ixrac etməsi və bununla da ixrac potensialını artırması, əlavə valyuta əldə etməsi mümkündür.

Cingiz İsmayılovun qənaətincə, ixrac potensialının artırılması üçün ilk növbədə Naxçıvanın resurslarından geniş istifadə edilməlidir.

### Naxçıvan mərkəzi büdcəyə əlavə gəlir gətirəcək

Çingiz İsmayılov əlavə edir ki, Azərbaycan bu bölgənin inkişafına kifayət qədər diqqət göstərir və mərkəzləşdirilmiş maliyyə mənbələri ilə iqtisadi rayonun sosial-iqtisadi inkişafı üçün kifayət qədər maliyyə vəsaiti ayırır: "Naxçıvanın davamlı iqtisadi inkişafı üçün hərtərəfli şərait var. Muxtar respublika zəngin təbii ehtiyatlara və insan resurslarına malikdir. Bu resursların istifadəsi məqsədilə dövlət tərəfindən regionların sosial-iqtisadi inkişafı strategiyasına uyğun olaraq müxtəlif proqramlar həyata keçirilir, Prezidentin iştirakı ilə yeni sosial-iqtisadi obyektlər, iş yerləri açılır".

Alim təklif edir ki, Naxçıvandakı yeraltı təbii ehtiyatlardan, o cümlədən mineral su, rekreasiya, torpaq, su ehtiyatlarından səmərəli istifadə etmək olar. Bununla yanaşı, Naxçıvanın çox hissəsində günəşli günlərin sayı çox olduğu üçün orada alternativ enerjinin təşkili üçün böyük potensial var: "Amma bu imkandan çox istifadə edilmir. Düşünürəm ki, burada alternativ enerji mənbələrinin yaradılmasına xüsusi fikir verilməli, Günəş enerji stansiyaları tikilməlidir. İnsan potensialından istifadəyə də xüsusi fikir verilməlidir".

Cingiz İsmayılovun sözlərinə görə, Naxçıvanın gəlirlərinin və xərclərinin balansına nəzər yetirilsə, hələ ki, mərkəzləşdirilmiş maliyyə dəstəyi üstünlük təşkil edir. Lakin qeyd edilən sahələrə investisiya qoyularsa, təbii resurs və insan potensialı əsasında Naxçıvan daxil olan mərkəzləşdirilmiş vəsaitlərdən daha çox vəsait qazana və bununla da özünü tam təmin edə, hətta dövlətin mərkəzi büdcəsinə əlavə gəlirlər gətirə bilər.

### Yükdaşımaların həcmi artacaq

Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun Regional inkişaf və təbii sərvətlərdən istifadə problemləri şöbəsinin müdiri, iqtisad elmləri doktoru Rəna Sultanova bildirir ki, iqtisadi artım göstəriciləri əldə etməsinə baxmayaraq, bu gün Naxçıvan bir sıra çətinliklərlə də üzləşir.

Ermənistanın Azərbaycana etdiyi təcavüzün nəticəsi olaraq, Azərbaycanla quru yolun olmaması, Zəngəzur dəhlizinin bağlanması muxtar respublikanın səmərəli iqtisadi fəaliyyətinə mənfi təsir göstərir. Naxçıvana çox sayda yüklər İran ərazisindən keçməklə gətirildiyi üçün yükdaşıma muxtar respublikaya çox baha başa gəlir. Lakin Zəngəzur dəhlizinin açılması nəticəsində Azərbaycan Avrasiya nəqliyyat qovşağına qoşulma imkanı əldə edəcək. Bundan sonra o, özü nəqliyyat yoluna görə vəsait xərcləyən deyil, gəlir əldə edən bölgəyə çevriləcək.

İqtisadçı alimin fikrincə, Zəngəzur dəhlizi yalnız Naxçıvan, ümumilikdə Azərbaycan üçün deyil, bütün region üçün əhəmiyyətli olacaq: "Daha dərindən baxılsa, görmək olar ki, dəhliz təkcə Azərbaycan və Ermənistan üçün deyil, Rusiya üçün də çox əhəmiyyətlidir. Zəngəzur dəhlizi Rusiya üçün yükdaşımaların həyata keçirilməsində yeni və iqtisadi cəhətdən daha əhəmiyyətli bir marşrut olacaq. Dəhliz Rusiyanın Ermənistandakı hərbi bazasının maddi-texniki təchizatı, eyni zamanda bu ölkəyə sənaye məhsullarının daşınması üçün yeganə yol olacaq.

Çingiz İsmayılov hesab edir ki, dəhliz açıldıqdan sonra Azərbaycan Bakı-Tbilisi-Qars dəmiryolu ilə yanaşı, alternativ istiqamət - Zəngəzur yolu ilə də yüklərini daşıya biləcək. Bu yol geniş iqtisadi əlaqələr yaratmaqla Naxçıvan, eləcə də ölkəmiz üzərindən daşınan yüklərin həcminin kifayət qədər artmasına imkan verəcək.

### Dəhlizin iqtisadi fəaliyyətə təsiri

Rəna Sultanova dəhlizin Naxçıvanın sosial-iqtisadi inkişafını sürətləndirməsinə, ümumi daxili məhsulunun həcminin bir neçə dəfə artmasına təsir göstərəcəyi qənaətindədir: "Uğurlu iqtisadi islahatlar nəticəsində 2004-cü illə müqayisədə 2019-cu ildə Naxçıvanda ümumi daxili məhsul 12 dəfə artmışdı. Dəhliz açıldıqdan sonra bu artım bir neçə dəfə çox ola bilər. Bu da Naxçıvanın iqtisadi inkişafına çox güclü təsir göstərəcək".

İqtisadçı deyir ki, Zəngəzur dəhlizi Azərbaycanla Türkiyə arasında indi mövcud olan nəqliyyat məsafəsini 400 km qısaldacaq. Bu amil Naxçıvanın sosial-iqtsadi inkişafına öz müsbət təsirini göstərəcək. Naxçıvanın Türkiyə ilə daha da yaxınlaşması Azərbaycanın Türkiyə ilə əlaqələrinin inkişafına təkan verməklə yanaşı, Orta Asiya ölkələrinin iqtisadi baxımdan yaxınlaşmasına da səbəb olacaq.

Zəngəzur dəhlizinin açılması ilk növbədə iqtisadi əməkdaşlıq nəticəsində həyata keçirilə bilər. Rəna Sultanovanın qənaətinə görə, Rusiya, Türkiyə, Ermənistan səmərəli fəaliyyət göstərərək Zəngəzur dəhlizindən öz mənfəətlərini əldə edə bilərlər: "Bu gün Ermənistanın iqtisadiyyatı çox acınacaqlı vəziyyətdədir. Ermənistan iqtisadiyyatı bu dəhlizin açılmasından böyük mənfəət əldə edə bilər".

Ümumilikdə dəhliz açıldıqdan sonra Naxçıvan özü özünün sosial-iqtisadi inkişafını tam təmin edə bilər.

### İxrac potensialı artacaq

Milli Məclisin deputatı, iqtisadçı Vüqar Bayramov Zəngəzur dəhlizinin istifadəyə verilməsindən sonra Naxçıvanın iqtisadi, xüsusilə ixrac potensialının daha da artacağını düşünür.

Onun sözlərinə görə, 2019-cu ildə Naxçıvan MR-də 3 milyard 613 milyon manatlıq məhsul və xidmətlər istehsal olunub. Son 5 ildə muxtar respublikada məhsul istehsalı 762 milyon manat artıb. Bu müddətdə Naxçıvan MR-in iqtisadiyyatının həcmi 12 faizə yaxın artıb: "2014-cü ildə muxtar respublikada 2 milyard 851 milyon manatlıq məhsul istehsal olunmuşdu. Pandemiyadan əvvəlki ildə muxtar respublikada 1 milyard 14 milyon manatlıq sənaye məhsulu istehsal olunub. Bu, 2015-ci illə müqayisədə 10 faiz çoxdur. Zəngin təbii-meneral ehtiyatları olan Naxçıvanın böyük iqtisadi potensialı Zəngəzur dəhlizinin istifadəyə verilməsi kontekstində daha da genişlənəcək".

Vüqar Bayramovun qənaətinə görə, dəhlizin istifadəyə verilməsi eyni zamanda Naxçıvan məhsullarının xarici ölkələrə ixrac imkanlarının genişləndirilməsi deməkdir: "Naxçıvanda emaledici, xüsusilə emaledici qida sənayesinin, yüngül sənayenin və təbii ehtiyatlara əsaslanan sənayenin inkişaf imkanları var. Muxtar respublika həm də mineral sularla kifayət qədər zəngindir. Bütün bunlar həmin məhsulların ixracı üçün imkanlar yaradır. Gözlənilir ki, Zəngəzur dəhlizinin istifadəyə verilməsi emaledici qida sənayesinin inkişafına təkan verəcək, Naxçıvanda istehsal edilən məhsulların daha böyük bazarlara çıxış imkanları yaranacaq".

Vüqar Bayramov belə hesab edir ki, dəhliz Azərbaycanın qərb hissəsində fəaliyyət göstərən iş adamları ilə Naxçıvandakı sahibkarlar arasında əlaqələrin, əməkdaşlığın qurulması baxımından vacibdir. Bu əməkdaşlıq qısa vaxtda məhsulların nəqlinə imkan yaradacaq. Bunun Azərbaycanın iqtisadi inkişafına, eləcə də muxtar respublikanın iqtisadiyyatına müsbət təsirləri olacaq.

Deputat bunu da əlavə edir ki, dəhliz açıldıqdan sonra Azərbaycanın öz eksklavı olan Naxçıvan Muxtar Respublikası və Türkiyə ilə əlaqələri güclənəcək, ölkənin geoiqtisadi əhəmiyyəti daha da artacaq.

### Turistlərin sayı çoxalacaq

Qədim yaşayış yerlərinin mövcud olduğu Naxçıvan Muxtar Respublikası həm də özünün tarixi mədəniyyət abidələrinin çoxluğu ilə fərqlənir. Muxtar respublikadakı 1162 tarixi-mədəniyyət abidənin 58-i dünya, 455-i ölkə əhəmiyyətlidir. Dünya memarlığının incisi hesab oluna biləcək tarixi memarlıq abidələrinin və zəngin mədəni irsin mövcud olduğu Naxçıvan öz təbii müalicə obyektləri ilə də məşhurdur. Azərbaycanın mineral su ehtiyatının 60 faizi muxtar respublikanın payına düşür. Sözsüz ki, bütün bu amillər regionun turizm potensialının göstəricisidir.

2019-cu ildə qədim diyara ölkəmizin digər bölgələrindən və xarici ölkələrdən ümumilikdə 415,9 min turist gəlib ki, bu, 2009-cu illə müqayisədə 84,1 faiz çoxdur. Son illər ərzində Naxçıvana gələn turistlərin sayının çoxalmasına baxmayaraq, belə hesab etmək olar ki, regionun turizm göstəriciləri onun yüksək potensialına uyğun deyil.

Dövlət Turizm Agentiliyinin mətbuat katibi Kənan Quluzadə deyir ki, dəhlizin istifadəyə verilməsi muxtar respublikanın turizminin inkişafına müsbət təsir göstərəcək, gələn turistlərin sayının artmasına səbəb olacaq: "Ümumiyyətlə, kommunikasiyaların çox olması turizmin inıkişafına töhfə verən əsas amillərdəndir. İşğaldan azad edilmiş ərazilərdə tikilən aeroportlar, Naxçıvanla Azərbaycan arasında kommunikasiyanın bərpası turizm baxımından çox vacib infrastruktur layihələridir. Bu layihələrdən istifadə etmək çox effektiv ola bilər".

Kənan Quluzadənin sözlərinə görə, Naxçıvandan Azərbaycana birbaşa quru yolun bərpası Türkiyədən Azərbaycana birbaşa yeni bir dəhlizin açılması deməkdir. Bu da həmin dəhliz boyunca yerləşən ərazilərin, o cümlədən Qarabağda turizmin inkişafı üçün böyük imkanlar yaradacaq.

### "Qapı bağlayan" Ermənistan üçün qapıları yenə də Azərbaycan açır

Tarixdən aydın olan budur ki, Ermənistan hər zaman Naxçıvanın inkişafına mane olmağa, onun qarşısında bir sədd çəkməyə çalışıb. Naxçıvanın blokadada qalmasının başlıca səbəbkarı Ermənistandır.

Lakin Azərbaycan 44 günlük müharibədə qələbə qazanaraq Naxçıvanı blokadadan çıxarmaq üçün mənfur düşməni kommunikasiya əlaqələrinin bərpası barədə razılaşma imzalamağa məcbur edə bildi.

Prezident İlham Əliyevin iradəsi sayəsində Azərbaycan bir əsrdən sonra Naxçıvanla quru yolla əlaqə yaratmağa nail olacaq.

Bu yoldan gözləntilər çoxdur. Kommunikasiyaların bərpası muxtar respublikanın daha çox inkişaf etməsi üçün yeni imkanlar yaradacaq. Ancaq gözləntilər yalnız Naxçıvanın gələcəyi ilə bağlı deyil, onlar həm də regionun inkişafı üçün əhəmiyyətlidir. Bunun əhəmiyyətini isə yalnız Azərbaycan deyil, Ermənistan da dərk etməlidir. Bir zamanlar öz ərazi iddialarına görə Naxçıvanı blokadaya salan Ermənistan anlamalıdır ki, o, muxtar respublikaya gedən qapıları bağlamaqla əslində özünün inkişafa gedən yolunun qarşısını kəsib.

Ermənistan bunu etməsəydi, vəziyyət əksinə də ola bilərdi. Özünün xəbis niyyətlərinin qurbanı olan Ermənistan bu yolu bağlamasaydı, Azərbaycana qarşı ərazi iddiaları irəli sürməsəydi, o da ölkəmizin faydalandığı böyük iqtisadi layihələrin aktiv iştirakçısı ola və Azərbaycan kimi özünü təmin edə bilən müstəqil ölkə ola bilərdi. Odur ki, bunu anlamaları yenə də gec deyil.

*"Qapı bağlayan" Ermənistan üçün bu dəfə də qapı açılır. Bu qapını açan isə yenə də regionun güclü dövləti Azərbaycandır!*

***İlhamə İSABALAYEVA,***
***"Azərbaycan"***

# Yeni "Həyat yolu"



Bəzən zamanı real bir mənzərə, tablo kimi divardan asıb əvvəlini və axırını mürəkkəb hadisələrin xəritəsi kimi nəzərdən keçirmək, bənzərlikləri və fərqləri müqayisə etmək mümkündür. Bu baxımdan Prezident İlham Əliyevin Naxçıvana may ayının 10-dakı səfəri ilə təxminən bir qərinə əvvəl Ulu Öndərin qayıdışından sonrakı illər arasında müəyyən paralellər apara bilərik.

Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Ordubad dəmir yolu stansiyasında aparılan yenidənqurma işləri və Ordubad Su Elektrik Stansiyasının tikintisi ilə tanış oldu, Culfa-Ordubad magistral avtomobil yolunun və Ordubad rayon mərkəzi və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin, Culfa-Ordubad magistral avtomobil yolunun və Naxçıvan Qarnizonu Mərkəzi Hospitalının açılış mərasimlərində iştirak etdi.

Qeyd edək ki, bunlar dövlət başçısının muxtar respublikada iştirak etdiyi tədbirlərin yalnız bir qismidir. 30 ildən artıq blokadada yaşayan Naxçıvan MR Azərbaycanın ayrılmaz bir hissəsi kimi ölkənin bütün regionlarında gedən islahatların önündə olaraq sürətlə inkişaf edir. Naxçıvanda bütün çətinliklərə baxmayaraq, ərzaq, enerji, müdafiə və informasiya təhlükəsizliyi təmin edilmiş, ordu quruculuğu ən yüksək səviyyəyə qaldırılmışdır. Muxtar respublikada yeni hərbi obyektlər istifadəyə verilmiş, ordu hissə və birləşmələrinin maddi-texniki bazası möhkəmləndirilmişdir.

Zamanı təxminən bir qərinə geriyə vərəqləyəndə isə 1992-ci ilin may ayında Naxçıvanda jurnalist kimi keçirdiyimiz ağır blokada günləri yada düşür. Biz, bir neçə jurnalist Ulu Öndərin milli kadrları kimi Naxçıvana gəlmişdik. Ona ilk sualımız bu oldu: "Sizin kimi nəhəng siyasi xadim bu kiçik torpağa necə sığışır?" Sual xoşuna gəldiyi üçün ürəkdən güldü və cavab verdi ki, "bilirsinizmi, Naxçıvan düşündüyünüz qədər də balaca yer deyil, buranı qucaqlamaq üçün məndən də nəhəng insan lazımdır". O zaman bu sözlər bizə böyük siyasi xadimin müdrik cavabı kimi təsir etmişdi. Amma aradan 30 ilə yaxın vaxt ötdükdən sonra bu ifadənin arxasında necə dərin mənanın gizləndiyini başa düşmək çətin deyil.

1992-ci ilin may ayında muxtar respublikada hadisələr iki xətlə inkişaf edirdi. Birincisi, "Həyat yolu" adını daşıyan Sədərək körpüsü Naxçıvanı Türkiyə ilə birləşdirməli idi. Burada işlər sürətlə gedirdi. İkincisi, Ermənistan Naxçıvana hücum edirdi, demək olar, hər gün ağır döyüşlər olurdu. Bütün qüvvəsini toplayan düşmən bu "Həyat yolu"nu kəsmək, muxtar respublika ilə Türkiyə arasındakı sərhəd zolağını işğal etmək üçün dəridən-qabıqdan çıxırdı. Sədərək qəsəbəsi, onun yaxınlığındakı yaşayış məntəqələri ermənilərin aramsız artilleriya atəşlərinə və canlı qıvvəsinin həmlələrinə məruz qalırdı.

Biz Sədərəkin üstündəki dağlarda ən çətin döyüş postlarına qalxaraq naxçıvanlı əsgərlərin burada necə müdafiə qurduğunun, bir addım belə geri çəkilməməsinin şahidi olurduq. Heç yadımızdan çıxmaz: Sədərəkin üstündə dağın zirvəsindəki döyüş postuna qalxarkən bizi başa salırdılar ki, bu yolda sağ qalmaq, snayperə və düşmən mərmisinə tuş gəlməmək üçün üzü dağa dırmansan belə qaçmalısan və dağın zirvəsindəki təbii daş səngərə tullanmalısan. Tullananda ayağım büdrədi və mən zirvədəki postun içinə çırpılanda partlayıb qəlpələri göyə sovrulan mərminin tüstüsünü gördüm. Əgər büdrəyib səngərə çırpılmasaydım, qəlpələr mütləq məni tutmalı idi. Biz həmin zirvəyə birinci dəfə idi ki, qalxırdıq, amma bu ölüm yolunu əsgərlərimiz hər gün gedib gəlirdilər.

May ayının son gününə kimi ermənilərin hücumları bir an belə kəsilmədi. Aramsız hücumlar nəticəsində yaralananlar, ölənlər oldu. Amma heç kim ermənilərdən qorxmurdu. Sədərək camaatı dağın arxasında çadır qurub gecələyir, gündüzlər isə kəndə qayıdaraq iş-güclərindən qalmırdılar. İnsanlar nikbin və həmrəy idilər. O illəri xatırlayanda görürsən ki, Naxçıvan doğrudan da kiçik torpaq yox, bütün Azərbaycan və türk dünyası üçün xüsusi əhəmiyyət kəsb edən ən vacib strateji regiondur.

Əgər 1992-ci ildə Ermənistan silahlı qüvvələri Sədərək körpüsünün açılmamısı üçün ölüm-dirim savaşına qalxmışdılarsa, erməni siyasi liderləri indi də fərqli bir tərzdə "Həyat yolu"nun davamının - Zəngilandan dəmir yolunun açılmasının qarşısını almağa çalışırıar.

Prezidenti İlham Əliyev Naxçıvana səfəri zamanı Azərbaycan Televiziyasına verdiyi müsahibədə muxtar respublikanın müdafiə potensialının möhkəmlənməsinə həmişə böyük diqqət göstərdiyini, Naxçıvanda Əlahiddə Ümumqoşun Ordusunun yaradılmasını və onun ən müasir silah və texnika ilə təchiz edilməsinə şəxsən nəzarət etdiyini diqqətə çatdırmışdır: "Bu gün Naxçıvan ordusunda olan hərbi texnika deyə bilərəm ki, bəlkə də bəzi qabaqcıl ölkələrdə olan texnikadan üstündür. Çünki Naxçıvana ən müasir, ən son texnologiyaya əsaslanmış texnika gətirilir. Deyə bilərəm ki, bütövlükdə Azərbaycan Ordusuna xaricdən gətirilmiş texnikaların böyük əksəriyyətinin nümunələri Naxçıvan Muxtar Respublikasında mövcuddur". Dövlət başçısı bu müsahibədə önəmli strateji yüksəkliklərin Ermənistan ordusundan təmizləndiyini, strateji kommunikasiyalara və Ermənistandan Dağlıq Qarabağa gedən yola da nəzarət edildiyini də diqqətə çatdırdı.

Prezident müsahibəsində vacib bir məqama toxundu: "Mən təsadüfən Ordubad dəmir yolu stansiyası ilə tanışlığa gəlməmişəm. Çünki bunun da çox böyük rəmzi mənası var. Bu yaxınlarda buradan təqribən 50-60 kilometr uzaqlıqda yerləşən Mincivan qəsəbəsinin ermənilər tərəfindən dağıdılmış dəmir yolu stansiyasında baxış keçirdim. Orada dəmir yolu mövcud deyil. Mənfur düşmən bütün dəmir yolu infrastrukturunu dağıdıbdır, talan edibdir. Orada bir mərkəz olacaq, burada bir mərkəz olacaq. Zəngilanı Naxçıvanla ayıran cəmi 40 kilometrlik Zəngəzur dəhlizidir, hansı ki açılmalıdır və açılacaqdır".

İndi "Həyat yolu" daha da uzanaraq Naxçıvandan Zəngəzur üzərindən keçərək Zəngilana səmtlənir. Bu dəhliz haqqında Prezident İlham Əliyev belə demişdir: "Əminliklə deyə bilərəm ki, dəmir yolu dəhlizi açılacaqdır. Heç kimdə bu haqda şübhə olmasın". Sonra da dövlət başçısı bunu belə izah edir ki, Ermənistan dəmir yolları anlayışı yoxdur. Ermənistanın bütün dəmir yollarının sahibi Rusiya olduğu üçün Azərbaycan bu məsələni daha çox Rusiya tərəfi ilə müzakirə edir: "Şərqi Zəngəzur bölgəsində yerləşən Zəngilanı bizim qədim torpağımız olan Qərbi Zəngəzurla, ondan sonra Ordubad vasitəsilə Naxçıvanla və Türkiyə ilə birləşdirmək bizim növbəti tarixi nailiyyətimiz olacaq".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Naxçıvan tarixinin intibahı

Əslində tarixindən söz açmaq üçün çox-çox uzaqlardan başlamaq lazım gəlir. Çünki bütün mənbələr onun qədimliyindən xəbər verir.




## Qədim şəhər

Özü kimi adı da qədimdir. "Naxçıvan" toponiminin müxtəlif etimoloji yozumları var. Bir sıra mənbələrdə, eləcə də Brokhauz və Efronun ensiklopedik lüğətində Naxçıvan şəhərinin əsasının eramızdan əvvəl 1539-cu ildə qoyulduğu qeyd edilib. Naxçıvan şəhərinin əsasının eramızdan əvvəl 1500-cü ildə qoyulması fikri isə müasir elmdə qəbul olunmaqdadır.

Tədqiqatlara görə, bu şəhər barədə ən erkən məlumatları eramızdan əvvəl I əsrdə tarixçi İosif Flavi və bizim eranın II əsrində coğrafiyaşünas Klavdi Ptolomey veriblər.

İosif Flavi Nuhun gəmisinin dayandığı yer olaraq "Apobaterion" toponimini qeyd edib. Toponim "Naxçıvan" kimi səslənir və müasir Naxçıvan şəhərinə aid edilir.

İosif Flavi Naxçıvan toponiminin meydana gəlməsinin Nuhun əfsanəsi ilə əlaqədar olduğunu yazıb. Allahın əmri ilə düzəltdiyi gəmidə öz ailəsi, götürdüyü canlılarla birlikdə xilas olan Nuh Peyğəmbər bugünkü Naxçıvan ərazisində məskən salıb.

Bu yerin hər qarışında tariximizin izləri var. Naxçıvan ərazisində aparılan arxeoloji tədqiqatlar da şəhərin qədimliyini meydana çıxarır. Eramızdan əvvəl IX-VI əsrlərdə Naxçıvan qədim Manna, İşquz və Midiya dövlətlərinin tərkibində olub. Madayların hakimiyyəti dövründə Naxçıvan tanınmış şəhərlərdən idi.

Sonrakı dövrlərdə tarixi siması dönə-dönə dəyişsə də, bu şəhərin əhəmiyyəti heç zaman dəyişməyib.

## Atabəylər dövlətinin paytaxtı

Naxçıvan tarixinin ən mühüm mərhələlərindən biri də Atabəylər dövlətinin (1136-1225) bərqərar olduğu dövrdür. Tədqiqatçılar bildiriblər ki, Azərbaycanın dövlətçilik tarixində çox böyük rolu olmuş Atabəylər dövrü siyasi, iqtisadi, mədəni inkişaf baxımından Naxçıvan tarixinin intibah dövrü hesab edilə bilər. XII əsrin 30-70-ci illərində Naxçıvan şəhəri bu dövlətin mərkəzi şəhəri, paytaxtı olub.

Eldənizlər dövlətinin banisi Atabəy Şəmsəddin Eldənizin hakimiyyətinin ilk dövründən dövlətin siyasi mərkəzi Naxçıvan şəhərində yerləşib. "Əcaib-əd-dünya" adlı tarixi mənbədə qeyd olunub: "Naxçıvan Eldənizin dövründə tam tərəqqiyə çatdı. Orada padşahlıq iqamətgahı (darülmülk) yaratdılar və dövlətxana təsis etdilər".

Şəmsəddin Eldənizin hakimiyyəti dövründə Naxçıvan Atabəylər dövlətinin əsas iqtisadi, siyasi və mədəniyyət mərkəzinə çevrilib. Şəmsəddin Eldənizin daimi yaşayış yeri və sarayı Naxçıvanda olub.

Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz dövrünün görkəmli dövlət xadimi kimi şöhrətlənib. O, qurduğu dövləti qüdrətləndirmək, ərazilərini genişləndirmək üçün böyük işlər görüb.

Ərəb tarixçisi İbn Əl-Əsir "Mükəmməl tarix" adlı əsərində Atabəy Şəmsəddin Eldənizdən bəhs edərək yazıb: "O, Azərbaycan, Arran və Şirvana, Cibəl ölkəsinə, İraq, Həmədan, Gilan, Mazandaran, İsfahan və Reyə sahib olmuşdu. Xilat, Fars, Xuzistan, Mosul və Kirmanın hakimləri də ona tabe idilər".

XII əsrdə Azərbaycan əraziləri, xüsusilə Naxçıvan yadellilərin hücumlarına tez-tez məruz qaldığından Şəmsəddin Eldənizin ölümündən sonra oğlu Məhəmməd Cahan Pəhləvanın zamanında (1174-1186) Atabəylər dövlətinin paytaxtı bu şəhərdən Həmədana köçürülüb. Onun vəfatından sonra hökmdarlıq taxtında kiçik qardaşı Qızıl Arslan (1186-1191) əyləşib. Məhəmməd Cahan Pəhləvanın oğulları Əbubəkrin (1191-1210) və Özbəyin (1219-1225) hakimiyyəti dövründə paytaxt Təbrizdə yerləşsə də, Naxçıvan ölkənin iqtisadi və mədəni həyatında mühüm rol oynayıb. Eldənizlərin bütün hakimiyyəti dövründə şəhər ikinci paytaxt statusunu saxlayıb.

Naxçıvan əhalisi sayına görə XI-XII əsrlərdə Yaxın Şərqin iri şəhərləri ilə müqayisə oluna bilərdi. Məhəmməd Naxçıvani bu barədə yazırdı: "Təbrizdən və Bağdaddan sonra Naxçıvan kimi cəlallı və əzəmətli şəhər yox idi". Həmin dövrdə Naxçıvan şəhərində əhalinin sayı təxminən 150-200 min nəfər idi. Əhalisinin əksəriyyətinin islam dininə mənsub Azərbaycan türklərindən ibarət olan şəhərdə farslar və səlcuq türkləri və azsayda digər etnoslar da yaşayırdı. Əhalinin sosial tərkibi şəhər zadəganları, ruhanilər, sənətkarlar, tacirlər, məmurlar, hərbçilər və şəhər yoxsullarından ibarət idi.

Şəhərdə çoxlu məscid və mədrəsələr inşa edilirdi. "Əcaib əd-dünya" adlı tarixi mənbədə Naxçıvan şəhərindən bəhs edilərkən yazılırdı: "Orada çoxlu saray, köşk, eyvan vardır. Şəhərin yaxınlığında daşdan qala tikilmişdir. Qalada mədrəsə və məscid vardır. Bütün binalar gəcdən və bişmiş kərpicdən inşa edilmişdir. Köşklərin çoxu qəsrlər kimi üç-dörd mərtəbəlidir".

Bu gün də Naxçıvanda tarixi məkanlardan sayılan Möminə Xatun türbəsi Atabəylər dövründən yadigardır. Naxçıvanın cənub səmtində salamat qalmış orta əsrlərə aid qala divarları hazırda Möminə Xatun türbəsinə xüsusi əzəmət, gözəllik verir...

1175-ci ildə Şəmsəddin Eldənizin xanımı Möminə xatun Naxçıvanda dünyasını dəyişib. Atabəy Eldəniz onun məzarı üzərində möhtəşəm məqbərə tikdirməyə qərar verib. Tikinti başlayıb. Ancaq arvadından bir ay sonra Atabəy Şəmsəddin Eldəniz də vəfat edib. Onların böyük oğlu Atabəy Məhəmməd Cahan Pəhləvan 1176-cı ilin aprelində məqbərənin tikintisini başa çatdırıb. Möminə Xatun türbəsinin memarı yalnız Azərbaycanda deyil, bütün Şərqdə tanınmış Əcəmi Əbu Bəkr oğlu Naxçıvanıdır.

Tədqiqatçılar XII əsrdə Naxçıvan şəhərinin mərkəzinin Möminə Xatun türbəsinin yerləşdiyi sahədə olduğunu, meydan ətrafında hökmdar sarayı, böyük Cümə məscidi və ticarət binaları yerləşdiyini qeyd ediblər. Oradakı ictimai binalar, Cümə məscidi, kompleksə aid qala, minarələr və digər tikililər orta əsrlərin sonrakı mərhələlərində müharibələr nəticəsində məhv edilib.

Əlincə qalası Eldənizlərin iqamətgahlarından biri olub. Ən təhlükəli məqamlarda dövlətin xəzinəsi və hökmdarın əhli-əyalı bu qalada qorunub. Əlincənin yüksəkliyində qutval (qala rəisi), yaxud qoçubaşı üçün nəzərdə tutulan qəsr yerləşib. Bu tikinti kompleksi yerli əhali tərəfindən Şahtaxtı adlandırılıb. Minə yaxın döyüşçünün yerləşdirilməsi mümkün olan Əlincə qalasında silah hazırlayan karxanalar, ilxı və mal-qara üçün tövlələr də olub.

Məhəmməd Cahan Pəhləvanın arvadı, Nüsrətəddin Əbubəkrin anası, bacarıqlı diplomat qadın, dövrünün tanınmış şəxslərindən biri, Eldənizlər dövlətinin siyasi həyatında mühüm mövqeyə malik Zahidə xatunun əsas iqamətgahı da bu qalada olub. Eldənizlər dövlətinin Əlincə qalasındakı xəzinəsi onun sərəncamında idi. Zahidə xatun dünyasını dəyişdikdən sonra bir müddət Naxçıvanın hakimi əl-Cəlaliyyə olub. Onun Zahidə xatunla Məhəmməd Cahan Pəhləvanın qızı olduğu ehtimal edilir.

## Elm, mədəniyyət, sənətkarlıq və ticarət mərkəzi

XI-XII əsrlərdə Naxçıvan Azərbaycanın Təbriz, Ərdəbil, Marağa, Gəncə, Şamaxı şəhərləri ilə bir sırada iri sənətkarlıq və ticarət mərkəzi kimi tanınıb. Həmin dövrdə bu şəhər memarları, dülgərləri, bənnaları, bəzzazları, dulusçuları, dəmirçiləri, dabbaqları, başmaqçıları, xalçaçıları, zərgərləri, boyaqçıları ilə məşhur olub. Bir sıra qonşu ölkələrə Naxçıvanda hazırlanan keçə, çuxa, kasa, ağac tabaqlar və başqa məmulatlar aparılıb. Naxçıvanda toxunan xalçalar, yun, ipək və pambıq parçalara da tələbat böyük olub.

Naxçıvanda dulusçuluğun, misgərliyin yüksək səviyyədə inkişaf etdiyini Möminə Xatun türbəsi yaxınlığında, şəhərin orta əsr Narın qalasında aparılan arxeoloji qazıntılar da təsdiq edib. Qazıntılar zamanı dulusçu kürələrinin qalıqları, əsasən həndəsi və nəbati naxışlarla bəzədilmiş şirəli və sadə saxsı qablar, müxtəlif mis qab nümunələri aşkara çıxarılıb. Tədqiqatlar göstərir ki, o dövrdə Naxçıvan şəhərində şüşə istehsalı sənətkarlığı da təşəkkül tapıb.

Sənətkarlığın inkişafı etməsi Naxçıvanın qonşu ölkələrlə ticarət əlaqələrini genişləndirməyə imkan verib. Buradan zinyət əşyaları, parçalar, zərif naxışlı qablar, keramika və metal məmulatları, eləcə də duz, pambıq, taxıl, quru meyvə və başqa məhsullar Azərbaycanın digər bölgələrinə, həmçinin qonşu regionlara göndərilib.

Ticarətin inkişafı Naxçıvanın görkəmini də dəyişməyə başlayıb. Karvansaralar inşa edilib, yeni körpülər, yollar salınıb.

Naxçıvan Mərənd, Xoy, Təbriz, Marağa, Urmiya, Səlmas, Dəbil və başqa şəhərlərə gedən ticarət yolu üzərində yerləşən əsas mərkəz olub, İran, Bizans, Orta Asiya, eləcə də qonşu Cənubi Qafqaz şəhərləri ilə ticarət əlaqələri qurub.

Naxçıvan şəhərində, Şərur ərazisində aşkar edilmiş pul dəfinələri, X-XII əsrlərə aid mis, gümüş, qızıl sikkələr təsdiq edir ki, ticarət əlaqələrinin inkişafı pul dövriyyəsinə də təsir göstərib. Tədqiqatlar həmin sikkələrin Abbasi xəlifələri, Bizans çarları, sacilər, salarilər, səmanilər, səlcuq sultanları, Atabəylər və başqaları tərəfindən zərb etdirildiyini sübut edib.

Azərbaycanın əsas elm və mədəniyyət mərkəzlərindən biri olan Naxçıvanda mədrəsələr, ruhani məhəllə məktəbləri vardı. Eldənizlərin hakimiyyəti dövründə isə Naxçıvan şəhərində iki böyük mədrəsə açılıb, xərcləri Möminə Xatun və Yusif ibn Küseyir türbələrinin vəqfləri, gəlirindən ödənilib. Eldənizlər dövlətinin paytaxtı olduğu dövrdə Naxçıvanda elm və mədəniyyətin inkişafına şərait yaradılıb. Burada çoxlu alim, mütəfəkkir, şair, memar yaşayıb-yaradıb. İncəsənətin bir çox növləri - rəssamlıq, nəqqaşlıq, zərgərlik də yüksək səviyyədə inkişaf edib.

Naxçıvan XII-XIII əsrlərdə Azərbaycanın əsas memarlıq mərkəzlərindən hesab edilib. Şəhərsalma, qalatikmə, körpüsalma, monumental çoxmərtəbəli sarayların, türbələrin, məscidlərin inşası, təsviri və tətbiqi sənətin yüksək səviyyədə inkişaf etdiyini göstərir. Bunu şəhərin orta əsr qala divarları, Yusif ibn Küseyir, Möminə Xatun türbələri, İmamzadə kompleksi, Əlincə qalası, Xaraba Gilan istehkamları və türbələri, Aza məqbərələri, Gülüstan türbəsi, Araz, Gilançay və Əlincəçay üzərindəki körpülər və digər memarlıq abidələri də təsdiq edir.

Eldənizlərin saray kompleksi Naxçıvanın mərkəzi memarlıq ansamblının möhtəşəm tikililərindən biri olub. Şəhərin digər memarlıq abidələri bu sarayın ətrafında salınıb. Böyük dəyərə malik bir çox möhtəşəm abidələrimiz kimi, bu saray da dövrümüzə gəlib çatmayıb. Zamanın qovğalarında, müharibə çəkişmələrində Naxçıvanın çoxlu abidələri yerlə-yeksan edilib. Ancaq bununla belə öz qədimliyində və möhtəşəmliyində tarixin izlərini yaşadıb.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Naxçıvanın mədəni irsi zəngin mənəvi sərvətimizdir

Naxçıvan Azərbaycanda ən qədim insan məskənlərindən biridir. Bəzi mənbələrdə Nuhun gəmisinin bu ərazidə İlandağa dəyib parçalandığı yazılır. Naxçıvanla bağlı əfsanə və rəvayətlər çoxdur.



Bölgənin tarixi çox qədimlərə gedib çıxdığından bunların hansının həqiqət, hansının təxəyyül olduğunu bilmək çətindir. Naxçıvanın qədim mədəniyyətə malik olması isə tarixi həqiqətdir. Azərbaycanın memarlıq incilərinin əksəriyyəti bu bölgənin payına düşüb.

Ümummilli Lider Heydər Əliyev demişdi: "Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır".

Naxçıvan ərazisində antik, orta əsrlərə aid mədəniyyət nümunələri, tarixi abidələr, qədim yaşayış məskənləri, erkən şəhər mədəniyyəti, möhkəm qala divarları, qayaüstü rəsmlər, daşdan yonulma qoç heykəlləri, türbələr çoxdur. Naxçıvan ərazisində əcdadlarımızın qoyub getdikləri tarix və mədəniyyət bu yurdun azərbaycançılıq möhürüdür.

Naxçıvandakı Qazma, Əshabikəhf və Kilit mağaraları, Batabat yaylağında, Naxçıvançay və Əlincəçay vadilərində, Haçadağın cənub ətəyində aşkar olunan tarixi abidələr daş dövrü mədəniyyətinin qalıqlarıdır. IV minilliyin sonu - II minilliklərdə Naxçıvan ərazisində Oğlanqala, Çalxanqala, Govurqala kimi qalaşəhər məntəqələri yaranıb. Daş dövrü abidələrinin isə ən məşhuru Əshabi-Kəhfdir. Bunları misal gətirməkdə məqsəd Naxçıvanın mədəniyyəti barədə söhbətə körpü salmaqdır. Belə bir qədim, tarixi mədəniyyətə sahib bölgədə təbii ki, mədəniyyətin digər qolları da zamanla inkişaf prosesində olub.

## Naxçıvanda teatr

Azərbaycanda teatr qədimdən meydan teatrı və şəbeh tamaşası formasında təşəkkül tapıb. Naxçıvanda da teatr sənəti belə başlayıb. 1882-ci ildə tanınmış ziyalı, iki pərdəli "Tatarka" ("Azərbaycan qızı") pyesini yazmış Eynəli Sultanov Naxçıvanda müəllimlərdən ibarət "Müsəlman şiə dram incəsənəti cəmiyyəti" və "Ziyalı məclisi" təşkil edib. İlk dəfə 1886-cı il avqustun 12-də Hacı Nəcəf Zeynalovun "Zaviyə" məhəlləsindəki evində M.F.Axundovun "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasının oynanılması ilə Naxçıvan teatrının əsası qoyulub. Bu gedişlə XIX əsrin 80-90-cı illərində və XX əsrin əvvəllərində Naxçıvan teatrı Azərbaycan milli teatrının inkişafında əhəmiyyətli rol oynayıb.

1922-ci ildə Naxçıvanda Dövlət Dram Teatrı yaradılıb. Hüseyn Cavidin ("Şeyx Sənan") və Cəfər Cabbarlının ("Aydın") pyeslərinin tamaşaya qoyulması Naxçıvan teatrının yeni mərhələyə qədəm qoyması idi. Onilliklərlə Naxçıvan teatrı Azərbaycan mədəniyyətinə yeni nəsil teatr sənətkarları bəxş edib. Aktyorlar M.Quliyev, Z.Həmzəyeva, S.Hüseynova, Ə.Qardaşbəyov, A.Şahsuvarov, R.Cəfərxanova, H.Ağayev, Y.Haqverdiyev, K.Hüseynov, P.Məmmədova, T.Məmmədova, İ.Bənənyarlı, T.Mövləvi, M.Səfərov, İ.Məmmədov, N.Həmzəyev, rejissorlar B.Qələndərli, V.Babayev, V.Əsədov, Ə.Lalayev, K.Quliyev ilk addımlarını Naxçıvan teatrında atıblar.

Naxçıvanda 2006-cı ildə ilk dəfə Naxçıvan Dövlət Uşaq Teatrı yaradılıb. Ona qədər uşaq tamaşaları da böyüklər üçün teatrın səhnəsində oynanılırdı. Tarixi az olmasına baxmayaraq, bu gün Azərbaycan teatrında Naxçıvan Uşaq Teatrının səhnəsindən pərvazlanan aktyorlar da fəaliyyət göstərir.

2010-cu ildə əsası qoyulmuş Naxçıvan Dövlət Uşaq Filarmoniyasında xalq çalğı alətləri orkestri, kamera orkestri, mahnı və rəqs ansamblı, xor kollektivi fəaliyyətdədir. Bunların hər biri Azərbaycan mədəniyyətinin tərkib hissəsidir.

Naxçıvanda hazırda Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı, Naxçıvan Dövlət Kukla Teatrı, Naxçıvan Dövlət Uşaq Teatrı, Naxçıvan Şəhər, Şərur, Ordubad, Babək və Şahbuz rayon xalq teatrları fəaliyyət göstərir. Bu mədəniyyət ocaqlarında çalışan sənətkarlar Azərbaycan mədəniyyətinin inkişafına xidmət göstərirlər.

## Naxçıvanda musiqi sənəti

Naxçıvanın musiqi sənəti çox da qədim deyil. Burada musiqi mədəniyyətinin formalaşması XVIII-XIX əsrlərə gedib çıxır. XIX əsrin sonu, XX əsrin birinci yarısında bu ərazidə musiqi mühitini formalaşdıran xanəndələr və sazəndələr idi. Məşədi Əsəd, Məşədi Həsən, Məşədi İsmayıl, Sarı Heydər və İdris Nağıyev Naxçıvanın ilk ustad xanəndələridir. Məşədi Həsənin "Heyratı"sı, Məşədi İsmayılın "Qatar"ı və "Şahnaz"ı, İdris Nağıyevin "Şur" muğamını oxumaları haqqında indi də heyranlıqla danışılır. Onların irsi Naxçıvan xanəndələri arasında öyrənilir.

İlk musiqi məktəbinin isə özülünün qoyulması Naxçıvanda dahi Üzeyir Hacıbəylinin adı ilə bağlıdır. 1937-ci ildə onun təşəbbüsü və xeyir-duası ilə Naxçıvan şəhərində musiqi məktəbi yaradılıb. Heydər Əliyevin təşəbbüsü ilə 1975-ci ildə orta ixtisas musiqi məktəbi, yəni indiki Naxçıvan Musiqi Kollecinin yaradılması isə Naxçıvanda musiqi sənətinin inkişafına təkan verdi.

Məhz bu musiqi məktəbində bacarıqlı, istedadlı tarzənlər, xanəndələr, bəstəkarlar yetişib. Nəriman Məmmədov, Ramiz Mirişli, Əkrəm Məmmədli, Yaşar Səfərov, Nazim Quliyev, Nazim Kazımov, Həsənağa Qurbanov, Şəmsəddin Qasımov, Zeynalabdin Babayev, Əbülfət Babayev Naxçıvan musiqi məktəbinin Azərbaycana bəxş etdiyi istedadlı sənətkarlardır. Onların arasında Əkrəm Məmmədlinin adı xüsusi qeyd edilməlidir. Əkrəm Məmmədli milli musiqimizin fədailərindəndir. Onun "Tar üçün etüdlər", "Tar üçün qamma və etüdlər", "Azərbaycan muğamları" kitabları musiqi təhsili müəssisələrində indi də istifadə edilən əvəzsiz vəsaitlərdir.

## Naxçıvan rəssamlığı

Naxçıvan yalnız qədim tarixin, müasir mədəniyyətin deyil, həm də qədim sənətlərin məkanıdır. Məsələn, dulusçuluq Naxçıvan ərazisində e.ə. VII-VI minilliklərdə yaranıb. Dulus kürələrinin ən qədim qalıqları I Kültəpə yaşayış yerində aşkar olunub.

Azərbaycanda realist rəssamlığın əsasını qoyanlardan biri Bəhruz Kəngərli Naxçıvanda yaşayıb. Onun özülünü qoyduğu rəssamlıq sənəti Naxçıvanda bu gün davam və inkişaf etdirilir. Naxçıvan Rəssamlar Birliyinin 52 üzvü var. Onlardan bir nəfər Azərbaycanın Xalq rəssamı, beş nəfər Əməkdar rəssam, beş nəfər Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı, bir rəssam Əməkdar incəsənət xadimidir.

Əlbəttə, Naxçıvanın mədəni irsi bunlarla yekunlaşmır. Bu qədim diyarımızın zəngin mədəniyyəti həm də xalqımızın tarixidir, keçmişidir. Ən əsası odur ki, Naxçıvan bu gün də Azərbaycanın milli mədəniyyətinə özünün layiqli töhfələrini verməkdədir.

***Ramilə QURBANLI,***
***"Azərbaycan"***

# Düşmənə göz dağı - Qala Naxçıvan







*Qurban olum torpağına, daşına,*
*Qaldır məni Əlincənin qaşına,*
*Qoy dolanım, Vətən, sənin başına*
*Deməsinlər, pərvanəsi çatışmır...*

*Culfa rayonunda, Əlincəçayın sağ sahilində və eyniadlı dağın zirvəsində qürurlu və əzəmətli bir qala ucaldılıb. Hələ eramızdan əvvəl əcdadlarımız bu alınmaz qalanı sarsılmazlıq, məğlubedilməzliyin rəmzi kimi inşa edərək düşmənlərə göz dağı veriblər. Bu möhtəşəm qala qədim mənbələrdə "Erincaq", "Erincik", "Alancik", "Alınca", "Alancuq", daha sonra isə Əlincə adlandırılıb.*

*"Kitabi-Dədə Qorqud" dastanlarında möhkəm istehkam kimi təsvir olunan Əlincə qalasının divarları Əlincə dağının ətəklərindən başlayaraq pillələr şəklində yuxarıya doğru ucalır. Məhz qalanın möhkəm divarları və qayanın üstündə olması tarix boyu onu sarsılmaz müdafiə istehkamına çevirmişdir.*

Vaxtilə Əlincə qalasına 600-ə qədər döyüşçünü öz atı və sursatları ilə birlikdə yerləşdirmək mümkün idi. Buna görə idi ki, heç bir yağı düşmən bu qalaya yaxın düşə bilmir, onun əzəməti qarşısında baş əyərək kor-peşman geri dönürdü. Əlincəqalanın əsrlərdir dillərə dastan olan möhtəşəm mübarizəsi isə dünya fatehi, böyük-böyük dövlətləri bir həmlədəcə qarşısında diz çökdürən Əmir Teymura qarşı illərlə göstərdiyi rəşadətli direnişi, qəhrəmanlıq hünəri idi. Qala 14 il Xacə Cövhər və Əmir Altunun rəhbərliyi ilə qəhrəmanlıqla müdafiə olunmuş, Əmir Teymur bu qalanı 14 il ərzində döyüşlə ələ keçirə bilməmişdir. Yalnız 1399-cu ildə Hindistandan qayıdışından sonra qalada artıq heç kim qalmamışdı və bunun nəticəsində 14 il sonra Teymur qalanı heç bir müqavimətsiz tutmuş və bu qalanın əzəmətinə heyran olmuşdur.

Lakin Əmir Teymurun ölümündən sonra Əlincə qalası yenidən Azərbaycan dövlətlərinin hakimiyyəti altında olmuş və yenidən düşmənlərlə layiqli mübarizə aparmışdır.



## Əcəmi Əbubəkr oğlu Naxçıvani

Qədim Naxçıvan torpağı ta qədimdən əzəmətli qalaları, dini məbədləri, memarlıq abidələri ilə hər zaman seçilmiş, zəngin maddi sərvətə sahib olmuşdur. Hazırda da Naxçıvan Muxtar Respublikasında 1162 tarixi-mədəniyyət abidəsi mövcuddur. Bu abidələrin 58-i dünya, 455-i ölkə, 649-u isə yerli əhəmiyyətlidir. Naxçıvanda 663 arxeoloji abidə, 285 memarlıq abidəsi, 31 monumental sənət abidəsi, 36 tarixi abidə, 140 ziyarətgah, 7 təbiət abidəsi mövcuddur.

Naxçıvan memarlığının şah ustadı dedikdə isə, heç şübhəsiz, mühəndislər mühəndisi Əcəmi Əbubəkr oğlu Naxçıvani hörmətlə xatırlanır.

Qüdrətli Atabəylər dövlətinin baş memarı Əcəmi idi, onu "Şeyxül-mühəndis" (baş mühəndis) adlandırırdılar. Əcəmi Atabəylər dövlətinin paytaxtı olan Naxçıvanda yaşayıb-yaratmışdır. Şəmsəddin Eldənizin doğma paytaxt şəhərinin gözəl olmasına çalışırdı. Odur ki, Naxçıvanda gözəl binalar tikilirdi və memar Əcəminin tikdiyi binalar qədim Naxçıvanın mərkəz məhəllələrini bəzəyir, bu memarlıq inciləri paytaxta əzəmət və yaraşıq verirdi. Naxçıvanda Yusif ibn Küseyir və Möminə xatun türbələri, Cümə məscidi, Qoşa minarə Əcəminin ən gözəl memarlıq əsərləri hesab olunur və bu gün də hər bir ziyarətçisinə böyük ustadı yad etdirir. Elə memarın əsrlər əvvəl Möminə Xatun türbəsinin baş tağında kufi xətti ilə həkk etdiyi bu ürək sözləri kimi: "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar"...

## Möminə Xatun türbəsi

Azərbaycan milli memarlığının möhtəşəm abidəsi Möminə Xatun türbəsi 1186-cı ildə Naxçıvan şəhərinin qərb hissəsində tikilmişdir. Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz arvadı Möminə Xatunun qəbri üzərində məqbərə yaradılmasına qərar vermiş, onun tikintisini oğlu Məhəmməd Cahan Pəhləvan 1186-cı ildə başa çatdırmışdır. Elin yaddaşında "Atabəy günbəzi" adı ilə qalmışdır.

Ümumi hündürlüyü 34 metr olan türbə yeraltı (sərdabə) və yerüstü hissələrdən ibarətdir. Sərdabə hissəsi planda 10 bucaqlıdır. Bəzi tədqiqatçılara görə, sərdabədə Atabəylər dövlətinin başçısı Şəmsəddin Eldəniz, onun arvadı Möminə xatun və oğlu Məhəmməd Cahan Pəhləvan dəfn olunmuşdur. Sərdabədə dəfn olunanların məzarlarının başdaşıları vaxtilə oğurlanıb aparılmışdır. Sərdabə orijinal quruluşlu olub, bədii baxımdan zəngin tərtibata malikdir.

## Yusif Küseyir oğlu türbəsi

Naxçıvan şəhərində ən qədim memarlıq abidələrindən biri olan Yusif Küseyir oğlu türbəsi Şeyx Məhəmməd Xiyabani küçəsində yerləşir və xalq arasında Atababa türbəsi və ya Atababa günbəzi də adlanır. Abidə yeraltı sərdabədən və yerüstü qülləvari hissədən ibarətdir. Planda abidənin yerüstü hissəsi daxildən və xaricdən səkkizbucaqlı şəklindədir. Türbənin səkkizbucaqlı prizmatik gövdəsi xaricdən piramidaşəkilli, daxildən isə tavan çatma tağ şəkilli sferik günbəzlə örtülmüşdür. Yüksək mühəndislik bacarığının nəticəsidir ki, Yusif Küseyir oğlu türbəsi Azərbaycanın qülləvari türbələri içərisində üst piramidal örtüyü 800 ildən artıq bir müddətdə salamat qalan yeganə abidədir. Türbənin üzərindəki kitabədə yazılıb ki, "Bu türbə xacə, sanlı rəis, dinin zəkası, islamın camalı, şeyxlər başçısı Yusif Küseyir oğlunundur". Həmin kitabə türbənin hicri 557-ci ilin şəvval ayı (miladi 1162) tikildiyini də bildirir. Əsas fasaddan sol tərəfdəki kitabədə isə "Bənna Əcəmi Əbubəkir oğlu Naxçıvaninin əməlidir" şəklində türbənin memarının adı qeyd olunmuşdur.

## Qarabağlar türbəsi

Orta əsrlərə aid Azərbaycan memarlıq abidəsi olan Qarabağlar türbəsi Kəngərli rayonunun Qarabağlar kəndindədir. Türbə memarlıq kompleksinə daxildir. Memarlıq kompleksinə daxil olan türbədən başqa burada qoşa minarə və onların arasında yerləşən dini bina qalıqları var. Qoşa minarənin XII əsrin sonu - XIII əsrin əvvəllərində tikildiyi ehtimal olunur. Minarələri bir-birinə bağlayan baştağ isə XIV əsrə aiddir. Baştağın üzərində Elxani hökmdarı Hülaku xanın arvadı Quti xatunun adı yazıldığından, onun Quti xatunun şərəfinə tikildiyi güman edilir.

Qarabağlar türbəsinin kompozisiya xüsusiyyəti 4 baştağlı olmasıdır. Bu baştağlar şimal, cənub, qərb və şərq istiqamətlərində yerləşərək türbəyə 4 fasadlı görkəm verir. Baştağların səthi kaşı ilə örtülmüş, həndəsi və nəbati naxışlarla bəzədilmişdir. Bunlardan ən maraqlısı şimal tərəfdəki əsas baştağdır. Qarabağlar türbəsinin konus şəklində olmuş yuxarı günbəzi və müvafiq kitabələri dağıldığından türbənin tarixini dəqiq təyin etmək mümkün deyildir. Lakin bütün tədqiqatlar türbənin XIV əsrin əvvəllərində tikildiyini və memarının da Əhməd Əyyub oğlu Hafiz Naxçıvani olduğunu ehtimal etməyə əsas verir.

## Əlincəçay xanəgahı

Culfa rayonunun Xanəgah kəndində, Əlincəçayın sahilində yerləşən Əlincəçay xanəgahı orta əsrlərə aid memarlıq kompleksidir. El arasında Şeyx Xorasan adlanan kompleksdən zəmanəmizədək türbə, məscid və bəzi tikililərin qalıqları gəlib çatmışdır. Kompleksə daxil olan türbənin cənubdan giriş qapısının baş tərəfində qoyulan kitabənin məzmunundan aydın olur ki, türbə əmir, isfəhsalar, böyük alim Uluq Qutluq Lala bəyin əmri ilə memar Xacə Cəmaləddin tərəfindən inşa edilmişdir. Kitabənin son hissəsi ovulub töküldüyü üçün onun inşa tarixini dəqiq təyin etmək mümkün olmamışdır. Ancaq memarlıq-konstruktiv quruluşuna görə onu XII-XIII əsrlərə aid etmək olar. Türbənin içərisində bir qəbir vardır. Ancaq qəbrin üstündə kitabə olmadığı üçün orada kimin dəfn edildiyi məlum deyildir. Yerli əhalinin fikrincə, hürufilik təliminin banisi Fəzlullah Nəimi 1394-cü ildə Əlincədə faciəli surətdə qətlə yetirildikdən sonra müridləri onun cənazəsini gətirib burada dəfn etmişlər. Məhz buna görə də Xanəgah kompleksinə yerli əhali arasında verilən ad ((Şeyx Xorasan) Günəşə oxşar, Nurani şeyx) kimi izah edilir.

## Əshabi-kəhf

Naxçıvan şəhərindən təqribən 12 km aralı, İlandağ ilə Nəhəcir dağı arasındakı təbii mağarada ziyarətgah olan Əshabi-kəhf ərəb dilində "mağara sahibləri" deməkdir. Qurani-Kərimdə "əl-Kəhf" surəsinin 9-27 ayələrində Allahdan başqasına inananlardan ayrılıb mağaraya sığınan 7 gəncin (Təmlixa, Bərnuş, Sərnuş, Məksilma, Məslina, Sazənuş, Kəftəntuş (çoban) və onlara sadiq olan itləri Qıtmir) 300 ildən artıq yatdıqlarından, oyandıqdan sonra başlarına gələnlərdən bəhs edilir. Qurani-Kərimdə mövcud olan hadisə müəyyən dəyişikliklərlə Naxçıvandakı Əshabi-Kəhflə bağlı rəvayətlərdə də öz əksini tapmışdır. Mağaranın sonunda olan məscidin mehrabında kitabə vardır. İrihəcmli mərmər lövhədən ibarət olan kitabənin mərkəzi hissəsində, çərçivələr içərisində Qurani-Kərimin Əshabi-Kəhf hadisəsindən bəhs edən "əl-Kəhf" surəsindən 9-12, 17-18-ci ayələri həkk edilmişdir.

## Köhnəqala

Köhnəqala Naxçıvan şəhərinin cənub-şərqində arxeoloji abidədir. Elmi ədəbiyyatda Yəzdəgird qalası, xalq arasında Köhnəqala, Torpaqqala adları ilə tanınan qalanın tikilmə tarixi dəqiq məlum deyil. Lakin tədqiqatlara əsasən qalanın III Sasani hökmdarı Yəzdəgird (632-51/52) tərəfindən inşa olunduğu ehtimal olunur. Türk səyyahı Ö.Çələbinin verdiyi məlumata görə, monqollar qalanı dağıtmışlar. Qala XVIII əsrədək fəaliyyətdə olmuşdur. 1827-ci il planında bu qala sxematik qeyd olunmuşdur. Plana əsasən qala iki hissədən - kiçik qala (Narınqala) və böyük qaladan ibarətdir. Narınqalanın cənub-qərbində 300 nəfərin gizlənə biləcəyi yeraltı sığınacaq-mağara var. Onun havalandırılması və işıqlandırılması üçün yuxarıdan oyuq açılmışdır. Mağaradan qalanın şərqinə tərəf gedən gizli yol, çox güman ki, Naxçıvançaya çıxır. Narınqalanın altından keçən kəhrizin iki quyusu qalanın içərisində yerləşir. Quyulardan biri mağaranın içərisindədir. Qalanın özünəməxsus səciyyəvi xüsusiyyətlərindən biri də qalanın Böyükqala və əsas Narınqala hissələri arasında eni 22,5 m olan dar dəhliz formasında həll edilmiş çıxış yolunun - "tələ"nin təşkilindən ibarətdir. Öz qeyri-adiliyi ilə qalanın xeyli dağıdılmasına baxmayaraq, salamat qalmış qala divarlarının və bürclərinin hissələri diqqəti cəlb edir.

Qədim insan məskəni "Nuhçıxan", "Nəqşicahan", Naxçıvan başdan-başa əzəmətli qalalar, füsunkar memarlıq abidələri, müqəddəs türbələr, dini ocaqlarla zəngindir. Və elə Naxçıvan özü bütövlükdə yenilməz və qürurlu qala olaraq düşmənə daim gözdağıdır.

*Necə ki, illərdir daşına-torpağına tamah salan mənfur ermənilərin xain həmlələrinə qarşı mətanətlə duruş gətirir, tarix boyu olduğu kimi, indi də yadelli işğalçıların burunlarını ovaraq yerlərinə otuzdurur...*

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***







# Xalqına, Vətəninə xidmətin mükafatı - *unudulmazlıq...*

XX əsr Azərbaycan ədəbiyyatı, mətbuatı, teatrı və ictimai fikir tarixində böyük xidmətləri olanlardan biridir Eynəli bəy Sultanov. O, zəngin və çoxşaxəli yaradıcılıq yolu keçib. Yazıçı, publisist, maarifçi-pedaqoq, dramaturq, teatr tənqidçisi, tərcüməçi, ictimai xadim kimi tanınıb.



Eynəli bəy Sultanov 1866-cı il mayın 5-də Naxçıvan şəhərində dünyaya gəlib. İbtidai təhsilini Naxçıvan qəza məktəbində alıb. Sonra İrəvan gimnaziyasında oxuyub. Orada müəllimlərindən biri də Qori Seminariyasının məzunu, ədəbiyyatşünas Firidun bəy Köçərli olub.

Eynəli bəy gimnaziyada rus, latın, yunan dillərini, riyaziyyat, fizika, tarix, coğrafiya, ilahiyyat və digər fənləri dərindən öyrənib. Gimnaziyanı bitirdikdən sonra bir müddət Naxçıvanda yaşayıb-yaradıb.

## Eynəli bəy Sultanov və məsləkdaşlarının xeyirxah əməlləri...

Öz dövrünə görə mükəmməl savada yiyələnən, dünyagörüşlü, açıqfikirli ziyalı kimi yetişən E.Sultanov gənc yaşlarından millətpərvərliyi, fəallığı, fədakarlığı ilə çoxlarına nümunə olub. Biliyi, bacarığı, təşkilatçılıq qabiliyyəti ilə seçilən Eynəli bəy 1882-ci ildə öz evində "Ziyalılar cəmiyyəti" təşkil edib. Paşa ağa Sultanov, Mirzə Cəlil Mirzəyev (Şürbi), Mirzə Ələkbər Xəlilov, Əsəd ağa Kəngərli, Qurbanəli Şərifov, Baxşəli ağa Şahtaxtlı, Nəsrulla Şeyxov və digər qabaqcıl, tərəqqipərvər şəxsləri bu cəmiyyətə cəlb edib. Onlar xalqın tərəqqisi yolunda birgə çalışıb, nümunə göstəriblər. Dövrün ictimai, siyasi, sosial, mədəni və digər vacib məsələləri cəmiyyətin toplantılarında müzakirə edilib, yeni məktəblərin, kitabxanaların açılmasına qərar verilib, elmi-ədəbi mübahisələr keçirilib. Aleksandr Puşkin, Lev Tolstoy, Belinski, Dobrolyubov kimi görkəmli rus yazıçı və şairlərinin əsərləri oxunub, tərcümə edilib, fikirləri üzərində elmi mübahisələr aparılıb.

1883-cü ildə Naxçıvanda ilk dəfə Eynəli bəy Sultanov, Məhəmməd ağa Şahtaxtlı, Qurbanəli Şərifov, Məhəmməd Tağı Sidqi, Cəlil Məmmədquluzadə, Mirzə Əlməmməd Xəlilov, Mirzə Ələkbər Bəyalı oğlu Süleymanov, Mirzə Məmməd Zamanbəyov və başqalarının təşəbbüsü, əməyi sayəsində "Müsəlman incəsənəti və dram cəmiyyəti" adlı ədəbi cəmiyyət təşkil olunub. Cəmiyyətin fəaliyyət göstərməsi üçün şəhərin yeni fikirli, tərəqqipərvər adamları yardım göstəriblər. Amma hökumət məmurları, ruhanilər onların xeyirxah əməllərini hiddətlə qarşılayıblar. Ancaq maneələr, təzyiqlər bu cəfakeş, vətənsevər ziyalıları yollarından döndərə bilməyib.

## Fədakar insan...

Eynəli bəy Sultanovun teatr sənətimizin inkişafında əməyi çox olub. Buna görə də adı Azərbaycan teatr tarixində əbədiləşib. Naxçıvan teatrının yaranmasında və təşəkkülündə böyük xidmətlər göstərən Eynəli bəy həmməsləklərini öz ətrafında toplaya, gənclərin qəlbində incəsənətə məhəbbət oyada bilib.

Xalqının vətənpərvərlik hisslərinin yüksəlməsi, işıqlı gələcəyə doğru inamla addımlaması üçün yorulmaq bilmədən çalışıb, bir çox sahədə öncüllərdən olub. Hələ 1883-cü ildə Cəlil Məmmədquluzadə bir neçə həmyaşıdı ilə Qori seminariyasında oxuyanda Eynəli bəy Sultanov təhsilini başa vurub doğma şəhərinə dönərək millət naminə geniş fəaliyyətə başlamışdı. Ancaq keçmişin ətalətə, sükunətə sürükləyən adət-ənənələrinin hökm sürdüyü bir cəmiyyətdə daha çox qabaqcıl fikirli, təşəbbüskar, maarifpərvər, millətsevər və fədakar gənclərə ehtiyac vardı. Cəlil Məmmədquluzadə yazırdı: "Mən darülmüəllimini qurtaran zaman Naxçıvanda özümdən artıq huşyar dostlarıma rast gəldim. Mənim səsimə səs verən sindaşlarımdan qabaqca əzizim Eynəli Sultan oldu".

O dövrdə Naxçıvanda fəaliyyət göstərən "Naxçıvan müsəlman incəsənəti və dram cəmiyyəti"nin nümayəndələri Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və Dərviş Məstəli şah" əsərini tamaşaya hazırlayıblar. Onlar İrəvana, xalq məktəbləri inspektoru Tselovalnikova göndərdikləri teleqramda yazıblar: "Naxçıvan müsəlman (şiə) dram sənəti həvəskarları tərəfindən may ayında acların xeyrinə, 1848-ci ildə nəşr edilmiş "Çadust" kitabından teatr tamaşası göstərməyə icazə vermək haqqında səadətli qubernator yanında vəsatət etməniz rica olunur".

Razılıq alındıqdan sonra, 1883-cü ilin mayında tamaşa Hacı Nəcəf Zeynalovun evində göstərilib.

## Publisist, tərcüməçi, yazıçı...

Eynəli bəy Sultanov Naxçıvanda həm də mədəni-maarif tədbirlərinin təşkilatçısı, mütərəqqi ziyalılar dəstəsinin ilk müəllimi və tərbiyəçisi kimi tanınıb. O, cəmiyyəti girdaba sürükləyən ətalət mürgüsündən, xurafat məngənəsindən xilas etmək üçün məslək dostları ilə birlikdə ilk mədəni tədbirlər təşkil edib.

Naxçıvanda kitabxana açdırmaq məsələsində də Eynəli bəy Sultanovun böyük əməyi olub. Bu şəhərdə maarifçi mühitin formalaşması Eynəli bəyin adı ilə bağlıdır.

Rus dilində çıxan "Novoye obozreniye" qəzetində Eynəli bəy Sultanovun müntəzəm məqalələri dərc edilib. Həmin yazıları onu istedadlı qələm adamı kimi tanıdıb.

1905-1908-ci illərdə o, "Kaspi" qəzetinin İrəvan və Naxçıvan üzrə xüsusi müxbiri olub. Qəzetin səhifələrində olduqca maraqlı, dövrünün ictimai-siyasi hadisələrini əks etdirən məqalələri, hekayələri və şeirləri işıq üzü görüb. Eynəli bəy onu narahat edən, düşündürən problemlərdən, mövzulardan qəzetlərə ardıcıl məqalələr yazıb göndərib.

Gənc yaşlarında öyrəndiyi xarici dillər Eynəli bəy Sultanovu tərcüməçilik sahəsində fəaliyyətə sövq edib.

Eynəli bəy bir müddət İrəvan dairə məhkəməsində tərcüməçi də işləyib. Hüquq idarələrində təcrübə qazanan ədib insan hüquqlarının keşiyində dayanıb. 1906-cı ildən etibarən o, İrəvan dairə məhkəməsinin prokurorunun Naxçıvan mahalı üzrə köməkçisi vəzifəsində çalışıb.

Eynəli bəy Sultanov bəy nəslindən idi. Onların kəndləri, geniş torpaq sahələri, tarlaları, kəhrizləri vardı. Ata-babalarının xeyirxah əməllərini davam etdirən Eynəli bəy xeyriyyəçiliklə məşğul olub. Öz biliyini, savadını doğma xalqından əsirgəmədiyi kimi malını, mülkünü də insanlara xərcləyib. O, 1907-ci ildə Naxçıvan ətrafındakı Göynük, Sürməlik və Sirab kəndlərindəki şəxsi torpaq sahələrini kəndlilərə paylayıb.

Naxçıvan və İrəvandan sonra Eynəli bəy Sultanov Tiflisdə yaşayıb yaradıb. Həmin şəhərdə nəşr olunan bütün mətbuat orqanlarında, xüsusilə də "Molla Nəsrəddin" jurnalının səhifələrində onun maraqlı, düşündürücü yazılarına yer verilib.

O, uzun müddət Tiflisdə teatr mühitinin inkişafı uğrunda çalışıb. Bədii yaradıcılıqla da məşğul olub. Əsasən dram və nəsr əsərləri yazıb. Eynəli bəyin qadın azadlığı məsələsinə həsr edilən "Tatarka" ("Azərbaycan qızı") pyesi ilk dəfə Naxçıvanda tamaşaya qoyulub, 1904-cü ildə isə İrəvanda kitab halında çap edilib.

Tiflisdə yaşadığı illərdə səhnəciklər yazıb, Mirzə Fətəli Axundzadənin "Molla İbrahim Xəlil kimyagər" və "Hacı Qara" komediyalarını rus dilinə tərcümə edib. Tiflis teatrında göstərilən müxtəlif tamaşalar barəsində resenziyalar, ayrı-ayrı aktyorların oyunları haqqında məqalələr qələmə alıb.

Eynəli bəy Sultanov bir pedaqoq kimi də fəaliyyət göstərib. Gənc nəslin yetişməsində bilik və bacarığını əsirgəməyib. O, 1912-1916-cı illərdə Tiflisdə fəaliyyət göstərən qadın gimnaziyasında rus dili dərslərini tədris edib. Sonralar ana dili müəllimi və sinif nəzarətçisi vəzifəsində çalışıb. Əlifba islahatı uğrunda da ardıcıl mübarizə aparıb. 1924-cü ildə yeni əlifba komitəsinin Tiflis şöbəsinin katibi olub.

Dünyanın həqiqəti budur: ömür əbədi deyil. Gələnlər bir gün gedirlər. Qalan, insanın gördüyü işlər, unudulmayan əməlləridir. 1935-ci ilin iyununda Tiflisdə vəfat edən Eynəli bəy Sultanova da unudulmazlıq qazandıran gördüyü böyük işlər, xalqına, vətəninə göstərdiyi xidmətlərdir.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

# REGİONLAR





# İlham Əliyevin quruculuq missiyası davam edir

## Qəbələyə dəmir yolu çəkildi, Bum çayı üzərində körpü salındı

Prezident İlham Əliyev ötən illər ərzində dəfələrlə bəyan etmişdir ki, onun tarixi missiyası Azərbaycanın inkişaf etmiş ölkələr sırasına daxil olması və torpaqlarımızın işğalına son qoyulmasıdır. Dövlət başçısı bu məqsədlərə çatmaq üçün böyük işlər görmüşdür. Həm də bunun nəticəsidir ki, hazırda Azərbaycan sosial-iqtisadi inkişafına görə mötəbər beynəlxalq təşkilatların reytinq cədvəllərində öncül yer tutur.

Əgər indiyədək ölkəmizin daha sürətli inkişafına mane olan başlıca səbəb torpaqlarımızın 20 faizinin erməni işğalı altında qalması idisə, keçən il sentyabrın 27-də başlanan 44 günlük Vətən müharibəsindəki tarixi qələbəmiz buna da son qoydu. Bu isə o deməkdir ki, Prezident İlham Əliyev özünün tarixi missiyalarını şərəflə yerinə yetirib.

Amma bu gün də dövlət başçısı ölkənin hərtərəfli inkişafı üçün yeni layihələrin icrası ilə məşğuldur. Prezidentin Naxçıvan Muxtar Respublikasına, Qarabağ bölgəsinə və Qəbələ rayonuna son səfərləri də bununla bağlı idi.

Məlumdur ki, Prezident bölgələrə səfərləri zamanı ənənəvi olaraq yeni sosial-iqtisadi obyektlərin təməlqoyma mərasimlərində və açılışlarında iştirak edir. Bununla yanaşı, əhalinin arzu və istəklərinə uyğun olaraq yeni sosial-iqtisadi və infrastruktur layihələrinin icrası barədə operativ qərarlar qəbul edir. Dövlət başçısı bu il mayın 15-də Qəbələ rayonuna səfəri zamanı da bu ənənəsinə sadiq qaldı.

Qeyd edək ki, Prezidentin xüsusi qayğıkeşliyi sayəsində son dövrlər Qəbələ rayonunda nəhəng sosial-iqtisadi və infrastruktur layihələri həyata keçirilib. Rayonda beynəlxalq əhəmiyyətli turizm obyektləri, müxtəlif təyinatlı müasir müəssisələr tikilərək istifadəyə verilib, infrastruktur yenilənib. Belə layihələrdən biri də dövlət başçısının sözügedən səfəri çərçivəsində açılışını etdiyi Qəbələ Dəmir Yolu Vağzalı və Ləki-Qəbələ birxətli dəmir yoludur.

Ləki stansiyası-Qəbələ birxətli dəmir yolunun tikintisinə 2018-ci ildə başlanıb və dəmir yolu xətti ox üzrə 42,3, yan yollarla birlikdə 44,5 kilometrdir. Qəbələ Bakıdan sonra ölkəmizin ən inkişaf etmiş turizm infrastrukturuna malik olduğundan bu yol gələcəkdə yerli və xarici turistlərin rahatlığı üçün mühüm rol oynayacaq.

Prezidentin səfəri çərçivəsində 20 min əhalinin yaşadığı 11 yaşayış məntəqəsini rayon mərkəzi və digər yaşayış məntəqələri ilə birləşdirən Bum-Tikanlı-Abrıx avtomobil yolunun 2-ci kilometrliyində Bum çayı üzərindəki yeni körpü və Bum qəsəbəsinə gedən 2 kilometrlik avtomobil yolu da bərpadan sonra istifadəyə verildi.

Xatırladaq ki, Bum dağ çayı olduğundan ilin yaz-payız aylarında baş verən daşqınlar nəticəsində bu ərazidə yaşayan əhalinin rayon mərkəzi ilə əlaqəsi kəsilirdi. Bu baxımdan körpünün istifadəyə verilməsi həmin kəndlərdə yaşayan insanların gediş-gəlişini həm asanlaşdıracaq, həm də təhlükəsiz edəcək. Eyni zamanda həmin ərazidə kənd turizminin inkişafı sürətlənəcək. Axı buradakı dağ kəndləri səfalı təbiəti ilə seçilir. Həmin kəndlərin təmiz havası və saf sulu çoxlu bulaqları var.

Qəbələ rayonu həm də ölkəmizin milli tərkibinə görə zəngin rayonlarındandır. Burada azərbaycanlılarla yanaşı, ləzgilər, udilər və digər xalqların nümayəndələri bir ailənin üzvləri kimi yaşayırlar. Təsadüfi deyil ki, 44 günlük Vətən müharibəsində rayonda yaşayan bütün xalqların nümayəndələri torpaqlarımızın işğaldan azad edilməsində iştirak etdilər, vətənləri Azərbaycanın bütövlüyü uğrunda döyüşərək şəhid və qazi oldular.

Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, ölkəmizin çoxmillətli olması milli sərvətimizdir. Din və milli mənsubiyyətindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı vətən üçün qiymətlidir. Dövlət başçısı bu səfəri zamanı udilərin yaşadığı Nic qəsəbəsindəki Müqəddəs Məryəm Ana Alban, Müqəddəs Yenisey adına Cotari kilsələrində və 1 saylı Nic qəsəbə orta məktəbində oldu. Müqəddəs Məryəm Ana Alban kilsəsində udi ictimaiyyətinin nümayəndələri ilə görüşündə Prezident dedi: “Bu günlərdə Şuşada “Xarıbülbül” festivalında udi xalqının nümayəndələri çıxış etmişlər və orada sizdən olan nümayəndə də var idi. Bu da bir daha onu göstərir ki, Azərbaycanda bütün xalqlar bir ailə kimi yaşayır. Uzun fasilədən sonra Şuşada təşkil olunan “Xarıbülbül” festivalının ilk günündə Azərbaycanda yaşayan xalqların nümayəndələri səhnəyə çıxmış və öz mədəniyyətlərini nümayiş etdirmişlər. Eyni zamanda biz hamımız birliyimizi nümayiş etdiririk və bu kilsənin bərpa edilməsi də bizim birliyimizi təcəssüm etdirir”.

Ermənilər təkcə torpaqlarımıza deyil, tariximizə də sahib çıxmaq istəyirdi. Bunun üçün ən çox istifadə etdikləri yalan isə Qarabağ və ətraf rayonlardakı qədim alban kilsə və məbədlərinin guya onlara məxsus olduqlarını dünyaya car çəkmələridir. Ermənilər işğaldan əvvəl heç vaxt yada salmadıqları və ziyarət etmədikləri alban kilsə və məbədlərinin onlara məxsus olduqlarını bildirməklə İrandan Qarabağa çar Rusiyası tərəfindən köçürülmələri faktını gizlətmək istəyirlər.

Udi icmasının nümayəndələri isə Azərbaycanın dövlət başçısına tarixi-dini miraslarının onlara qaytarıldığı üçün minnətdarlıqlarını bildirirlər. İndi onlar Xudavəng və Ağoğlan məbədində öz ibadətlərini azad şəkildə həyata keçirirlər. Əvvəllər isə ermənilər buna imkan vermirdilər. Ona görə ki, udilər bu kilsələrdə öz dini ayinlərini icra etsəydilər, ermənilərin böyük yalanları üzə çıxardı.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

## Xaçmaz şəhərində Zəfər parkı salınır

Xaçmaz şəhərində Vətən müharibəsində qazanılan tarixi Zəfərə həsr olunan, eləcə də sakinlərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə Zəfər parkı inşa edilir.

AZƏRTAC xəbər verir ki, şəhərin Heydər Əliyev prospektində inşa edilən Zəfər parkı 4 hektar ərazini əhatə edir. İstirahət mərkəzi müasir layihə əsasında tikilir. Parkda şanlı qələbəmizi özündə əks etdirən Zəfər muzeyi və internet kitabxana fəaliyyət göstərəcək. Bundan başqa, ərazidə süni göl, fontan qurulacaq, müxtəlif ictimai iaşə obyektləri sakinlərin istifadəsinə veriləcək.

Parkda müxtəlif idman qurğuları, velosiped zolağı, uşaqların əyləncəsi üçün attraksionlar, eləcə də açıq havada müxtəlif tədbirlərin təşkili məqsədilə səhnə də yaradılacaq.

Hazırda Zəfər parkında son tamamlanma işləri gedir. İşıq dirəkləri basdırılır, yerə tamet döşənir, ətraf ərazilər yaşıllaşdırılır. Parkın ərazisindəki yaşıllıq zolaqları ümumilikdə 15 min kvadratmetri əhatə edəcək.

## Tovuzda tütünçülüyün inkişafı diqqətdə saxlanılır

İqtisadi cəhətdən gəlirli sahə olan tütünçülüyün inkişafına Tovuz rayonunda diqqətlə yanaşılır. Xüsusilə son illər tütünçülüyün inkişafına yaradılmış şərait sahibkarların bu sahəyə marağını xeyli artırmışdır. Məhz bunun nəticəsidir ki, təkcə keçən il rayonda 50 hektar sahədən 77,2 ton məhsul götürülmüşdür.

Cari mövsümdə də tütünçülər əkin sahələrini bir qədər genişləndirərək 130 hektara çatdırmağı qarşılarına məqsəd qoymuşlar ki, bu da ötən ildəkindən 80 hektar çoxdur. Hazırda istixana şəraitində yetişdirilmiş tütün şitilləri sahələrə köçürülür. Mayın 15-dək müasir texnikalardan istifadə etməklə 24 hektar sahəyə “Virciniya” sortlu tütün şitilləri əkilmişdir. İlkin olaraq mövsümi işlərə 60 nəfərdən artıq işçi cəlb olunmuşdur.

Qeyd edək ki, keçən il rayonda tütünqurutma məntəqəsi yaradılmışdır. Hazırda məntəqədə yeni mövsümə hazırlıq işləri görülür, o cümlədən quraşdırılmış 20 qurutma aqreqatının vəziyyəti nəzarətdə saxlanılır.

## Bu il Masallıda 260 hektar sahədə çəltik əkiləcək

Bu il Masallı rayonunda 260 hektar sahədə çəltik əkiləcək. Artıq çəltik sahələrinin 100 hektarı əkinə hazırlanıb.

Bu barədə AZƏRTAC-a Masallı Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən məlumat verilib. Bildirilib ki, bu il rayonun çəltik sahələrində əsasən “Apollo”, “Haşimi”, “Okean”, “Sədri” və “Şirudi” çəltik növləri əkiləcək.

Qeyd edək ki, ötən il Masallıda 253,9 hektar çəltik sahəsindən 868 ton məhsul yığılıb. Çəltiyin hər hektarından götürülən məhsuldarlıq 34,2 sentner təşkil edib.






# Ağstafada da şəhidlərə və qazilərə böyük ehtiram var

2020-ci ilin 27 sentyabrı Azərbaycan xalqının yaddaşında uzun illər qələbənin başlanğıc günü kimi xatırlanacaq. 30 illik həsrətə son qoyan 44 günlük müharibə öz əks-sədası ilə bütün dünyaya səs saldı. Azərbaycan Silahlı Qüvvələri düşmənə ağır və sarsıdıcı zərbələr vuraraq Qarabağı yağı tapdağından xilas etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin “Qarabağ Azərbaycandır!” şüarını başları üstündə bayraq edən mərd əsgər və zabitlərimiz Vətənin müdafiəsinə qalxaraq Azərbaycanın haqlı olduğunu dünyaya sübut etdilər.

Təəssüf ki, bütün savaşlarda olduğu kimi, Vətən müharibəsi də itkisiz olmadı. Onlarca döyüşçümüz savaşlarda qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucaldı. Onların arasında ağstafalılar da var. Bu gün həmyerliləri onlarla fəxr edir, xatirələrinə ehtiram göstərirlər. Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov deyir ki, onlar bizim qan yaddaşımızdır. Bu gün ölkəmizin düşmən üzərində əldə etdiyi qələbəyə görə Azərbaycan xalqı onlara borcludur. Odur ki, rayonda olan şəhid ailələri və qazilər daim diqqət mərkəzində saxlanılır: “Həmin vaxtlar bütün Ağstafa cəbhədən gələn xəbərlə nəfəs alırdı. Şəhidlərimiz isə böyük izdihamla dəfn olunurdu. Dəfn zamanı şəhid valideynlərinin “Vətən sağ olsun!” hayqırması insanların qəlbində qürur hissi yaradırdı. Yeganə oğlunu torpağa tapşıran ata başını dik tutaraq oğlu ilə fəxr etdiyini söyləyir, gənc övladını dəfn edən, heç br təsəlli ilə ovunmayan analar isə “Vətənə onlarca belə oğul fəda edərəm” deyib övladlarının nəşi üstündə sərilən bayrağımızdan öpürdülər. Bu gün biz belə valideynlərlə fəxr etməklə yanaşı, onların qayğıları ilə yaşayırıq. Hər birinin ailəsinə diqqətlə yanaşaraq qaldırdıqları məsələləri yerindəcə həll etməyi borcumuz hesab edirik”.

44 günlük Vətən müharibəsinin ilk günlərindən könüllü döyüşə atılan ehtiyatda olan zabit Orucov Ariz Raqif oğlu Kəlbəcər və Şuşanın azad olunması uğrunda gedən döyüş əməliyyatlarında iştirak edib. İndi o, rayon icra hakimiyyəti aparatında Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiridir. Hazırda şöbə tərəfindən bir sıra tədbirlər, o cümlədən şəhidlərin adlarının əbədiləşdirilməsi istiqamətində işlər görülür. Elə bu günlər Qarahəsənli kəndindən olan şəhid Orxan Babayevin xatirəsinə bulaq kompleksi istifadəyə verilmişdir. Həmin münasibətlə keçirilən mərasimdə rayon rəhbərliyi ilə yanaşı, hüquq mühafizə orqanlarının nümayəndələri, eləcə də şəhidin valideynləri iştirak edirdilər. Açılışda diqqətə çatdırılmışdır ki, Orxan Babayev müharibənin ilk günündən sonuna qədər igidliklə döyüşmüş, Füzulidən Xocavəndəcən döyüş yolu keçmişdir. Şuşa azad edildikdən bir gün sonra - noyabrın 9-da Xocavənddə şəhid olan O.Babayev “Vətən uğrunda” , “Xocavəndin azad olunmasına görə” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif edilmişdir.

Digər “Şəhidlər bulağı” abidə kompleksi isə rayonun Saloğlu qəsəbəsindən olan Birinci Qarabağ müharibəsinin şəhidləri Əhməd Namazovun, Faiq Məmmədovun, Elşən Xəlilovun və İkinci Qarabağ müharibəsinin şəhidləri Rüfət Məmmədovun və Elxan Süleymanovun xatirələrinə ucaldılmışdır. Açılışda şəhidlərin xatirə lövhələrinin önünə tər qərənfillər düzülmüş, onların ruhuna dualar oxunmuşdur. Rayonun Vurğun qəsəbəsindən olan Vətən müharibəsi şəhidləri Fazil Məmmədli və Vasif Nəzərlinin xatirələrini əbədiləşdirmək üçün inşa edilmiş “Şəhidlər bulağı” da əhali tərəfindən razılıqla qarşılanmışdır. Bundan əlavə, Vətən müharibəsində igidliklə vuruşaraq şəhid olmuş Qırılı kənd sakini Əliheydər Hüseynlinin doğum günü təntənə ilə qeyd edilmişdir. Ərazi bütövlüyümüzün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında könüllü iştirak edən Əliheydər uzun döyüş yolu keçərək Füzuli, Cəbrayıl, Qubadlı və Xocavənd rayonlarının azad olunmasında əsl şücaət göstərib. Noyabrın 9-da döyüş tapşırığını yerinə yetirən zaman düşmən gülləsinə tuş gələrək şəhidlik zirvəsinə ucalan Əliheydər Azərbacan Texnologiya Universitetinin məzunu idi.

Rayonda şəhid ailələri və qazilərin problemləri də operativ həll olunur. Tovuz döyüşlərində şəhid olmuş Yaşar Babayevin valideynləri rayon rəhbərliyinə evlərinə gedən yolun bərbad vəziyyətdə olması barədə müraciət etmişdi. İndi şəhidin evinə gedən yol tamamilə abadlaşdırılmışdır.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

## İyunun 5-də Cəlilabadda taxıl biçininə start veriləcək

Cəlilabad Azərbaycanın ən böyük taxılçılıq rayonlarından biridir. Məhsul istehsalçılarına dövlət dəstəyinin genişləndirilməsi sayəsində rayonda taxılçılıq ildən-ilə inkişaf edir.

Ötən il rayonun taxıl sahələrində 54 min 908 hektarda buğda, 4 min 504 hektarda arpa, 3 min 824 hektarda vələmir əkilib. Taxıl sahələrindən 154 min 773 ton məhsul tədarük olunub. Hər hektardan götürülən məhsuldarlıq 28 sentner təşkil edib. Bu barədə AZƏRTAC-a Cəlilabad Rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Rahib Kərimov məlumat verib.

Cari ildə rayonda əkin sahələrinin genişləndirilərək 66 min 570 hektarda payızlıq taxılın əkildiyini söyləyən mərkəzin direktoru bunun 56 min 500 hektarının buğda, 5 min 200 hektarının arpa, 4 min 870 hektarının isə vələmir sahələri olduğunu bildirib.

Rayonun taxıl sahələrində aqrotexniki qulluq işlərinin başa çatdığını qeyd edən R.Kərimov iyunun 5-də Cəlilabadda biçin kampaniyasına start veriləcəyini diqqətə çatdırıb.

## Miniatür Kitab Muzeyinin Gəncə filialında 1111 miniatur kitab nümayiş olunur



Hər il mayın 18-i dünya ölkələrində Beynəlxalq Muzeylər Günü kimi qeyd edilir. Beynəlxalq Muzeylər Şurasının təşəbbüsü ilə 1977-ci ildə təsis olunan bu günün məqsədi muzeylərin cəmiyyətin həyatında nə dərəcədə mühüm rol oynadığını göstərməkdir.

Bu bayram qədim tarixə və zəngin mədəniyyətə malik Azərbaycanda, o cümlədən muzeylərimizdə də geniş qeyd edilir. Belə muzeylərimizdən biri də Miniatür Kitab Muzeyinin Gəncə filialıdır. AZƏRTAC xəbər verir ki, bu filial 2016-cı ildən açılıb. Muzey Bakıda, 2003-cü ildən İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisində yerləşən Miniatür Kitab Muzeyinin nəzdində fəaliyyət göstərir.

Miniatür Kitab Muzeyinin Gəncə filialında dünyanın 29 ölkəsində çap edilmiş 1111 miniatur kitab nümayiş olunur. Filialın əməkdaşı Ellada Rəhimova bildirib ki, burada Azərbaycanın və digər ölkələrin görkəmli siyasətçilərinə, ədəbiyyat, elm, incəsənət və idman xadimlərinə həsr olunmuş, eləcə də dünya ədəbiyyatının nadir incilərini əks etdirən və rəngli illüstrasiyalı uşaq miniatür kitabları sərgilənir.

“Muzeydə miniatür dini kitablar, o cümlədən ən qədim miniatür kitab - 1672-ci ildə Səudiyyə Ərəbistanında çap olunan Quran nümayiş etdirilir. Ən kiçik miniatür kitab isə “Moy Baku” kitabıdır,” - deyə Ellada Rəhimova söyləyib.

Həmçinin muzeydə Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən, Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya həsr olunmuş miniatür kitablar da nümayiş etdirilir.

Şəhər sakinlərinin və turistlərin diqqətini cəlb edən muzey Gəncənin Heydər Əliyev adına baş meydanında yerləşir. Muzeyin əsas məqsədi şagirdləri, tələbələri, sakinləri və şəhərin qonaqlarını miniatür kitab eksponatları ilə tanış etməkdir.

## Yeni sitrus bağları salınır

Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq, Astara rayonunda kənd təsərrüfatı məhsulları istehsalı və emalı sahəsinin inkişafı, o cümlədən intensiv bağçılıq təsərrüfatının yaradılması istiqamətində tədbirlər davam edir. Təkcə son illər rayon üzrə fermer və sahibkarlar tərəfindən yeni innovativ üsulların tətbiqi ilə 200 hektar intensiv subtropik və sitrus meyvə bağı salınmışdır.

“İmanna” MMC-nin Ərçivan qəsəbəsindəki ümumi sahəsi 40 hektar olan sitrus meyvə bağının salınmasına 2018-ci ildən başlanmışdır. Hazırda təsərrüfatda türkiyəli mütəxəssislərin iştirakı ilə 10 hektar sahədə ən yeni üsullarla “Miaqava” yapon naringi sortu tingləri əkilir. Bundan başqa, MMC-nin rayonda sutkalıq gücü 40 ton olan çəltik dəyirmanı, 34 hektar çəltik sahəsi var.

Ümumiyyətlə, Prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafı ilə bağlı tapşırıqları çərçivəsində Astara rayonu üçün xarakterik olan kənd təsərrüfatı sahələrinin, o cümlədən subtropik və sitrus meyvə bağlarının sahəsi son illər xeyli genişləndirilmiş, yeni bağlar salınmışdır. Sitrusçuluğun inkişafına təsir edən əsas amillərdən biri də fermer və sahibkarlara güzəştli qaydalarla gübrələrin verilməsi və subsidiyaların tətbiq edilməsidir. Təkcə ötən il rayon üzrə fermer və sahibkarlara güzəştli şərtlərlə 350 ton gübrə verilmiş, 483 min 261 manat sübsidiya ödənilmişdir.



Məlumdur ki, aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında Prezidentin fərmanına əsasən “Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası” təsdiq edilmiş, yeni subsidiya mexanizminin tətbiqinə başlanmışdır. Yeni qaydalara görə, 2021-ci ildə salınacaq intensiv limon bağlarının hər hektarı üçün 11 min, portağal və naringi bağlarına 9 min manat birdəfəlik subsidiyaların verilməsi nəzərdə tutulmuşdur. Bütün bu tədbirlər son nəticədə ölkəmizdə ekoloji cəhətdən təmiz ərzaq məhsullarının istehsal olunmasına, ölkəmizin ixrac potensialının artırılmasına və yeni iş yerlərinin yaradılmasına hesablanmışdır.

***Safail MƏMMƏDOV,***
***Astara rayonu***



# DÜNYA



Münaqişə



# Yaxın Şərqdə vəziyyət nəzarətdən çıxa bilər

## İsrail-Fələstin silahlı qarşıdurmasını dinc məcraya yönəltmək mümkün olmur

Bəşəriyyət yeni tip koronavirus pandemiyası ilə mübarizə apardığı bir vaxtda İsraillə Fələstin arasında növbəti silahlı münaqişənin şahidi olmaq məcburiyyətində qalmışdır. Qanlı qarşıdurma artıq on gündür davam edir. Münaqişənin tərəflərindən heç biri qılıncı qına qoymaq barədə düşünmür. Yaxın Şərqin yenidən qan gölünə çevrilməməsi üçün müxtəlif səviyyələrdə göstərilən səylər nəticəsiz qalır. Ölənlərin və yaralananların sayı gündən-günə artır, dağıntıların miqyası böyüyür.

Son məlumata görə, mayın 10-dan bəri İsrailin 10 vətəndaşı, o cümlədən bir hərbçi və bir uşaq həlak olmuşdur. Fələstin tərəfində tələfat daha çoxdur: Qəzzə bölməsində 188 nəfər, o cümlədən təxminən həddi-büluğa çatmamış 60 şəxs və 30-dan çox qadın silahlı qarşıdurmanın qurbanı olmuş, 1200 nəfərdən artıq adam yaralanmışdır. Həmçinin 500-dən çox mənzil, o cümlədən çoxmərtəbəli binalar tamamilə, 2500-ə yaxın bina qismən dağılmış, 10 elektrik nəqli xəttinin 8-i sıradan çıxmışdır. Bundan əlavə, İordan çayının qərb sahilində İsrail sərhəd polisi ilə toqquşmalarda 20-dən çox fələstinli həlak olmuş, təxminən 4300 nəfər yaralanmışdır.

Eyni zamanda İsrail şəhərlərinin küçələrində də ərəblərlə yəhudilər arasında kütləvi toqquşmalar baş vermişdir. Bununla əlaqədar Lod şəhərində saat 20:00-dan 04:00-dək komendant saatı tətbiq edilmişdir.

Faciəvi hadisələr əslində mayın 7-də Şərqi Qüdsün Şeyx Cərrah məhəlləsində - əl-Əqsa məscidinin yaxınlığında başlamışdır. Həmin gün İsrail güc strukturları məhəllədə yaşayan səkkiz fələstinli ailəni məhkəmənin qərarı ilə evlərindən çıxarırdı: qərara görə, həmin evlər 1948-ci ildən qabaq yəhudilərə məxsus olub. Bu, Qüdsdə yüzlərlə adamın yaralanması ilə nəticələnən kütləvi etiraz aksiyalarına və iğtişaşlara gətirib çıxardı. Məhəllədə İsrail polisi ilə fələstinlilər arasında başlamış qarşıdurma əl-Əqsa məscidinin ətrafına sıçradı. Polis namaz qılmağa hazırlaşan möminləri rezin güllələrlə atəşə tutdu, habelə səs qumbaraları və gözyaşardıcı qaz tətbiq etdi, sonra 200-dən çox polis əməkdaşı məscidə daxil olub möminləri bayıra çıxmağa məcbur etdi.

Mayın 10-da İsrail Fələstinin Qəzzə bölməsindən kütləvi raket atəşinə tutulmuşdur. Bölməni idarə edən İslam Müqavimət Hərəkatı (HƏMAS) İsrail ərazisinə azı 150 raket atmış, buna cavab olaraq İsrail ordusu Fələstin anklavındakı hədəflərə ilk hücum dalğasını başlatmışdır.

İsrail Xarici İşlər Nazirliyi beynəlxalq ictimaiyyəti Qəzzə bölməsinə nəzarət edən HƏMAS hərəkatını İsrail şəhərlərini raket atəşinə tutduğuna görə pisləməyə çağırmışdır. Baş nazir Benyamin Netanyahu bildirmişdir ki, İsrail Qəzzəyə endirilən zərbələrin "gücünü və tezliyini" artırmaq niyyətindədir. O əlavə etmişdir ki, Fələstin radikal qruplaşmalarının mövqelərinə hava hücumu lazım olduğu qədər davam edəcək.

Öz növbəsində HƏMAS ərəb ölkələrini İsrail ilə sülh müqavilələrini ləğv etməyə çağırmışdır. Hərəkat həmçinin bəyan etmişdir ki, İsrailin hesablamalarına yenidən baxmalıdır. HƏMAS bildirmişdir ki, İsrail ordusu Qəzzə bölməsində evləri, qadınları və uşaqları vurur, bu səbəbdən hərəkat yəhudi dövləti ilə qarşıdurmada "zərbəyə zərbə ilə cavab vermək üçün bütün gücündən istifadə edəcək". Həmçinin HƏMAS İsrail ərazisində və İordan çayının qərb sahilində yaşayan bütün fələstinliləri İsrail hüquq mühafizə orqanlarına müqavimət göstərməyə çağırmışdır.

Beləcə İsrail-Fələstin qarşıdurması qızışmaqda davam edir, daş daş üstündə qalmır, insan tələfatı artır. Beynəlxalq ictimaiyyətin, ayrı-ayrı dövlətlərin münaqişə zonasında sakitliyi bərpa etmək cəhdləri hələlik uğurla nəticələnmir. Məsələ üç dəfə BMT Təhlükəsizlik Şurasında müzakirəyə çıxarılmış, amma münaqişənin tənzimlənməsində irəliyə doğru hansısa addım atılmamışdır. Hər dəfə ABŞ Təhlükəsizlik Şurasının qərar qəbul etməsinə imkan verməmişdir. Sonuncu dəfə Norveç, Tunis və Çinin hazırladığı bəyanat layihəsində münaqişənin hər iki tərəfi tənqid olunur, atəşi dərhal dayandırmaq və problemin dinc həlli yolunu tapmaq çağırışı yer alırdı. Əldə olan məlumata görə, ABŞ öz diplomatik səylərini həyata keçirmək üçün daha çox vaxta ehtiyac duyur.

Hazırda İsrail-Fələstin münaqişəsini tənzimləmək üçün yalnız ABŞ səy göstərir. Dövlət katibi Entoni Blinken bildirmişdir ki, "münaqişəni nizamlamağa çalışır, bu istiqamətdə kulislər arxasında fəal iş aparırıq". Blinken növbəti dəfə vurğulamışdır ki, İsrailin özünümüdafiə hüququ var, amma mülki əhali arasında tələfatın qarşısını almaq üçün mümkün olan hər şeyi etmək lazımdır.

Bununla belə, Yaxın Şərqdə cərəyan edən proseslər beynəlxalq ictimaiyyətdə narahatlıq doğurur. Atəşin dayandırılmasının zəruriliyi barədə münaqişə iştirakçılarına ünvanlanan çağırışlara qulaq asan yoxdur. Artıq tamhüquqlu silahlı münaqişə xarakteri almış İsrail-Fələstin qarşıdurması bütövlükdə regionun gələcəyinə ciddi təhlükə yaradır. BMT-nin Baş katibi Antoniu Quterreş xəbərdarlıq etmişdir ki, böhran bütün region üçün idarəolunmaz fəsadlar doğura bilər. Ona görə də Baş katib hesab edir ki, "mənasız yerə qan axıdılması dərhal dayandırılmalıdır".

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

Sağlamlıq

# ABŞ-da millenialların yarısının xroniki xəstəliyi var



Amerikalı millenialların (1981-1988-ci il təvəllüdlü şəxslər) yaşlı hissəsinin təxminən yarısı xroniki xəstəliklərdən əziyyət çəkir. Bu məlumat CNBC telekanalının və "The Harris Poll" sosioloji şirkətinin birgə apardığı tədqiqatda yer almışdır.

Rəyi soruşulanların 44 faizi bildirmişdir ki, milleniallara ən azı bir xroniki xəstəlik diaqnozu qoyulmuşdur. Respondentlərin 19 faizi bir xəstəlik, 11 faizi iki, 9 faizi üç, 4 faizi dörd, 2 faizi beş və ya daha çox xəstəliyin mövcud olması barədə məlumat vermişdir.

Rəy sorğusu ötən ay həddi-büluğa çatmış 4 min amerikalı arasında keçirilmişdir. Onların 831-i 33-40 yaşlı idi. Ən çox yayılmış xəstəliklər miqren (26 faiz), depressiya (23 faiz), astma (19 faiz), ikinci tipli diabet (16 faiz), hipertoniya (15 faiz), əsəb-psixi inkişafın pozulması (13 faiz) və mədə pozğunluğudur (12 faiz).

Tədqiqatçılar qeyd edirlər ki, nisbətən gənc millenialların üzləşdikləri xroniki xəstəliklər, çox güman, onların müalicə xərclərini artırmasına gətirib çıxaracaq və onların rifahına mənfi təsir göstərəcək. "Moody's" şirkəti hesablamışdır ki, milleniallar nəslinin xroniki xəstəliyi olan amerikalı nümayəndəsinin illik gəliri müalicə, dərman və bu kimi digər xərclər üzündən 4,5 min dollar azala bilər.

Yenilik

# Düşüncənin gücü ilə mətn yazmaq mümkün olacaq



ABŞ alimləri əlin zehni hərəkətini ekranda mətnə çevirməyə imkan verən Mindwriting adlı interfeys yaratmışlar. Mətnin yığılması sürəti dəqiqədə 90 simvoldur. Bu barədə "Nature" jurnalı xəbər verir.

Yeni texnologiya ilk növbədə bu və ya digər səbəbdən hərəkət etmək qabiliyyətini itirmiş adamlar üçün nəzərdə tutulmuşdur. Alimlər müəyyən etmişlər ki, beyin bədən əmrlərini yerinə yetirmək qabiliyyətini itirməsindən sonra onilliklər ərzində dəqiq hərəkətləri təmsil etmək qabiliyyətinə malikdir.

Bundan əlavə, Stənford Universitetinin, Braun Universitetinin, Massaçuset Ümumi Profilli Xəstəxanasının, Harvard Tibb Məktəbinin, Providens şəhərindəki Veteranların Tibb Mərkəzinin və Keys Vestern Rezerv Universitetinin mütəxəssisləri beynin fəallığının şifrəsini aça bilmişlər. Alimlər buna tədqiqat zamanı ilk dəfə nail olmuşlar.

Ekologiya

# Amazon meşələri karbon qazını udduğundan çox ifraz edir



Planetin haqlı olaraq ağciyəri adlandırılan Amazon tropik meşələri son on ildə karbon qazını udduğundan daha çox ifraz edir. Alimlər həyəcan təbili çalaraq hesab edirlər ki, bəşəriyyət antropogen karbon çirklənməsinin udulması baxımından dünyanın ən böyük tropik meşə massivinə artıq bel bağlaya bilməz. Bu barədə naked-science.ru saytı xəbər verir.

Ekosistemlər 2019-cu ildə 40 milyard tondan çox olmuş karbon qazı tullantıları ilə mübarizədə ən mühüm müttəfiqdir. Son 50 ildə bitkilər və torpaq bu tullantıların təxminən 30 faizini, okeanlar isə 20 faizindən çoxunu udmuşdur. Özü də tropik meşələr digər meşə növlərinə nisbətən karbon qazını həm udmaqda, həm də saxlamaqda daha effektivdir. Dünyanın tropik meşələrinin təxminən yarısı Amazon hövzəsindədir və ona görə də ekoloqlar bu regiona daha çox ümid bəsləyirlər.

Oklahoma Universitetinin, Kaliforniya Texnologiya İnstitutunun (ABŞ), Milli Aqronomiya İnstitutunun (Fransa), Kopenhagen Universitetinin (Danimarka), Cənub-Qərb Universitetinin (Çin) alimləri aydınlaşdırmışlar ki, deyəsən, bunların hamısı boş söhbətdir. Mütəxəssislər illik peyk məlumatlarını təhlil edərək belə bir qənaətə gəlmişlər ki, 2010-2019-cu illərdə Amazon hövzəsindəki Braziliya meşələri 16,6 milyard ton karbon qazı buraxmış və 13,9 milyard ton qaz udmuşdur. Beləliklə, bu meşə indi planetin dostu yox, bir növ düşməni kimi özünü göstərir, zərərli maddələri udduğundan çox ifraz edir. Bu prosesi, yəqin ki, neytrallaşdırmaq olar, amma onun nə vaxt dönməz xarakter daşıyacağı bilinmir.

Tədqiqat həmçinin göstərmişdir ki, Amazonda meşələrin qırılması 2017-2018-ci illərlə müqayisədə 2019-cu ildə, demək olar ki, dörd dəfə sürətlənmişdir. Yanğınlar və ağacların kəsilməsi ucbatından meşə sahəsi həmişəki kimi 1 milyon hektar yox, 3,9 milyon azalmışdır. Alimlərin fikrincə, ekosistemin deqradasiyasına gətirib çıxaran meşələrin qırılması da $CO_2$ tullantılarının artmasının səbəbidir.

# ABŞ peyvənd ixracına başlayır

Gələn ayın sonunadək ABŞ başqa ölkələrə əvvəllər vəd etdiyi 60 milyon doza peyvəndə əlavə olaraq azı 20 milyon doza tədarük edəcək. Beləliklə, ABŞ hər hansı digər ölkə ilə müqayisədə daha çox peyvənd ixrac edəcək.

ABŞ Prezidenti Co Bayden bildirmişdir ki, "dünyada yaşanan pandemiya nəzarət altına alınmayanadək Amerikanın heç vaxt tamamilə təhlükəsiz olmayacağını bilirik". Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Gebreyesus ABŞ-ın qərarını alqışlamışdır. O əlavə etmişdir ki, COVAX mexanizminin tərəfdaşları dərmanların ədalətli bölüşdürülməsini dəstəkləməyə hazırdırlar. Gebreyesus vurğulamışdır ki, həmrəylik bütün dünyada insan həyatlarını xilas etməyin yeganə üsuludur.

# Aİ hakerlərə qarşı sanksiyaların müddətini uzatdı

Avropa İttifaqı (Aİ) Şurası Aİ-yə və ya üzv-dövlətlərə təhlükə yaradan kiberhücumlara görə tətbiq olunmuş sanksiya mexanizmini 18 may 2022-ci ilədək uzatmışdır. Brüsseldə vurğulamışlar ki, Aİ qlobal, açıq, sabit, dinc və təhlükəsiz kibərməkanın tərəfdarıdır, bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsinin vacibliyini dəstəkləyir.

8 fiziki şəxsə və 4 şirkətə qarşı məhdudlaşdırıcı tədbirlər artıq qüvvədədir. Kibercinayətkarların Aİ ərazisinə girişi qadağan edilmiş, onların Aİ-nin üzvü olan ölkələrin banklarındakı hesablarına həbs qoyulmuşdur. Sanksiya mexanizmi ilk dəfə 2020-ci ilin iyulunda tətbiq olunmuşdur. Aİ Kimyəvi Silahların Yasaqlanması Təşkilatına kiberhücum cəhdləri göstərdiklərinə görə Rusiya vətəndaşları Aleksey Minin, Aleksey Morenets, Yevgeni Serebryakov və Oleq Sotnikovu cəzalandırmışdır. O vaxt Çin və Şimali Koreyadan olan hakerlər də sanksiya siyahısına düşmüşlər.

Ötən ilin oktyabrında Aİ Rusiya Silahlı Qüvvələri Baş Qərargahının Baş İdarəsinin (keçmiş Baş Kəşfiyyat İdarəsi) rəisi İqor Kostyukov, Baş İdarənin zabiti Dmitri Badin və Baş İdarənin 85-ci baş mərkəzinə qarşı məhdudlaşdırıcı tədbirlər tətbiq etmişdir. Aİ hesab edir ki, onların 2015-ci ilin aprel-may aylarında Almaniya Bundestaqına kiberhücumda əli olmuşdur.

# Hindistanda qasırğa üzündən 200 min nəfər köçürüldü

Hindistanın qərb ştatlarını son 20 ilin ən güclü siklonu - "Tauktae" qasırğası vurmuşdur. Sürəti saatda 210 kilometrə çatan külək ev və yolların su altında qalmasına, dağıntılara səbəb olmuş, təxminən 200 min nəfəri təxliyə etmək lazım gəlmişdir. Bölgədə dəniz və hava limanları bağlanmışdır. İlkin məlumata görə, azı 21 nəfər həlak olmuşdur. 96 nəfər itkin düşmüş hesab edilir. Yüz minlərlə adam işıqsız qalmışdır, çünki güclü külək nəticəsində ağaclar yıxılıb elektrik xətlərini sıradan çıxarmışdır.Yolları su basdığından koronavirus xəstələri üçün xəstəxanalara oksigen tədarükü çətinləşmişdir.

# İspaniyanın Seuta eksklavı Afrikadan rekord miqrant axını ilə qarşılaşıb

Təxminən 5 min miqrant, o cümlədən həddi-büluğa çatmayan min nəfər qanunsuz olaraq Mərakeşdən İspaniyanın Afrikanın şimal sahilində yerləşən Seuta eksklavına girmişdir. İspaniya hakimiyyət orqanlarının nümayəndəsi bildirmişdir ki, bu, bir gündə maksimum saydır.

Miqrantlar xilasetmə vasitələri və şişmə qayıqlarla gəlmişlər. Onları müvəqqəti yaşayış düşərgəsinə göndərmişlər. İspaniya bölgədə təhlükəsizlik qüvvələrinin sayını artırmaq niyyətindədir. Bundan əvvəl Madrid və Rabat Seutaya su yolu ilə gələn qanunsuz miqrantların Mərakeşə qaytarılması barədə razılığa gəlmişlər.

Ötən ayın axırlarında 100-ə yaxın miqrant üzüb eksklava daxil olmuşdu. Onların əksəriyyəti yenidən Mərakeşə göndərilmişdir.

İspaniyanın Seuta və Melilya şəhər-eksklavlarından keçən marşrut afrikalıların Qərbi Avropaya keçmək üçün istifadə etdikləri əsas yollarındandır.

İqlim dəyişikliyi

# 2011-2020-ci illər onilliyi ən isti dövr olub



2011-2020-ci illər onilliyi bütün müşahidələr tarixi boyunca ən isti dövr olmuşdur. Sənayeləşmə fonunda 2020-ci ildə havanın orta temperaturu 1850-1900-cü illərlə müqayisədə 1,2 dərəcə yüksək idi. Beləliklə, 2020-ci il müşahidələr tarixində 2016-cı ildən sonra ən isti ikinci il kimi qeydə alınmışdır. Bu barədə "Anadolu" agentliyi Dünya Meteorologiya Təşkilatına (WMO), iqlim dəyişikliyi problemi ilə məşğul olan bir sıra digər beynəlxalq qurumlara və qeyri-hökumət təşkilatlarına, eləcə də bu sahədə tədqiqatlar aparan alimlərə istinadən xəbər verir.

Hər il mayın 15-i Beynəlxalq İqlim Günü kimi qeyd olunur. Məqsəd diqqəti qlobal istiləşmə, okeanlarda suyun temperaturunun yüksəlməsi və buzlaqların əriməsi nəticəsində yaranmış iqlim problemlərinə cəlb etməkdir.

İstiləşmə, okeanlarda suyun temperaturunun artması və buzlaqların əriməsi yeni tip koronavirus infeksiyası (COVID-19) ilə əlaqədar tətbiq olunmuş məhdudiyyətlər fonunda yavaşımışdır, lakin hələ də insan həyatı üçün təhlükə yaradır. 2020-ci ildə qlobal istiləşmə və atmosferə karbon qazı tullantıları azalmış, amma dayanmamışdır.

WMO-nun verdiyi məlumata görə, yaxın beş ildə dünyada heç olmazsa bir ilin sənayeləşmədən əvvəlki dövrlə müqayisədə 1,5 dərəcə isti olması ehtimalı 3-24 faiz arasında dəyişir.

# TAP - Avropaya yeni mənbədən və yeni marşrutla qaz axını

Vətən müharibəsinin şiddətli döyüşlərinin getdiyi, Azərbaycan Ordusunun düşmən tapdağında olan kənd və şəhərlərimizi bir-birinin ardınca azad etdiyi günlərdə bir qələbənin müjdəsini də iqtisadi sahədən aldıq. Trans-Adriatik Qaz Boru Kəmərinin (TAP) tikintisinin yekunlaşması həmin vaxta təsadüf etdi. Bu, Azərbaycanın neft-qaz tarixində qazanılan, uğurla gerçəkləşən qlobal layihələr salnaməsinə yazılan bir qələbə idi. Zəfər ilimizin son günündə - dekabrın 31-də isə TAP Azərbaycan qazını Avropaya çatdırdı. Beləliklə, tikinti işləri dörd il yarımdan çox çəkən layihə vaxtında və müvəffəqiyyətlə tamamlandı.




TAP Azərbaycanın təşəbbüsü və liderliyi ilə həyata keçirilmiş "Cənub qaz dəhlizi" layihəsinin ayrılmaz hissəsi, dörd seqmentinin sonuncusudur. Onun istifadəyə verilməsi həm də "Cənub qaz dəhlizi"nin tam sistem kimi işə düşməsi deməkdir. 3500 kilometrlik bu dəhliz Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan qazı Gürcüstandan keçməklə Türkiyəyə və oradan da Avropaya daşıyan üç kəmərdən - CQBK (Cənubi Qafqaz Boru Kəməri), TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-dan ibarətdir.

TAP-ın təməli 2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulub. Təməlqoyma mərasimində Azərbaycanın, Yunanıstanın, ABŞ-ın, Albaniyanın, İtaliyanın, Türkiyənin, Gürcüstanın, Bolqarıstanın yüksəkvəzifəli şəxsləri, Avropa Komissiyasının və konsorsiuma daxil olan şirkətlərin səlahiyyətli nümayəndələri iştirak ediblər.

Trans-Adriatik Qaz Boru Kəmərinin inşasına başlanması region üçün böyük əhəmiyyət kəsb edən hadisə idi. Çünki bu kəmər enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə və mənbələrin şaxələndirilməsinə ciddi dəstək verəcək. O, eyni zamanda regionda əməkdaşlıq körpülərini möhkəmləndirəcək, yüksək gəlirlər, firavanlıq, xeyir-bərəkət gətirəcək.

Təməlqoyma mərasimində bildirilmişdi ki, 2020-ci ildən başlayaraq Azərbaycan qazının Avropaya nəqli nəzərdə tutulur. Ona görə də qarşıda qazı Avropa bazarına vaxtında çatdırmaq, tranzit və istehlakçı ölkələrin hər birinin iqtisadi maraqlarının təmin edilməsinə nail olmaq kimi əsas vəzifə dayanır. Zaman bu vəzifələrin layiqincə yerinə yetirildiyini göstərdi.

TAP "Şahdəniz-2" qazını Yunanıstanın və Albaniyanın ərazisindən, Adriatik dənizinin altından keçirərək İtaliyanın cənubuna, bu ölkədən də Qərbi Avropaya çatdırır. Belə ki, TAP uzunluğu təxminən 878 kilometr olan boru xəttidir. Onun 550 kilometri Yunanıstanın, 210 kilometri Albaniyanın ərazisindən, 105 kilometri Adriatik dənizinin altından keçir və sonuncu, bir neçə kilometrlik hissəsi İtaliya torpağında quru sahəyə çıxır. Burada kəmər "Snam Rete Gas" şirkətinin istismar etdiyi qaz nəqliyyatı şəbəkəsi ilə birləşir.

Göründüyü kimi, kəmər coğrafi şəraiti fərqli olan ərazilərdən keçir. Marşrut boyu kəmərin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi isə Albaniya dağlarında 1800 metrə çatan zirvələrdədir. Tikinti işlərinin çətinliyi də məhz bununla bağlı idi . TAP-ın bir sıra yerüstü obyektləri, məsələn, ölçmə və kompressor stansiyaları da var ki,onların da tikintisi inşaatçılardan böyük səriştə və məsuliyyət tələb edirdi.

TAP-ın tikintisinin uğurla başa çatması həm də onu sübut edir ki, Azərbaycan qazını Avropaya nəql etmək üçün iddialı olan 4 kəmərdən məhz bu xəttə üstünlük verilməsi düzgün olub. Seçim hələ 2013-cü ildə edilib.

Seçim prosesində TAP səkkiz şərtə görə üstünlük qazanıb. Bunlardan birincisi, kəmərin kommersiya səmərəliliyidir. İkinci, üçüncü və dördüncü əsas şərt layihənin icra mümkünlüyü, həmçinin maliyyə baxımından icra mümkünlüyü və texniki layihələndirmədir. Daha bir vacib məsələ kimi tənzimləmə və şəffaflıq götürülüb. Altıncı amil kəmərin təhlükəsizliyi və səmərəli istismarının mümkünlüyüdür. TAP eləcə də digər kəmərlərdən genişləndirmə imkanlarının olduğuna görə fərqlənir. Nəhayət, qiymətləndirmə zamanı ictimai maraqlarla bağlı amillər da nəzərə alınıb.

TAP layihəsinin reallaşması ilə Avropa bazarlarına yeni mənbədən qaz çıxışına şərait yaranıb. Kəmərlə ilk dövrlərdə Avropaya ildə 10 milyard kubmetr qaz çatdırılacaq. Sonrakı illərdə mavi yanacağın həcmi 20 milyard kubmetrə qədər artırılacaq. Xatırladaq ki, TAP xətti İtaliyada bitməsinə baxmayaraq, gələcəkdə Azərbaycan qazının Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün də böyük imkanlar yaradır.

TAP-ın səhmdarları BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagas" (16 faiz) və "Axpo" (5 faiz) şirkətləridir.

Layihənin uğurla tamamlanmasında Azərbaycanın rolu şəksizdir. Bu işdə "Cənub qaz dəhlizi" Məşvərət Şurasının 2015-ci ildən başlayaraq ildə bir dəfə Bakıda keçirilən iclasları mühüm əhəmiyyət daşıyıb.Yalnız sonuncu - yeddinci toplantı pandemiya ilə bağlı videoformatda keçirilib.Bu toplantılarda "Cənub qaz dəhlizi"nin digər seqmentləri kimi TAP-ın reallaşmasında ortaya çıxan məsələlər də geniş müzakirə olunub və layihə iştirakçılarının birgə səyi ilə həll edilib.

Məşvərət Şurasının toplantılarına məhz Bakının evsahibliyi etməsi bir daha sübut edir ki, Azərbaycan layihənin aparıcı qüvvəsidir. Bu, həm də ölkəmizin yaratdığı mükəmməl beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq platformasının təsdiqi, Prezident İlham Əliyevə dünyada bəslənən hörmət və inama aydın misaldır.

5 il əvvəl təməli qoyulan TAP-ın işə düşməsi və artıq ahəngdar fəaliyyət göstərməsi ölkəmiz üçün mühüm tarixi hadisədir. Regionun və Avropanın enerji təhlükəsizliyində önəmli əhəmiyyətə malik "Cənub qaz dəhlizi"nin sonuncu hissəsinin yekunlaşması həm də Azərbaycan qazını gözləyən bütün ölkələr, layihədə tərəfdaşlıq edən şirkətlər üçün böyük hadisə kimi dəyərləndirilir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Azərbaycanla Türkiyə arasında dostluq, qardaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun inkişaf edir

Mayın 18-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı ilə görüşüb.



QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfiri səmimi salamlayan QMİ sədri A. Paşazadə Azərbaycanla Türkiyə arasında dostluq, qardaşlıq münasibətlərinin yüksək səviyyəsini, dövlətlərimizin, xalqlarımızın mənafelərinə uyğun inkişafını məmnuniyyətlə qeyd edib. O, ölkəmizə yeni təyin olunmuş Türkiyə səfirinin bu əlaqələrin daha da dərinləşməsinə töhfə verəcəyinə, mövcud körpülərin daha da möhkəmləndirilməsi üçün səy göstərəcəyinə ümidvar olduğunu bildirib, səfirə fəaliyyətində xeyir-dua diləyib.

Prezident İlham Əliyevin Türkiyə-Azərbaycan münasibətlərini Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kimi dəyərləndirməsinə uyğun şəkildə uğurla inkişaf etdirməsindən qürur duyduğunu bildirən Şeyxülislam A.Paşazadə qardaş ölkə olan Türkiyə səfiri ilə təkcə diplomat kimi deyil, məhz qardaş qismində görüşdüyünü xüsusi qeyd edib. QMİ sədri səfirin Azərbaycanın şanlı Vətən müharibəsində qazandığı Zəfər dövründə qardaş Türkiyə dövlətinin ölkəmizdə təmsilçisi olmaq şərəfinə malik olmasını böyük nemət kimi dəyərləndirib. Türkiyə ilə Azərbaycan arasında dini-mənəvi əlaqələrin hər zaman yüksək səviyyədə olmasından fəxarət duyduğunu bildirən Şeyxülislam A. Paşazadə ölkələrimizi istəməyən qüvvələrə qarşı mütəşəkkil olmağın vacibliyinə diqqəti çəkib.

Qardaş Türkiyə dövlətinin şanlı Vətən müharibəsi dövründə Azərbaycana mənəvi dəstəyini və qardaş həmrəyliyini yüksək dəyərləndirən QMİ sədri A.Paşazadə ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni və dini-mənəvi əlaqələrin önəm kəsb etməsinə və davamlı inkişaf etdirilməsinin vacibliyinə diqqəti çəkib. Qafqaz Müsəlmanları İdarəsi ilə Türkiyə Diyanet İşleri Başkanlığı arasında dini-mənəvi əməkdaşlığın səviyyəsindən razılığını bildirən Şeyxülislam A. Paşazadə müfti Əli Erbaşla olan qardaşlıq münasibətlərini, birgə səylərini yüksək qiymətləndirib.

Səfir C.Bağçı qəbula görə minnətdarlıq edib, qardaş Azərbaycan dövlətində səfir kimi fəaliyyətə başlamasından məmnunluğunu dilə gətirərək, bugünədək mötəbər beynəlxalq tədbirlərdən tanıdığı nüfuzlu dini lider olan Şeyxülislam Allahşükür Paşazadə ilə şəxsən görüşünə böyük dəyər verdiyini xüsusi vurğulayıb. O, Türkiyə dövlətinin hər zamankı kimi, bundan sonra da qardaş Azərbaycanla bütün müstəvilərdə və platformalarda bir yerdə olacağına əminliyini ifadə edib. Səfirin Qüds məsələsinə dair müsəlman dünyasının narahatlığını qeyd etməsi ilə bağlı Şeyxülislam A. Paşazadə "Qurani-Kərim"də zikr olunan Qüdsü-Şərifin islam aləmi üçün müqəddəslik kəsb etdiyini və müqəddəsliklərə münasibətin dəyişməz olduğunu xüsusi vurğulayıb.

Şeyxülislam A. Paşazadə səfirə qarşıdakı fəaliyyətində uğurlar diləyib, xalqlarımız, dövlətlərimiz üçün yeni uğurlara vəsilə olması üçün dualar edib, ən xoş arzularını bildirib.


## "Azərsu" ASC daxili vəsaiti hesabına Sumqayıt şəhəri, Şəhidlər xiyabanı ərazisindən keçən diametri 1000 mm-lik tullantı su kollektorunda baş vermiş qəzanın aradan qaldırılması məqsədilə diametri 1000 mm olan polietilen borunun satın alınması məqsədilə kotirovka sorğusu elan edir

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Satınalmaların təşkili şöbəsinə (əlaqələndirici şəxslər: Şöbə rəisi - İlqar Tağıyev, Tel: 431 47 67 /1033 və şöbə rəisinin müavini - İntizam Novruzov, Tel: 4314767 /2259, intizam.novruzov@azersu.az) yazılı müraciət edərək kotirovka sorğusunu əldə edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 24 may 2021-ci il saat 16:00-dan gec olmamaq şərtilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri "Azərsu" ASC, Bakı şəhəri, Moskva prospekti, 67 nömrəli ünvanda 25 may 2021-ci il saat 15:00-da açılacaqdır.

İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***


# Bakı Baş Gömrük İdarəsinin bəzi vəzifəli şəxslərinin qanunsuz əməlləri ilə bağlı cinayət işi başlanıb

Azərbaycan Respublikasının Baş Prokurorluğu və Dövlət Gömrük Komitəsi Bakı Baş Gömrük İdarəsinin bəzi vəzifəli şəxslərinin qanunsuz hərəkətləri ilə bağlı birgə məlumat yayıb.

Hər iki qurumun Mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilib ki, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsindən gömrük rəsmiləşdirilməsi zamanı süründürməçiliyə yol verilməklə qeyri-qanuni tələblərin irəli sürülməsi barədə martın 30-da daxil olmuş məlumat əsasında Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində (KQMBİ) ilkin araşdırma aparılıb və birgə əməliyyat-axtarış tədbirləri həyata keçirilib.

Aparılmış əməliyyat-istintaq tədbirləri zamanı Bakı Baş Gömrük İdarəsinin Xüsusi gömrük prosedurları şöbəsinin rəisi Aydın Eylazov, həmin struktur qurumun Gömrük prosedurları və ödənişləri şöbəsinin baş inspektorları Elmar Mirzəyev və Emin Xəlilov, "İpək Yolu" gömrük postunda inspektor işləyən Mirağa Ağayev, habelə "Global Broker" MMC-nin direktoru olmaqla "D2D Logistics" MMC-də gömrük işləri üzrə mütəxəssis işləyən Ceyhun Şabanovun idxal olunmuş malların gömrük orqanından çıxarılmasının tezləşdirilməsi, eləcə də müəyyən malların sərbəst dövriyyəyə buraxılışı üçün ödənilməli olan gömrük rüsumları və vergilərin 3 faizi miqdarında müəyyən edilmiş məbləğdən idxal və əlavə dəyər vergisi üzrə ödənilməli olan pul vəsaitinin büdcəyə ödənilməyərək malın gömrük nəzarətindən buraxılmasına şərait yaradılması müqabilində müxtəlif məbləğlərdə pul vəsaitini rüşvət qismində istəməklə almaları və vəzifə səlahiyyətlərindən sui-istifadə etmələrinə əsaslı şübhələr müəyyən olunub.

Bununla bağlı mayın 17-də Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 311.3.2-ci (təkrar rüşvət alma) maddəsi ilə cinayət işi başlanıb.

Toplanmış sübutlar əsasında Elmar Mirzəyev, Emin Xəlilov, Mirağa Ağayev, Ceyhun Şabanov və Aydın Eylazov şübhəli şəxs qismində tutulublar.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirlərinin həyata keçirilməsi davam etdirilir.

İstintaqın gedişatı ilə əlaqədar ictimaiyyətə əlavə məlumat veriləcək.


## B İ L D İ R İ Ş

"Sumqayıt Kimya Sənaye Parkı" MMC tərəfindən texniki avadanlıqların satın alınması üçün kotirovka sorğusu keçirir.

Kotirovka sorğusu iştirakçılarına təklif edilir ki, qiymət təkliflərini möhürlənmiş və imzalanmış şəkildə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün iştirakçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Prosedurda iştirak etmək istəyənlər Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower"də yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər. Əlaqələndirici şəxs - Abbas Mamedov (telefon: 012-488-80-65)

İddiaçılar kotirovka sorğusunda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- Kotirovka sorğusunda iştirak etmək üçün müraciət;
- İddiaçının tam adı, təşkilatın hüquqi forması, nizamnaməsi, şəhadətnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri, dövlət reyestrindən çıxarış və ƏDV ödəyicisinin qeydiyyat bildirişinin təsdiqlənmiş surətləri və ya sistemdən çıxarış;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəllləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;
- Azərbaycan Respublikasında ən azı 10 il daimi fəaliyyət göstərdiyini və müvafiq iş təcrübəsinə malik olmasını təsdiq edən sənəd;
- Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olmasını təsdiq edən sənəd (əmr, təsisçilərin yığıncağının qərarı və s.).

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan təkliflər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Kotirovka sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar prosedurda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri **21 may 2021-ci il saat 13:00-dək** "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower" ünvanında yerləşən ofisinə yazılı formada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **21 may 2021-ci il saat 16:00-da** Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower"də yerləşən ofisində, iclas zalında açılacaqdır.

Zərflərin açılmasında iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti Polad burazların satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 2021-ci il mayın 27-si saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı, Neftçilər prospekti, 2

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.

***Müsabiqə komissiyası***

## Lənkəran Dövlət Universiteti "Atributların və mükafatlandırma nişanlarının hazırlanması"nın kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (025) 255-14-80 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 19.05.2021-ci il saat 09:00-dan 21.05.2021-ci il saat 17:00-dək Lənkəran şəhəri, Həzi Aslanov, 50 ünvanına təqdim olunmalıdır.

***Tender komissiyası***

## Lənkəran Dövlət Universiteti "Maşın və avadanlıqların alınması"nın kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (025) 255-14-80 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 19.05.2021-ci il saat 09:00-dan 21.05.2021-ci il saat 17:00-dək Lənkəran şəhəri, Həzi Aslanov, 50 ünvanına təqdim olunmalıdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən www.etender.gov.az portalında 24.12.2020-ci il tarixdə elan edilmiş "EATS-lərdə Huawei stansiyaları üçün avadanlıqların satın alınması" üzrə keçirilən açıq tenderin qalibi "TOUCHESS" MMC müəyyən edilmişdir.

Qalib təşkilatla 08.05.2021-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Təmiz Şəhər" ASC tərəfindən Təsərrüfat mallarının satın alınması məqsədilə keçirilmiş açıq tenderdə (e-tender) "Gravity LTD" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla 288071.13 manat məbləğində müqavilə imzalanmışdır.

***Tender komissiyası***

# “Təmiz Şəhər” Açıq Səhmdar Cəmiyyəti
## açıq tender elan edir

Tender 1 LOT üzrə keçirilir:

Yuma və dezinfeksiya məntəqəsi üçün ehtiyat hissələrinin və xidmətlərin satın alınması

Tender iştirakçıları https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (portal) elektron imzalar vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.Təkliflərin qiymətləndirilməsində analoji işlərdə təcrübə, maliyyə vəziyyəti, aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi üçün zəruri olan potensial meyarlara üstünlük veriləcəkdir.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər:

**İştirak haqqı - 200 AZN**
**Benefisiarın adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Hesab nömrəsi: AZ07CTRE00000000000004587901**
**SWIFT: CTREAZ22**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**Xəzinə hesab kitabın (XHK) nömrəsi: 4587901**
**Fond: 7**
**İqtisadi təsnifat kodu: 142330**

İştirak üçün ödənilən vəsait heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müfaviq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 08.06.2021-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə 17.06.2021-ci il saat 18:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 18.06.2021-ci il saat 18:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

Qeyd: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

# OXUCULARIN NƏZƏRİNƏ!
# “AZƏRBAYCAN”
## *qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *“Azərpoçt” ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Kaspi” MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

# “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” ASC-nin Baş Şirvan Kollektorunun İstismarı İdarəsi “Göyçay rayonu Bığır kəndi və Hacıqabul rayonu Meyneman kəndi qapalı drenin təmiri” xidmətlərinin satın alınması məqsədilə
## açıq tender elan edir

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının analoji işlərdə təcrübəsi, təmir bərpa işləri üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Portal vasitəsilə ala bilərlər (Əlaqələndirici şəxs: Əzizov Ərrəhman Barat oğlu, telefon: 0-21-21-6-24-51)

**İştirak haqqı: 120 manat**
**Bank rekvizitləri -**
**Baş Şirvan Kollektorunun İstismarı İdarəsi**
**H/h: AZ62CTRE00000000000002353001**
**VÖEN: 2100113541**
**Bank Dövlət /Xəzinədarlıq Agentliyi**
**VÖEN:1400155071**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T: BIK CTREAZ22**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

1. Tenderdə iştirak haqqının ödənilməsi barədə sənəd;
2. Tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);
3. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı;
4. İddiaçı (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir.

4.1. İddiaçı (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
4.2. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
4.3. İddiaçının (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin Əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim edilməlidir);

- *Azərbaycan Respublikasında vergilərə və sosial sığorta ödənişlərinə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Dövlət Vergi Xidməti tərəfindən həmin iddiaçının işçilərinin sayı, əmlakları, avadanlıqları, lazımi texniki imkanlarının olmasına dair rəsmi arayış.*

İddiaçılar (podratçılar) tenderdə iştirak etmək üçün 1-ci və 4-cü bəndlərdə göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 11 iyun 2021-ci il saat 12:00-a kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etməlidirlər. Tender təklifi və bank zəmanətini isə 22 iyun 2021-ci il saat 12:00-a qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaq. İddiaçıların təklifləri 23 iyun 2021-ci il saat 12:00-da elektron Portal vasitəsilə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***Tender komissiyası***

# “Bakı Şəhər Əsaslı Tikinti və Təmir” MMC Bakı şəhəri ərazisində dezinfeksiya işlərinin davam etdirilməsi məqsədi ilə tələb olunan dezinfeksiya edici məhlulların alınması ilə əlaqədar
## açıq tender elan edir

LOT- 1. Bakı şəhəri ərazisində dezinfeksiya işlərinin davam etdirilməsi məqsədi ilə tələb olunan dezinfeksiya edici məhlulların alınması

Tender iştirakçılarına təklif edilir ki, dövlət satınalmalarının https://www.etender.gov.az/ vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdır. Tenderdə iştirak etmək istəyən təşkilatlar iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər (Əlaqələndirici şəxs - Əhməd Məmmədov, 496-52-05).

İştirak haqqı LOT üzrə 200 (iki yüz) manatdır.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

Təşkilat - Bakı Şəhər İcra Hakimiyyətinin “Bakı Şəhər Əsaslı Tikinti və Təmir” Məhdud Məsuliyyətli Cəmiyyəti

**H/H: AZ22IBAZ38030019446253269215**
**VÖEN: 1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h:AZ03NABZ01350100000000002944**
**SWIFT- IBAZAZ2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır və ödənişlər ancaq “Asan Ödəniş” vasitəsilə həyata keçirilməlidir.

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərfin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
- *iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə vərekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *iddiaçının müvafiq sahədə fəaliyyət göstərməsinə icazə verən lisenziya;*
- *iddiaçının bu sahədə peşəkarlığını əks etdirən məlumatlar;*
- *əsas işçi heyəti və idarəetmə aparatında çalışanların ixtisasları və iş təcrübələri barədə məlumat;*
- *iddiaçının texniki imkanları (inzibati və istehsalat sahələri, nəqliyyat vasitələri və digər avadanlıqları) barədə məlumat;*
- *son 3 ildə iddiaçı tərəfindən icra edilmiş oxşar layihələr barədə məlumat.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak üçün ixtisas göstəricilərinə aid sənədləri 08.06.2021-ci il saat 11:00-dək, tender təklifi ilə bank zəmanəti sənədlərini isə 17.06.2021-ci il saat 18:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 18.06.2021-ci il saat 11:00-da açılacaqdır.

İddiaçılar açılışın nəticələrilə Portal vasitəsilə tanış ola bilərlər.

*QEYD: tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

Tenderdə yalnız “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununun 50-1.1-ci maddəsində göstərilən meyarlara uyğun gələn iddiaçılar iştirak edə bilərlər.

***Tender komissiyası***

# “Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi” Publik Hüquqi Şəxsi yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar +99412 525 92 09 (daxili 8091) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 19.05.2021-ci il saat 09:00-dan 08.06.2021-ci il saat 15:00-dək qəbul olunur.

***Tender komissiyası***

# “Mingəçevir Şəhər Mərkəzi Xəstəxanası” Publik Hüquqi Şəxsi 2021-ci il üçün kotirovka sorğusu elan edir

1. Mətbəə məhsulları üzrə

Kotirovka sorğusu ilə bağlı müraciətlər 19.05.2021-ci il saat 10:00-dan 21.05.2021-ci il saat 13:00-dək qəbul edilir.

Zərflərin açılışı 24.05.2021-ci il saat 14:00-da olacaq.

**Ünvan: Mingəçevir şəhəri, 20 Yanvar küçəsi, 12**
**Telefon nömrəsi: +99455 500-45-99 ; +99455 204-15-20**

***Tender komissiyası***

# BİLDİRİŞ

“Azərişıq” ASC tərəfindən “Abşeron rayonu, Novxanı qəsəbəsi ərazisində yerləşən mövcud 35/6 kV-luq 1x10 MVA gücündə 143 saylı yarımstansiya əvəzinə yeni 35/6 kV-luq 2x10 MVA gücündə yarımstansiyanın tikintisi və avadanlıqların quraşdırılması işlərinin” satın alınması ilə əlaqədar 13 aprel 2021-ci il tarixdə “Azərbaycan”qəzetində və etender.gov.az saytında elan edilmiş elektron açıq tenderdə iştirak etmək üçün tender təklifi vermiş iddiaçıların sayı üçdən az olduğundan “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 11.1-ci bəndinə uyğun olaraq Tender komissiyasının qərarı ilə tender baş tutmamış hesab olunur və satınalma prosedurunun davamından imtina olunur.

***Tender komissiyası***

# BİLDİRİŞ

Laçın Suvarma Sistemləri İdarəsi 22 aprel 2021-ci il tarixdə mexanizmlərlə lildən təmizləmə işlərinin satın alınması məqsədi ilə keçirdiyi açıq tender prosedurunda Sabirabad Melioservis İdarəsi qalib elan olunmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

# BİLDİRİŞ

Salyan Suvarma Sistemləri İdarəsi tərəfindən www.e-tender.gov.az Portalında 05 fevral 2021-ci il və “Azərbaycan” qəzetində 06 fevral 2021-ci il tarixdə elan olunmuş PVS-1 torpaq məcralı kanalın beton üzlüklə örtülməsi işlərinin və ŞANTUİ SD-22 buldozerin təmiri işlərinin satın alınmasına dair keçirilmiş açıq tender müsabiqələrində “A+H Təmir Tikinti” MMC qalib müəyyən olunmuşdur.

Qalib şirkətlə müvafiq satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***

# ALLAH RƏHMƏT ELƏSİN!

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sosial məsələlər şöbəsinin müdiri Niyazi Rəhimova əzizi

**RİZVAN RƏHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Aviasiya Akademiyasının rəhbərliyi və kollektivi ”Dil və ictimai fənlər” kafedrasının dosenti, pedaqoji elmlər namizədi

**SƏDAQƏT ƏNVƏR QIZI MUSTAFAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Göyçaydan Mehdi Səlimzadə Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının Aparat rəhbəri Cavid Hüseynova anası

**ALMAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

**“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 5250**
**Sifariş 863**
**Qiymәti 40 qəpik**